# QARABAĞ AZƏRBAYCANDIR!


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 205 (8521) ÇƏRŞƏNBƏ, 7 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## Rəcəb Tayyib Ərdoğan bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil

**Mövlud Çavuşoğlu:** "İlham Əliyevin liderliyi ilə Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Türkiyə nümayəndə heyətini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

-Xoş gəlmisiniz, əziz Mövlud bəy, sizi salamlayıram. Şadam ki, siz gəlmisiniz. Siz Azərbaycanda dəfələrlə olmusunuz. Amma bu səfərin xüsusi önəmi var. Azərbaycan üçün o qədər də asan olmayan bir dönəmdə sizin gəlməyiniz, əlbəttə ki, xüsusi önəm daşıyır. Bu, qardaş ölkənin açıq dəstəyinin təzahürüdür. Bu dəstəyə görə Azərbaycan xalqı qardaş türk xalqına və onun Prezidentinə dərin minnətdarlıq hissi ilə yaşayır.

Mənim əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə bu günlərdə təmaslarım, onun çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır. Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır.

*Ardı 2-ci səh.*

## İLHAM ƏLİYEVİN şərtləri dəyişməzdir:

# Torpaqlarımız tam azad olunana qədər savaş davam edəcək



**Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi ordumuzun uğurlu döyüş əməliyyatları ilə davam edir. Ermənistanın ön xətdəki mövqeləri ilk gündən yarılıb, inamla irəliləyən ordumuz düşmənin işğal olunmuş torpaqlarımızdakı hərbi hissələrini, döyüş texnikalarını və infrastrukturunu, cəbhənin dərinliyindəki atəş nöqtələrini, bazalarını darmadağın etməkdədir. Düşmənin yaşadığı fəlakət tarix boyu ona ən böyük dərs olacaq.**

### İşğalçını öz adı ilə çağırmayanlar yenidən mənasız danışıqlara çağırırlar

Cəbhə xəttində sentyabrın 27-də Ermənistanın növbəti təxribatının rəvac verdiyi döyüşlərin başlamasından sonra ayrı-ayrı beynəlxalq təşkilatlar, bəzi dövlətlər tərəfləri atəşi dayandırmağa, problemi danışıqlar masası ətrafında həll etməyə çağırırlar. Bu həmin təşkilatlar və dövlətlərdir ki, 30 ilə yaxın müddətdə bir dəfə də olsun Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini dilə gətirməyiblər. Dövlətlərin ərazi bütövlüyünün pozulmasının yolverilməzliyi beynəlxalq hüququn əsas normalarından biridir. Amma həmin beynəlxalq təşkilatlar deklorativ bəyanatlar istisna olmaqla bir dəfə də olsun Ermənistanın bu normanı pozmasına görə kəskin etirazlarını bildirməyiblər, işğalçıya qarşı təsirli mexanizmlərin işə salınmasında maraqlı olmayıblar.

Ermənistan-Azərbaycan münaqişəsinə dair ən mühüm sənədlər BMT Təhlükəsizlik Şurasının 1993-cü il ərzində qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrdir. Bu qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması tələb edilir.

*Ardı 6-cı səh.*

### İlham Əliyev işğalçının havadarlarına sərt xəbərdarlıq etdi:

## "Bizi günahlandırmazdan əvvəl güzgüyə baxın"

*- Biz öz ləyaqətimizi müdafiə edirik, biz öz müstəqilliyimizi müdafiə edirik. Dünyada heç bir ölkənin bizim işlərimizə müdaxilə etməyə haqqı yoxdur və onlar bunu başa düşməlidirlər. Öz ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın maraqlarına xidmət edir.*

*Azərbaycanın bir milyon insanı öz doğma torpaqlarına qayıdacağı vaxtı gözləyir və biz hökumət olaraq bunu təmin edəcəyik. Biz insanlarımızı öz vətəninə qaytaracağıq, şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik. Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq.*

## Ermənistanın təxribatları regionda təhlükəsizliyə ən böyük əngəldir



İran İslam Respublikasının Prezidenti Həsən Ruhani oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Həsən Ruhani Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın davam etməsindən ölkəsinin narahatlığını ifadə edib və münaqişənin tez bir zamanda sülh yolu ilə həll olunacağına ümidvar olduğunu bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, sentyabrın 27-də başlamış və bu gün də davam edən Ermənistanın hərbi təxribatı nəticəsində təmas xətti boyu yerləşən hərbi birləşmələrimizin mövqeləri və yaşayış ərazilərimiz Ermənistan tərəfindən ağır artilleriya atəşinə məruz qalıb. Nəticədə hərbi qulluqçularımız, 27 mülki şəxsimiz həlak olub, 170-dən çoxu yaralanıb, 900-dən artıq evə ziyan dəyib və ya tamamilə dağıdılıb. Azərbaycan tərəfi uğurlu əks-hücum əməliyyatları həyata keçirərək işğal olunmuş torpaqlarımızın bir hissəsini işğaldan azad edib.

Dövlətimizin başçısı qeyd edib ki, İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib və sərhədboyu işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev bildirib ki, Ermənistanın davam edən hərbi təcavüzü və təxribatları regionda sülhün və təhlükəsizliyin təmin olunması işində ən böyük əngəldir.

Prezident İlham Əliyev və Prezident Həsən Ruhani ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin gələcək uğurlu inkişafı ilə bağlı məsələləri müzakirə edib və əlaqələrimizin ölkələrimizin və xalqlarımızın maraqlarına uyğun olaraq bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduqlarını bildiriblər.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan bayrağı Qarabağda bir daha enməyəcək



***Döyüş bayrağını qaldıran oğul,***
***Tanrı qollarına güc verəcəkdir.***
***Xankəndə bayrağı sancdığın günü***
***Analar, bacılar sevinəcəkdir...***

Bir həftədən çoxdur xalqımızın qəhrəmanlıq salnaməsinə şərəfli səhifələr yazılmaqdadır. Azərbaycanın müzəffər ordusu, dəyanətli, mərd oğulları əzəli torpaqlarımızda at oynadan erməni faşistlərinə qarşı Vətən müharibəsi aparırlar.

*Ardı 6-cı səh.*

## Düşmən ordusu qorxu və səksəkə içində qaçır

### Azərbaycan əsgərinin qarşısında işğalçı öz silahını və döyüş bayrağını da atır

**Müzəffər ordumuzun uğurlu əməliyyatları davam edir. Haqq savaşı aparan Azərbaycan əsgəri hər gün yeni zəfərlər qazanır. Cəbhədən gələn xoş xəbərlər ölkə ictimaiyyətini daha da qürurlandırır.**



Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi qabaqlayıcı tədbirlər və dəqiq vurulan atəş zərbələri nəticəsində böyük itkilərə məruz qalan erməni hərbi qulluqçuları vahimə içində silah-sursatlarını atıb mövqelərindən qaçır, panikada olan düşmən geri çəkilir və ya ağ bayraq qaldıraraq təslim olur.

Döyüşlərin başladığı ilk günlərdə erməni əsgərinin "şücaət"indən danışan işğalçı ölkənin rəsmi dairələri artıq həqiqəti açıqlamaq məcburiyyətində qalıb. Dağlıq Qarabağda separatçı rejimin "mətbuat katibi" Vaqram Poqosyanın "cəbhənin bəzi istiqamətlərində qoşunlar geri çəkildi" etirafı bunu təsdiqləyir.

*Ardı 11-ci səh.*

**Düşmənin daha 3 tankı, yaylım atəşli 4 reaktiv sistemi, artilleriya qurğuları və onların heyətləri, silah-sursat anbarları məhv edilib, xeyli sayda silah-sursat, döyüş və avtomobil texnikası qənimət götürülüb, müxtəlif istiqamətlərdə strateji yüksəkliklər azad olunub**

# Rəcəb Tayyib Ərdoğan bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil

## **Mövlud ÇAVUŞOĞLU:** “İlham Əliyevin liderliyi ilə Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır”

*Əvvəli 1-ci səh.*

Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir, həm Yaxın Şərq bölgəsində, eyni zamanda Qafqaz bölgəsində. Ona görə Ermənistanın növbəti hücumu ilə əlaqədar bu gün yaranmış vəziyyət bir daha onu göstərir ki, Türkiyə həm regionda, həm dünyada söz sahibidir. Əlbəttə ki, bu, bizi gücləndirir, ruhlandırır. Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir.

Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə biz bu məsələ ilə bağlı dəfələrlə öz sözlərimizi demişik ki, Türkiyə-Azərbaycan birliyi bütün dünya üçün örnək olmalıdır. Bu gün biz real həyatda bunu göstəririk, sübut edirik və bu birliyin gələcəyi, hesab edirəm ki, bölgədə dayanıqlı sülhün təmin edilməsi üçün əsas şərt olacaqdır.

Sizi bir daha salamlayıram. Xahiş edirəm ki, mənim səmimi salamlarımı hörmətli cənab Prezidentə çatdırasınız.



❖❖❖

**Türkiyənin Xarici İşlər naziri Mövlud ÇAVUŞOĞLU** dedi:

- Sağ olun, cənab Prezidentim. Əvvəlcə, bizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Hörmətli Prezidentimiz, qardaşınız Rəcəb Tayyib Ərdoğanın, bütün kabinetimizin, - dünən Nazirlər Kabinetində toplantımız var idi, - və türk xalqının Sizə salamlarını və uğur diləklərini gətirmişəm.

Xüsusilə zati-alinizin də vurğuladığı kimi, Türkiyənin, türk xalqının can Azərbaycana olan dəstəyini bir daha bütün dünyaya göstərmək üçün buraya səfərə gəldim. Bu gün Sizin liderliyinizlə Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır. Əlbəttə, Türkiyə olaraq və türk xalqı olaraq, biz də nə vaxt ehtiyacı olarsa, hansı sahədə ehtiyac duyarsa Azərbaycana hər cür dəstəyi verməyə hazırıq. Bunu Prezidentimiz Ərdoğan və bizlər hər platformada izah edirik, vurğulayırıq.

Azərbaycanın haqlı mübarizəsini bütün dünyaya çatdırmaq bizim də borcumuzdur. Bunu Ceyhun qardaşımla, xaricdəki bütün səfirliklərimizlə - Azərbaycanın və Türkiyənin səfirlikləri ilə birlikdə həyata keçiririk. Bu gün Sizdən alacağımız təlimatlarla daha böyük güclə bir yerdə çalışmağa davam edəcəyik. Azərbaycanın işğal edilmiş torpaqları artıq azad olunmalıdır. Azərbaycan hüquqi və mənəvi cəhətdən də haqlıdır və bu haqlı mübarizəsini hər yerdə izah edərkən bu mübarizəni də meydanda və masada birlikdə aparmağa, inşallah, davam edəcəyik.

Bu gün Sizin qəbulunuzdan sonra qardaşım Ceyhunla bu məsələlərdə necə birlikdə hərəkət edəcəyimizi dəyərləndirəcəyik.

Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirik. Dostluq qrupumuzun sədri Şamil bəylə birlikdə gəldik. İnşallah, bugünkü toplantılarımız Azərbaycanın torpaqlarının azad edilməsi yolunda xeyirlərə səbəb olacaq. Bir daha təşəkkür edirəm, hörmətli Prezidentim.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm.

# Milli Məclisin Sədri ilə Şimali Kipr Cümhuriyyət Məclisinin sədri arasında telefon danışığı olub




Oktyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova ilə Şimali Kipr Türk Cümhuriyyətinin Cümhuriyyət Məclisinin sədri Teberrüken Uluçay arasında telefon danışığı olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlar müzakirə olunub.

Teberrüken Uluçay bildirib ki, Şimali Kipr Türk Cümhuriyyəti Azərbaycanın öz torpaqlarını azad etmək üçün başladığı əks-hücum əməliyyatlarında ölkəmizi dəstəkləyir və tezliklə Azərbaycan torpaqlarının işğalçılardan təmizlənəcəyinə inanır. Şimali Kipr Türk Cümhuriyyəti bu haqq işində daim Azərbaycanın yanındadır.

Telefon zənginə görə təşəkkürünü bildirən Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, sentyabrın 27-də səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini iriçaplı silahlar, minaatanlar və artilleriya qurğularından intensiv atəşə tutub. Ötən günlərdə isə işğalçı ölkənin silahlı qüvvələri Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə, sənaye şəhəri Mingəçevirə və münaqişə zonasına aidiyyəti olmayan digər şəhərlərə raket hücumları həyata keçirib. Nəticədə mülki əhali arasında həlak olanlar, yaralananlar və çoxlu sayda dağıntılar var. Ermənistan silahlı qüvvələrinin mülki insanları və obyektləri atəşə tutması beynəlxalq cinayətdir və bunun məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Milli Məclisin Sədri Azərbaycana verdiyi dəstəyə görə bir daha Şimali Kipr Türk Cümhuriyyətinə təşəkkürünü bildirib. Telefon söhbəti zamanı tezliklə Azərbaycan torpaqlarının işğaldan azad ediləcəyinə və münaqişənin həll olunacağına əminlik bildirilib.

# Əfqanıstan Milli Şurası Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar qəbul edib

Əfqanıstan Milli Şurasının Yuxarı və Aşağı palataları Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədikləri barədə bəyanatlar qəbul ediblər. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, hər iki palatanın bəyanatında Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi hücumları qətiyyətlə pislənilir, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün dəstəkləndiyi vurğulanır.

Əfqanıstan Milli Şurasının Yuxarı Palatası və Aşağı Palatası Ermənistanla Azərbaycan arasındakı hərbi toqquşmalar dövründə ermənilərin törətdikləri insanlıq əleyhinə cinayətlərlə, Azərbaycanın Xocalı şəhərinə və ümumiyyətlə, Dağlıq Qarabağ bölgəsinə dəymiş ziyanla bağlı dərin narahatlıqlarını ifadə edərək həlak olanların yaxınlarının kədərinə şərik olduqlarını bildirir, həmçinin bu hadisələrin günahkarlarının mühakimə olunmasını istəyirlər.

Bəyanatlarda vurğulanır ki, Əfqanıstan Milli Şurası BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin ən qısa zamanda icrasına çağırır və Azərbaycanla Ermənistan arasında problemin birdəfəlik həllini istəyir.

### Milli Məclisin iclasında

# Suqovuşan adı rəsmən təsdiqləndi





*Azərbaycan Ordusunun işğal olunmuş torpaqlarımızda apardığı hərbi əməliyyatların uğurlu nəticələri Milli Məclisin dünənki plenar iclasında geniş müzakirə mövzusu oldu. Deputatlar həm Ali Baş Komandan İlham Əliyevin müzəffər ordusunun döyüş əzmindən, həm də işğalçı Ermənistanın əvvəllər olduğu kimi, bu gün də mülki əhalini hədəfə almasından, faşist xislətindən söz açdılar.*

Milli Məclisin Sədri Sahibə Qafarova dedi ki, qurtuluş savaşı aparan ordumuz işğal olunmuş əraziləri düşməndən təmizləyir və yeni-yeni zəfərlər qazanır. Bu gün döyüş meydanında xalqımızın taleyi ilə bağlı böyük məsələ həll edilir: “Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi, Dağlıq Qarabağ bizim torpağımızdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir.

İndiyədək Cəbrayıl şəhəri və həm bu rayonda, həm də digər ərazilərdə çoxlu sayda kənd düşməndən təmizlənmişdir. Kəlbəcərin, Laçının, Zəngilanın, Qubadlının, Şuşanın, işğal altında olan digər torpaqlarımızın azad ediləcəyi gün uzaqda deyil”.

### Milli Məclis Silahlı Qüvvələrə Yardım Fonduna vəsait köçürüb

Milli Məclisin Sədri qeyd etdi ki, əldə edilən hərbi qələbələr, təəssüflər olsun ki, itkisiz başa gəlmir. Azərbaycanın qəhrəman əsgər və zabitləri Vətən torpağını düşməndən xilas etmək üçün ölümün gözünə dik baxırlar. Bununla birlikdə, döyüş meydanında duruş gətirə bilməyən xain düşmən öz terrorçu mahiyyətini göstərərək mülki obyektləri, yaşayış məntəqələrini raket atəşinə tutur. Dinc əhali arasında həlak olanlar və yaralananlar var.

Bütün şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyən spiker bu gün xalqın Ali Baş Komandanın ətrafında sıx birləşdiyini vurğuladı: “Xalq hərb tariximizi yeni hünər və qələbələrlə zənginləşdirən Ali Baş Komandanın müzəffər ordusunun yanındadır. Əminəm ki, bu milli birlik, bu dəstək, bu qüvvət sayəsində tezliklə Qarabağın hər yerində şanlı Azərbaycan bayrağı dalğalanacaq. Qəhrəman ordumuza, mətin xalqımıza, müdrik rəhbərimizə eşq olsun!”

Sədr bir məlumatı da nəzərə çatdırdı ki, parlamentin deputatları, Aparatın və İşlər İdarəsinin əməkdaşları cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın başlatdıqları aksiyaya qoşularaq Silahlı Qüvvələrə Yardım Fonduna vəsait köçürüblər.

Eyni zamanda parlamentin beynəlxalq təşkilatın üzvü olan deputatları Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri həmin təşkilatlara çatdırırlar. Onlayn görüşlərdə də münaqişə ilə bağlı məsələlər barədə danışılır. Bütün ölkələrə, beynəlxalq təşkilatlara cəbhə bölgəsində baş verən hadisələr barədə məlumat göndərilir.

### Erməni lobbisi ABŞ-da növbəti təxribata hazırlaşır

İclasın gündəliyi təsdiq edildikdən sonra deputatlar cari məsələlər barədə fikirlərini bildirdilər. Deputatlar Cavanşir Feyziyev, Naqif Həmzəyev, Rəşad Mahmudov, Emin Hacıyev, Əli Məsimli, Müşfiq Cəfərov, Səttar Möhbalıyev, Cavid Osmanov, Azər Badamov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, Erkin Qədirli, parlamentin komitə sədri Zahid Oruc Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatlar, ölkəmizin haqq savaşı, şanlı ordumuzun zəfər yürüşü, ATƏT-in Minsk qrupunun fəaliyyəti, Fransanın Ermənistan-Azərbaycan münaqişəsindəki mövqeyi ilə bağlı fikirlərini bildirdilər.

Milli Məclis Sədrinin müavini Adil Əliyev qeyd etdi ki, erməni lobbisi ABŞ Konqresinin Nümayəndələr Palatasında Azərbaycan əleyhinə 1165 saylı qətnamə layihəsinin müzakirəyə çıxarılmasına hazırlaşır. Bu işə Konqresin erməni qrupunun iki həmsədri rəhbərlik edir. Həmin şəxslərin hər ikisi demokratdır, onlar “erməni genosidi” aktının sponsoru olublar. Onlardan biri Cek Spear 1165 saylı qətnamə ilə bağlı Nümayəndələr Palatasının 46 üzvündən dəstək alıb. Ümumiyyətlə isə, Konqresin erməni qrupunun 116 üzvü var.

Adil Əliyev bildirdi ki, hazırda ABŞ-dakı Azərbaycan icmasının üzvləri Nümayəndələr Palatası tərəfindən 1165 saylı qətnamənin qəbulunun dayandırılması üçün imzatoplama kampaniyasına başlayıblar. Lakin bu iş lazımi səviyyədə deyil. Ona görə də Adil Əliyev ABŞ-da 40 mindən çox azərbaycanlının yaşadığını nəzərə alaraq, onları bu məsələdə daha aktiv olmağa çağırdı. Sədr müavini Milli Məclisin deputatlarını da bu məsələyə kömək göstərməyə səslədi.

### Hərbi kadr hazırlığının keyfiyyəti artırılır

Gündəlikdəki məsələlərin müzakirəsi zamanı Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, Tərtər rayonunun Madagiz kəndi erməni işğalından azad edilən kimi Prezident İlham Əliyev onun tarixi adını geri qaytararaq həmin kəndi Suqovuşan adlandırdı. Milli Məclis bir oxunuşda həmin məsələni təsdiq edəcək.

“Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında” qanun layihəsi barədə məlumat verən Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirdi ki, bu məsələ komitənin iclasında müzakirə olunub. Komitə üzvləri məsələni yekdilliklə Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər. Qanun layihəsi səsə qoyularaq təsdiqləndi.

Gündəlikdəki digər məsələlərin müzakirəsinə başlamadan parlamentin Sədri diqqətə çatdırdı ki, növbəti 14 məsələ üçüncü oxunuşda müzakirəyə təqdim edildiyi üçün mətnlərdə dəyişiklik edilmir. “Azərbaycan Dəmir Yollarının 140 illiyi (1880-2020)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında”, Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda təsdiq olundu.

Həmçinin “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Mülki Prosessual Məcəllədə, Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” və “Nağdsız hesablaşmalar haqqında” qanunlarda dəyişiklik edilməsi barədə, Əmək Məcəlləsində, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Təhsil haqqında”, “Məktəbəqədər təhsil haqqında”, “Peşə təhsili haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Ümumi təhsil haqqında” qanunlarda dəyişiklik edilməsi barədə, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, “Publik hüquqi şəxslər haqqında” Qanunda dəyişiklik edilməsi barədə layihələrə üçüncü oxunuşda müsbət münasibət bildirildi.

Müzakirəyə çıxarılan “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş “Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı”nda dəyişiklik edilməsi barədə qanun layihəsinə texniki xarakterli dəyişiklik edildiyi üçün bir oxunuşda təsdiqləndi.

Sonra Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov birinci oxunuşda müzakirəyə çıxarılan “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunda dəyişiklik edilməsi barədə layihə haqqında məlumat verdi. Bildirdi ki, bu dəyişiklik hərbi sahədə kadr hazırlığının keyfiyyətinin daha da artırılmasına xidmət edir.

Müzakirələr zamanı deputatlardan Qüdrət Həsənquliyev, Fazil Mustafa, Arzu Nağıyev və Aydın Mirzəzadə çıxış edərək dəyişikliklə bağlı fikirlərini bildirdilər. Qanun layihəsi birinci oxunuşda təsdiq olundu.

### Orqan transplantasiyasının maliyyə təminatı icbari tibbi sığorta tərəfindən qarşılanacaq

İclasda son olaraq “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” qanun layihəsi ikinci oxunuşda müzakirə edildi. Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirdi ki, bu qanun qüvvəyə mindikdən sonra Azərbaycan Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasında insan orqanlarının və toxumalarının donorluğunun və onların transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, orqan transplantasiyası sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin və tibb işçilərinin hüquqlarını və vəzifələrini müəyyən edəcək, bu sahədə yaranan münasibətləri tənzimləyəcək.

Qanun qüvvəyə mindikdən sonra informasiya bankı tərəfindən orqan gözləyən xəstələrin gözlədiyi müddət nəzərə alınacaq. İnsan orqanlarının transplantasiyası və donorluğu ilə bağlı qanun layihəsinin maliyyə təminatı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən qarşılanacaq.

Komitə sədri layihənin birinci oxunuşu zamanı deputatların qaldırdıqları məsələlərə münasibət bildirdi.

Deputatlardan Razi Nurullayevin və Etibar Əliyevin fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq ikinci oxunuşda təsdiq edildi.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***
***Foto AZƏRTAC-ındır***

# "Sizin qətiyyətli, müdrik və cəsarətli siyasətiniz Azərbaycan xalqını uğurlu gələcəyə, parlaq qələbəyə doğru aparır"

Azərbaycan Ordusunun cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurması, əldə etdiyi qələbələr vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız, həmçinin bir sıra digər ölkələrin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

ABŞ-ın Hyuston şəhərindən **Təranə Teylor** Prezidentə yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, öz adımdan, ailəmiz adından və Hyustonda yaşayan azərbaycanlılar adından Sizi və şanlı ordumuzu düşmən üzərində gözəl qələbələrə görə ürəkdən təbrik edir və alqışlayıram. Sizə haqq işimizdə uğurlar arzu edirik. Sizin xarici informasiya agentliklərinə müsahibələrinizi izlədikcə belə müdrik, yüksək təhsilli, humanist və eyni zamanda, Vətən üçün qəti sözünü deməyə çəkinməyən rəhbərimizin olması ilə fəxr edirik. Sizi dəstəkləyirik və əlimizdən gələn yardımı etməyə hazırıq. İşimiz haqdır, qələbə bizimlədir!"

Seneqalın "Xalq uğrunda Birlik" partiyasının sədri, xüsusi işlər üzrə səfir, Seneqal Prezidentinin xüsusi işlər üzrə müşaviri, Əl-Mədinə təbliğat qrupunun sədri və baş müdiri **Şeyx Məhəmməd Əl-Mənsur Ənyas** yazır: "Zati-aliləri cənab İlham Əliyev, möhtərəm cənabınıza Allahın salamı olsun. Ermənistan tərəfindən Azərbaycan torpaqlarında törədilən açıq-aşkar cinayətlərlə müşayiət olunan son xəbərləri böyük təəssüf və ürək ağrısı ilə izlədik. Harada olmağımızdan asılı olmayaraq, var qüvvəmizlə Sizin - qardaşlarımızın yanında olmaq, ölkənizə qarşı müharibədə haqlarınızı və torpaqlarınızı qoruyarkən Sizə dəstək vermək bizim müsəlmanlıq borcumuzdur.

"Əgər Allah sizə yardım edərsə, heç kəs sizə qalib gələ bilməz" (Quran, Al İmran, 160). Şükürlər olsun Allaha, bu gün Siz Vətəninizi müdafiə etməklə özünüzü iki xoş əməldən biri qarşısında qoymusunuz: zəfər və ya da şəhadət. Ağlı başında, bəsirətli insanlar Sizin mövqeyinizin ədalətli olduğunu, müdrik addımlarınızı, səbrinizi və sülh məramınızı görürlər. Biz Seneqaldan Sizinlə tam həmrəyliyimizi, yanınızda olduğumuzu bəyan edir, Allahın düşmənlərinizə qarşı Sizə kömək olması, gücünüzü artırması, bütün müsəlmanların izzəti və fəxri olaraq qalmağınız üçün dua edirik. Qələbəyə yaxın olduğunuzu bəyan edərək Sizə "Davam edin, Allah sizinlədir!" deyirəm. Bəyan edirik ki, Siz istədiyiniz vaxt yanınıza gələrək ölkənizi qorumaq, zəfərinizi yaxınlaşdırmaq üçün müharibəyə qatılmağa hazırıq. Allahın nəzərləri üzərinizdə olsun! Bir daha Sizinlə həmrəy olduğumuzu və Sizi dəstəklədiyimizi bəyan edərək, Allahdan Sizə zəfər, təhlükəsizlik və əmin-amanlıq bəxş etməsini diləyirik".

Türkiyə Ehtiyatda olan Zabitlər Dərnəyinin sədri, ehtiyatda olan general-mayor **Namik Kamal Çalışkan** Ankaradan dövlət başçısına yazır: "Hörmətli cənab Prezident, bir kökə mənsub olmaqdan qürur duyduğumuz böyük türk birliyinin azad və müstəqil bir dövləti olan Azərbaycan Respublikası mərhum liderimiz Heydər Əliyevin "bir millət, iki dövlət" sözləri ilə ifadə edildiyi kimi həm də bizim Vətənimizdir. Bundan əlavə, ulu öndər Mustafa Kamal Atatürkün dediyi kimi "Azərbaycanın sevinci sevincimizdir, kədəri kədərimizdir". Yuxarı Qarabağ da daxil olmaqla torpaqlarınızın bir hissəsini işğal edən ermənilər Birləşmiş Millətlər Təşkilatı və ATƏT-in qərarlarına baxmayaraq, bu işğalı davam etdirirlər. Onların mülki əhaliyə qarşı insanlığa sığmayan hərəkətləri qəbul edilə bilməz. Bu işğala və Ermənistanın son vaxtlar həyata keçirdiyi təcavüzə qarşı başladığınız mübarizə bizi qürurlandırdı. Bu qəti mübarizənizdə qələbə qazanacağınıza, illərdir davam edən haqsız işğala son qoyacağınıza, münaqişəni sülh yolu ilə həll etmək istəməyən Ermənistanı və onların havadarlarını sülhə məcbur edəcəyinizə əminəm. Türkiyə Respublikası və türk xalqı hər zaman Azərbaycana qardaşdır. Bu çərçivədə hökumətimizin elan etdiyi dəstək iradəsi xalqımızın da iradəsidir. Türkiyə Ehtiyatda olan Zabitlər Dərnəyi olaraq Azərbaycanı sona qədər dəstəkləyirik. Hər zaman və hər yerdə Azərbaycan Ordusuna hər cür töhfə verməyə hazır olduğumuzu bəyan edirik. Bu müqəddəs mübarizədə şəhid olan qardaşlarımıza mərhəmət və qazilərimizə təcili şəfa diləyirik. Bütün xalqınıza başsağlığı verir, ehtiramımızı bildiririk".

Avstriyanın Vyana şəhərindən **Ayan Məmmədli:** "Əziz Prezidentimiz, cənab İlham Əliyev, mən hazırda xaricdə təhsil alan yüzlərlə azərbaycanlı tələbələrdən biri kimi doğma Azərbaycanımızın müqəddəs torpaqlarının Sizin rəhbərliyinizlə şanlı ordumuz tərəfindən işğalçılardan azad edilməsinin sevincini uzaq Avstriyada böyük həyəcanla yaşamaqdayam. Hər gün bu qərib ölkədə doğma yurdumdan aldığım zəfər xəbərləri qəlbimi qürur hissi ilə doldurur. Döyüş meydanlarında şücaət göstərən əsgərlərimizin hər uğurunu ailəmin Xocalıda şəhid olmuş əzizlərinin intiqamının alınması kimi dəyərləndirirəm. Hələ keçən il Avstriya Konservatoriyasında musiqi təhsilini almağa başlayanda ən böyük arzum o olmuşdur ki, Vətənə yetkin musiqiçi kimi dönəndə ilk ifamı yurdumun musiqi beşiyi olan Şuşada səsləndirim. Bu gün çox sevincliyəm ki, digər ərazilərimiz kimi, Şuşanın da azad olunmasına sayılı günlər qalıb. Bu sevinci və xoşbəxtliyi biz tələbə və gənclərə yaşatdığınız üçün Sizə sonsuz minnətdarlığımı bildirirəm. Hazırda doğma Vətəndən uzaqda olsaq da, qəlbimiz xalqımızın qəlbi ilə bir döyünür. Bu sınaq günlərində müzəffər ordumuza cansağlığı və yalnız böyük qələbələr arzu edirəm. Dualarımız və sevgilərimiz sizinlədir! Yaşasın dünya azərbaycanlıları, yaşasın Ali Baş Komandanımız, yaşasın doğma Azərbaycanımız!"

Ukraynanın Sumı Vilayət Deputatlar Şurasının sədri **Vladimir Tokar:** "Hörmətli cənab Prezident, Ukrayna ilə Azərbaycan arasında daim dost və tərəfdaşlıq münasibətləri olub. Azərbaycan dost bir ölkə kimi Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəklədi və dəstəkləməyə davam edir. Odur ki, bu gün Azərbaycan ərazi bütövlüyü üçün ədalətli bir mübarizə apararkən, şəxsən mən uzun müddət Bakıda və ölkənin digər şəhərlərində yaşamış bir insan kimi Sizi və bütün Azərbaycan xalqını dəstəkləyirəm. Axı, Dağlıq Qarabağ beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınıb. Sumı Vilayət Deputatlar Şurasının sədri, həmçinin bir siyasətçi kimi hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında münaqişə sülh yolu ilə həll olmalıdır. Ermənistanın beynəlxalq hüququ, sülh danışıqlarını açıq şəkildə pozan və insan tələfatı ilə nəticələnən hücumlarını qınayıram. Sülhsevər Azərbaycan və Ukrayna xalqlarına bu çətin lokal münaqişələrdən ən qısa zamanda xilas olmağı və ölkələrində sülhü və sabitliyi bərpa etməyi arzulayıram".

Gürcüstanın Bolnisi rayonunun Talaveri kəndindən **Bayram Abbasov**, **Natiq İsrailov, Xosrov İsmail, Svetlana Eyvazova** və **Nərgiz Eyvazova** yazırlar: "Hörmətli cənab Prezident, Gürcüstanda yaşayan azərbaycanlıların adından müraciət edərək işğalçı ermənilərə qarşı həyata keçirdiyiniz ədalət müharibəsində Sizi tam dəstəklədiyimizi bildiririk. Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq haqqını icra edir, Birləşmiş Millətlər Təşkilatının Qarabağın işğaldan azad edilməsi ilə bağlı qətnamələrinin icrasını tələb edir. Qarabağ Azərbaycandır!"

Gəncə şəhərindən **Fazil Səfixanov:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan. Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi uğrunda gedən döyüşlərdə ordumuzun uğurla irəliləməsi, yeni-yeni bölgələrimizi düşməndən təmizləməsi ilə bağlı Sizə minnətdarlığımı bildirirəm. Bu məhz Sizin sayənizdə mümkün olur. Qürurla bildirirəm ki, bir vətəndaş kimi dövlətim və Vətənim qarşısında müqəddəs borcumu yerinə yetirməyə hər zaman hazıram və könüllü olaraq cəbhəyə getmək üçün müraciət etmişəm. Lakin ahıl yaşımla əlaqədar olaraq döyüşlərə aparmırlar. Cənab Ali Baş Komandan, Sizdən xahiş edirəm, göstəriş verin ki, məni də Orduya qəbul etsinlər. Hər zaman Sizin yanınızdayıq, hər an döyüşə hazırıq. Hər şey üçün Sizə minnətdaram. Yaşasın müzəffər Ordumuz!"

Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndindən **Rauf Musayev:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, 27 ildən sonra doğma Cəbrayılımızın erməni tapdağından azad edilməsi sevincini bizə bəxş etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz, cəbrayıllılar Sizin uzaqgörən siyasətinizi dəstəkləyirik. Verdiyiniz qərarlar və qətiyyətli mövqeyinizlə bizi qələbədən qələbəyə aparırsınız. İnanırıq ki, Sizin rəhbərliyinizlə ordumuz yeni-yeni zəfərlər qazanacaq. Hörmətli Ali Baş Komandan, biz, cəbrayıllılar daim Sizin əmrinizi gözləyir, ölkəmiz uğrunda döyüşməyə hər an hazır olduğumuzu bildiririk. Yaşasın müstəqil Azərbaycan!"

Cəbrayıl rayonundan məcburi köçkün **Gültəkin Maxsudova:** "Möhtərəm cənab Prezident, Sizin siyasətiniz nəticəsində doğma torpağımız - Cəbrayılımız erməni işğalçılarından azad edildi. Sizə ailəmiz, Quycaq kənd camaatı, bütün cəbrayıllılar adından dərin təşəkkürümü bildirirəm. 27 ildir ki, düşmən tapdağı altında qalan doğma yurd yerimizə yenidən gedəcəyimiz, cənnətməkan torpağının havasını udacağımız, o buz kimi bulaqların suyundan yenidən dadacağımız günü səbirsizliklə gözləyirik. Bu gün Siz bizə yeni nəfəs, yeni ruh bəxş etdiniz. Biz Sizinlə və bütün hərbçilərimizlə fəxr edirik, qürur duyuruq. Allah Sizi və bütün hərbçilərimizi qorusun".

Gəncə şəhərinin 32 saylı tam orta məktəbinin 10-cu sinif şagirdi **Qənirə Rzazadə:** "Hörmətli cənab Ali Baş Komandan, yaşadığımız tarixi günlərdən son dərəcə ilhamlanaraq mən də bir məktəbli kimi Sizə məktub yazmağı özümə borc bildim. Cəbrayıl şəhərinin işğaldan azad olunması xəbəri hamımızda böyük sevincə səbəb oldu. Nəzərinizə çatdırmaq istərdim ki, Ermənistanın səngiməyən təxribatları Gəncə şəhərində heç bir narahatlıq yaratmır, əksinə, hər kəsdə mübarizə ruhu vardır. Sizin sayənizdə Azərbaycan dünyada öz sözünü deyə biləcək qüdrətli dövlətə çevrilib. Sizin bütün təşəbbüslərinizi dəstəkləyirik və gələcəkdə də daim dəstəkləyəcəyik. Artıq haqqın zamanı çatıb. Rəşadətli Azərbaycan Ordusu haqqın, ədalətin mücahidlərinə çevrilib. Qarabağ artıq onların həyat amalıdır. Təbiidir ki, Ermənistanın muzdlu döyüşçüləri Vətən həsrəti ilə alışıb-yanan Azərbaycan əsgərini məğlub etməyə qadir deyil. Minlərlə şəhidlərimizin qanı yerdə qalmamalıdır. Şəhid anasının göz yaşları hədər olmamalıdır. Yalnız uğrunda şəhidlik zirvəsinə ucaldıqları torpaqlar qaytarıldıqdan sonra onların ruhu rahatlığa qovuşacaqdır. Qardaş Türkiyə və Pakistan dövlətləri və xalqı mənəvi dəstək yerimiz oldu. Onlara da təşəkkürlərim sonsuzdur. Sizə ailəmiz adından minnətdarıq ki, bizim Prezidentimizsiniz. Uğurlarımız və zəfərlərimiz daimidir. Azərbaycan Ordusu həmişə müzəffərdir. Qarabağ bizimdir. Qarabağ Azərbaycandır".



Kəlbəcər rayonundan məcburi köçkün **Vüsal Musalı:** "Hörmətli cənab Prezident, Allah Sizdən razı olsun. Allah bizi dəstəkləyən ölkələrin, Rəcəb Tayyib Ərdoğan kimi saleh dostlarımızın sayını artırsın. Siz bu günlərdə xalqımızın Sizə olan etimadını bir daha doğrultdunuz. Bir şəhid övladı olaraq torpaqlarımızın erməni işğalından azad olunmasında göstərdiyiniz qətiyyətli mövqeyinizi dəstəkləyir və bu yolda yürütdüyünüz siyasət uğruna canımı fəda etməyə hazır olduğumu bildirirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Quba şəhərinin sakini **Gülnarə Məclumova** yazır: "Hörmətli cənab Prezident, torpaqlarımızın işğaldan azad edilməsini çoxdan gözləyirdik. Təhsil işçisi olaraq, əminliklə deyə bilərəm ki, məhz Sizin uğurlu siyasətiniz nəticəsində biz artıq Qələbənin astanasındayıq. Bunun üçün Sizə və şanlı ordumuza minnətdaram. Düşmən üzərində qazanılan zəfərlərə görə Sizi və xalqımızı təbrik edirəm. Var olsun yenilməz Azərbaycan Ordusu və cənab Ali Baş Komandanımız! Qarabağ Azərbaycandır!"

Laçın rayonunun Minikənd kəndindən **Sənan Əmirov:** "Rəşadətli, möhtərəm Ali Baş Komandanımız, müdrik və qətiyyətli rəhbərliyinizlə yeni-yeni ərazilərimizin düşmənlərdən azad edilməsi və qürurverici qələbələrimiz münasibətilə Sizi təbrik edirik. Yaxın zamanlarda tam qələbəmizi bayram edəcəyimizə əminik. Hər birimiz, bütün xalq Sizinlədir. Vətənimizin düşməndən azad edilməsi naminə son damla qanımızadək vuruşmağa hazırıq və bunun üçün könüllü olaraq müraciət etmişik. Möhtərəm Prezidentimiz, Siz müdrik lider kimi, dövlətimizin - xalqımızın tarixinə şərəfli səhifələr yazmısınız. Rəşadətli rəhbərliyinizlə apardığınız bu şərəfli müharibə həm Vətən torpaqlarımızı düşməndən azad edəcək, həm də son 200 ildə mənfur qonşumuz ermənilərin bizə etdiklərinə, onların işğalçılıq siyasətinə və hərəkətlərinə layiqli tarixi cavab olacaq. Mövcud qlobal, sosial-siyasi çətinliklər mühitində, haqq işi uğrunda mübarizədə Sizə yeni uğurlar diləyirik, əziz liderimiz. Qarabağ Azərbaycandır! Qələbə bizimlədir! Biz öz rəhbərimizə dərindən inanırıq, güvənirik, daim Sizinləyik. Sizinlə və şücaətli ordumuzla fəxr edirik".

Bərdə rayonunun Gərənə kəndindən **Sevinc Bahadurlu:** "Cənab Prezidentim, Bərdə rayon Alpout kənd tam orta məktəbinin kollektivi adından yazaraq bildiririk ki, bu şərəfli zəfər yolunda daim Sizin yanınızdayıq və hər zaman Sizi dəstəkləyirik. Uca Yaradan Sizi, ordumuzu, xalqımızı qorusun. Azərbaycan xoşbəxt ölkədir ki, güclü ordusu və onun başında duran uzaqgörən Ali Baş Komandanı var. Əziz Prezidentimiz, arzumuz, amalımız Sizinlə, ordumuzla irəli, qələbəyə doğru getməkdir. İnanırıq ki, Sizin və məğrur ordumuzun sayəsində işğal olunmuş torpaqlarımız tezliklə qaytarılacaq, üçrəngli bayrağımız Qarabağda dalğalanacaq".

Tovuz rayonunun sakini **Ramin Qələndərov:** "Çox hörmətli cənab Prezident, biz Tovuz rayonunun çoxsaylı gəncləri Qarabağın düşməndən azad olunması barədə şanlı ordumuza, qəhrəman əsgərlərimizə Sizin verdiyiniz əks-hücum əmrini ürəkdən bəyənir, dəstəkləyirik və mənfur düşmənə qarşı mübarizədə bizim hər birimiz əsgəriniz olaraq döyüşlərə qatılmağa hazırıq. Cənab Ali Baş Komandan, artıq 30 ilə yaxındır ki, düşmən tapdağında olan Qarabağımızın Sizin dönməz siyasətiniz, mətin iradəniz və Ali rəhbərliyinizlə azad olunmasında biz Tovuz gəncləri olaraq iştirak etməyə hazırıq. Ordumuza uğurlar arzulayırıq".

Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Sərxanlı kəndindən **Elvin Quliyev:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə ordumuzun torpaqlarımızın işğaldan azadlığı uğrunda apardığı mübarizədə hər gün eşitdiyimiz yeni zəfər, yeni uğur, yeni qələbə sevincini Uca Allahın yardımı ilə xalqımıza bəxş etdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildirir, Müzəffər Ali Baş Komandanımızı səmimi-qəlbdən təbrik edirik. Bu zəfərin əldə edilməsi Sizin ağıllı və savadlı siyasətinizin, müdrik uzaqgörənliyinizin bariz nümunəsidir. Haqq yolunda aparılan mübarizəmizdə Ali Baş Komandan olaraq Sizə güvənirik. Bu günlərdə yaşadığımız zəfər coşqusu bizlərə hər an sevinc göz yaşları, sevincdən doğan qəhər bəxş edir. Bu məktubu yazarkən belə, ardı-arası kəsilməyən, sevincli zəfər xəbərləri eşidirəm. Bir Vətən övladı olaraq azadlıq uğrunda canımdan, qanımdan keçmək üçün səbirsizliklə əmrinizi gözləyirəm. Allah Sizi var etsin, daim qorusun. Biz Sizinləyik, yanınızdayıq. Bir Vətənimiz var - Azərbaycan. Bir şüarımız var - Qarabağ Azərbaycandır!"

Şamaxı rayonundan **Samir Xanaliyev:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bu günlər hamımızın qəlbi qürurla doludur. Mən də keçirdiyim sevinc hisslərini sözlə ifadə edə bilmirəm, fərəhdən göz yaşlarımı saxlaya bilmədim. Siz bizim müdrik, uzaqgörən liderimizsiniz. Xalq həmişə olduğu kimi ətrafınızda sıx birləşərək Sizə güvənir. Zəfər bizimdir. Cənab Ali Baş Komandan, Sizin komandanlığınızla şanlı ordumuz müqəddəs üçrəngli bayrağımızı, İnşallah, Qarabağda dalğalandıracaq. Ordumuzun zəfərinə çox sevinirik. Bu qələbə əzmini, zəfər sevincini bizə yaşatdığınız üçün Sizə dərin təşəkkür edirik. Sizə, Azərbaycana, şanlı ordumuza daha böyük uğurlar, zəfərlər arzulayıram. Allah Sizə yar olsun. Allah Sizi, xalqımızı, ordumuzu qorusun".

Zaqatala şəhərindən **Samir Rəhimov:** "Möhtərəm və əziz Prezident, son günlər Azərbaycan Silahlı Qüvvələri qazandığı böyük uğurlarla xalqımızı sevindirir. Dünyadakı bütün azərbaycanlılar Sizin rəhbərliyinizlə ordumuzun bütün torpaqlarımızı işğaldan tam olaraq azad edəcəyinə inanırıq. Bu müqəddəs yolda zəfərin müjdəçisi olan şanlı ordumuza uğur arzulayırıq. Allah Sizə uzun ömür, cansağlığı versin. Biz hər an Sizinləyik. Allah Sizi qorusun".

Qazax rayonunun sakini **Ülvi Zeynalov:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizin qətiyyətli, müdrik və cəsarətli siyasətiniz Azərbaycan xalqını hər zaman uğurlu gələcəyə, parlaq qələbəyə doğru aparır. Biz qazaxlı gənclər olaraq Sizin və ordumuzun ətrafında sıx birləşmişik, xalqımızın işıqlı gələcəyi naminə atdığınız hər bir addımı dəstəkləyirik. Biz Sizin rəhbərliyinizlə əzəli və tarixi Azərbaycan torpaqları olan Dağlıq Qarabağın, o cümlədən ətraf 7 rayonun birmənalı olaraq düşmən tapdağından azad edilməsi müjdəsini səbirsizliklə gözləyirik. Cənab Ali Baş Komandan, Siz müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin edən, əzəli və əbədi torpaqlarımız olan Dağlıq Qarabağı işğaldan azad edən sərkərdə kimi tarixdə qalacaqsınız. Əminik ki, gələcək nəsillər ən yeni tarix dərsliyində bu ifadə ilə qarşılaşacaqlar. Bu tarixi anları Azərbaycan gəncliyinə yaşatdığınız üçün Sizə minnətdarıq. Biz Sizinlə fəxr edirik. Uca Tanrı Sizi qorusun".

Sabirabad rayonunun Suqovuşan kəndindən **Xalid Əliyev:** "Möhtərəm cənab Prezident, bu günlərdə Qarabağ uğrunda gedən mübarizədə Sizinləyik. Bildirmək istəyirəm ki, Sizin yürütdüyünüz siyasəti, atdığınız hər bir addımı tam dəstəkləyirik. Cənab Ali Baş Komandan, ordumuz Sizin siyasi iradənizdən, millətə olan sevginizdən güc alaraq böyük ruh yüksəkliyi ilə uğurlu əməliyyatlar həyata keçirir, zəfərlər qazanır. İnanıram ki, bu qələbələr davamlı olacaq, bizə məxsus torpaqlardan sonuncu erməni əsgəri çıxanadək mübarizəmizi davam etdirəcəyik. Atdığınız hər bir addıma, qazandığınız hər bir uğura görə Sizə minnətdaram. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

# Hikmət Hacıyev "Sky News Arabia" televiziya kanalına müsahibə verib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Sky News Arabia" televiziya kanalına müsahibə verib.




AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətindən bəhs edib.

Aparıcının Ermənistanın dövlət başçısının Azərbaycanı ittiham etməsi ilə bağlı sualına cavabında Hikmət Hacıyev deyib ki, onun ittihamları əsassızdır. Ermənistanın rəhbəri ölkəsinin məsuliyyətindən, Azərbaycan torpaqlarının işğalından danışmır. Ermənistan Dağlıq Qarabağı işğal edib və 30 ildir bu regionu işğalı altında saxlayır, bir milyon azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirib, Azərbaycanda islam irsini dağıdıb. Onlar yaşayış məskənlərimizi bombalayıblar. Otuz il onlarla danışıqlar apardıq. Amma Ermənistanın təxribatları nəticəsində danışıqlar pozulub. Niyə Ermənistan qoşunu Azərbaycanın ərazisinə soxulub?! Bütün bunlara görə Ermənistan məsuliyyət daşıyır. Biz Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasını tələb edirik. Bu işğal bitən kimi danışıqlar da olacaq.

Hikmət Hacıyev bildirib ki, Dağlıq Qarabağda vaxtilə azərbaycanlılar və ermənilər birgə yaşayıblar. Ermənilər azərbaycanlıları oradan qovub çıxarıblar. İndi isə müqəddərat təyin etməkdən danışırlar. Azərbaycanlılar öz hüquqlarından məhrum ediliblər. Biz erməni əsilli vətəndaşlarımızın bütün hüquqlarını tanıyırıq. İşğal bitəndən, azərbaycanlı məcburi köçkünlər geri qayıdandan sonra onlar yenə də bir yerdə yaşayacaqlar.

Türkiyə-Azərbaycan əlaqələri ilə bağlı suala cavabında Prezidentin köməkçisi bildirib ki, iki ölkənin sıx əlaqələri var. Türkiyənin münaqişədə iştirakı ilə bağlı sözlər erməni tərəfinin uydurmasıdır. Türkiyə Azərbaycanı siyasi, diplomatik tərəfdən dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Biz bunu yüksək qiymətləndiririk. Beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Bizim əcnəbi qüvvələrə ehtiyacımız yoxdur. Muzdluların bizim tərəfdə iştirak etməsi iddialarını rədd edirik. Belə iddiaların heç bir əsası yoxdur. Əksinə, Ermənistan Suriyadan, Livandan muzdlular gətirib onlardan istifadə edir.

# Prezidentin köməkçisi Pakistanın "GEO TV" kanalına müsahibəsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən danışıb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Pakistanın "GEO TV" kanalına müsahibə verib.




AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatları, mülki insanlarımızın, obyektlərimizin artilleriya və raket atəşinə məruz qalması, Azərbaycan dövlətinin özünün suveren ərazisini müdafiə etməsi barədə danışıb.

Qardaş Pakistan xalqına ən xoş arzularını çatdıran Hikmət Hacıyev 1990-cı illərin əvvəllərində Ermənistan-Azərbaycan münaqişəsinin başladığı vaxtda Pakistan İslam Respublikasının Azərbaycanı dəstəklədiyini bildirib. Qeyd edib ki, Ermənistan Azərbaycana qarşı təcavüz siyasəti və günahsız Azərbaycan vətəndaşlarına qarşı soyqırımı, etnik təmizləmə siyasəti həyata keçirdiyi üçün Pakistanın bu dövlətlə heç bir diplomatik əlaqəsi yoxdur. Sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti təxribatı baş verdikdə Pakistan Azərbaycan xalqının öz ərazi bütövlüyünü və vətəndaşlarının təhlükəsizliyini təmin etməklə bağlı haqq işini dəstəkləyən ilk dövlətlərdən biri oldu.

Hikmət Hacıyev Ermənistanın Azərbaycanın mülki əhalisini qətlə yetirmək və mülki infrastruktura maksimum ziyan vurmaq məqsədilə qəsdən genişmiqyaslı hücuma başladığını və buna görə də Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın hərbi təcavüzünü dəf etmək və işğal altındakı torpaqlarımızı azad etmək, eləcə də vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək məqsədilə əks-hücum tədbirləri görməyə məcbur olduğunu deyib. Silahlı Qüvvələrimiz bir sıra irəliləyişlər əldə edərək Ermənistan ordusunun müəyyən ərazilərdən geri çəkilməsinə nail oldu. Ancaq çətin vəziyyətə düşən Ermənistanın siyasi-hərbi rəhbərliyi Azərbaycanın böyük şəhərlərinə və sivil infrastrukturlarına qarşı raket hücumları həyata keçirməyə başladı. Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə "Smerç" raketlərindən atəşə tutuldu. Bu, qəsdən törədilmiş bir hücumdur. Bundan başqa, ermənilər Ermənistan ərazisindən Azərbaycanın digər böyük şəhəri olan Mingəçevirə raket zərbəsi endirməklə növbəti təxribata əl atdılar. Ermənilər təmas xətti boyunca da Azərbaycanın kəndlərini və şəhərlərini atəşə tuturlar.

Prezidentin köməkçisi Azərbaycanın Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək məqsədilə artıq 30 ildir ki, danışıqlar apardığını bildirib. O qeyd edib ki, Ermənistanın yürütdüyü təcavüzkarlıq və işğala əsaslanan status-kvonu qoruyub saxlamaq siyasəti ucbatından danışıqlar prosesində heç bir irəliləyiş əldə olunmayıb. Ermənilər hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışırlar. Xüsusilə də Ermənistanın baş nazirinin qeyri-konstruktiv, populist və demaqoq yanaşması danışıqlar prosesinə ciddi xələl gətirir. Bunun nəticəsində isə vəziyyətin kəskinləşdiyini görürük. Bu arada, biz beynəlxalq vasitəçilik missiyasının yetərli olmadığını və danışıqların imitasiyası ilə məşğul olunduğunu, danışıqların, sadəcə olaraq, danışıqlar aparılması naminə uzadılmasının şahidi olduq.

Prezidentin köməkçisi Hikmət Hacıyev müsahibəsində həmçinin Pakistan İslam Respublikasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib.

# "Amnesty International" bir daha nə qədər birtərəfli, qərəzli, ikili standartlardan çıxış edən bir təşkilat olduğunu göstərdi

"Amnesty International" bir daha nə qədər birtərəfli, qərəzli, ikili standartlardan çıxış edən, yalnız kağız üzərində müstəqil və ermənipərəst bir təşkilat olduğunu göstərdi. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Amnesty International"ın Ermənistanın Azərbaycana qarşı sentyabrın 27-də törətdiyi hərbi təcavüzlə əlaqədar tamamilə həqiqətdən uzaq açıqlaması ilə bağlı şərhində deyib.

H.Hacıyev bildirib ki, özünü yalandan qeyri-hökumət təşkilatı adlandıran "Amnesty International" əslində siyasi sifarişlər yerinə yetirməklə QHT fəlsəfəsinə böyük zərbə vurur: "Biz "Amnesty International"ın bu açıqlamasını rədd edirik. Azərbaycan Silahlı Qüvvələri ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün öz ərazimizdə vuruşur və yalnız legitim hərbi hədəflərə yüksək dəqiqliklə zərbələr endirir. Ordumuz mülki əhalini və obyektləri hədəfə almır və kasetli sursatlardan istifadə etmir.

Əgər Ermənistan kasetli sursatların istifadəsindən narahatdırsa, o zaman Kasetli hərbi sursatlar haqqında konvensiyaya, ilk növbədə, özü qoşulsun. Lakin bunu etməyən Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı kasetli sursatlardan istifadə edir.

Sual olunur. "Amnesty International" nəyə görə cəbhə zonasından uzaqda yerləşən Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncənin, böyük su anbarı və elektrik stansiyasının, eləcə də digər strateji obyektlərin yerləşdiyi Mingəçevirin mülki əhalisinə qarşı Ermənistanın raket hücumlarını görməzdən gəlir. Sentyabrın 27-dən bugünə kimə Ermənistanın hücumları nəticəsində 27 mülki şəxs həlak olmuş, 141 mülki şəxs isə yaralanmışdır. Bundan əlavə, 63 mülki obyekt və 376 yaşayış evi yararsız hala düşmüşdür.

Ermənistanın bu raket hücumları beynəlxalq mülki aviasiya üçün də böyük təhlükə törədir.

Bundan başqa, Azərbaycanı Kasetli hərbi sursatlar haqqında konvensiyaya qoşulmağa çağırmaqla özünü "ədalət carçısı" kimi qələmə verən "Amnesty International" nədən Ermənistanı BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal edilmiş Azərbaycan ərazilərindən geri çəkilməsini tələb edən qətnamələrini icra etməyə çağırmır.

Bu saxtakar təşkilat Azərbaycan cəmiyyətində ikrah doğurur. "Amnesty International" və bu qəbildən olan "qeyri-hökumət təşkilatları"nın fəaliyyətinə ən düzgün qiyməti sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi müzakirələrində çıxışı zamanı Prezident İlham Əliyev vermişdir".

## *Ceyhun BAYRAMOV:* “Ermənistanın təxribatları zamanı Türkiyənin bütün səviyyələrdə dəstəyini gördük və hiss etdik”



Sentyabrın 27-dən başlayaraq Dağlıq Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təcavüzü və təxribatı nəticəsində Azərbaycan hərbçilərinə və mülki şəxslərinə qarşı hücum edilib. İlk gündən etibarən bizim həm mülki, həm də hərbçilərimiz arasında itkilərimiz olub. Bu məqamda Azərbaycan Ordusu, Azərbaycan dövləti öz beynəlxalq hüququna, vətəndaşlarını müdafiə etmək hüququna və BMT-nin Nizamnaməsinə uyğun olaraq müvafiq addımlar atıb və əks-həmlə tədbirlərinə başlanılıb.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov oktyabrın 6-da türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə keçirdiyi brifinqdə söyləyib.

Ceyhun Bayramov deyib: “Biz bu tarixdən və bundan əvvəl baş verən bir sıra erməni təxribatları zamanı qardaş Türkiyənin bütün səviyyələrdə, o cümlədən ölkə başçısı, millət vəkilləri, siyasi partiyalar, ictimai birliklər, nazirlər və türk xalqı səviyyəsində tam, hərtərəfli, birmənalı dəstəyini gördük və hiss etdik. Fürsətdən istifadə edərək Sizin simanızda Türkiyə dövlətinə və Türkiyə xalqına Azərbaycan dövləti və xalqı adından bir daha minnətdarlığımı bildirirəm”.

Bu problemin kökündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 30 ilə yaxındır ki, həll edilməməsinin dayandığını vurğulayan nazir bildirib ki, 1993-cü ildən bəri BMT-nin məsələnin həllinə dair 4 qətnaməsi başda olmaqla, çoxsaylı beynəlxalq təşkilatların qətnamələri və qərarları olub, lakin bu uzun illər ərzində onların heç birinin icrasında irəliləyiş baş verməyib. 2018-ci ildən sonra isə Ermənistanda formalaşmış hərbi-siyasi rəhbərlik danışıqları tamamilə məhv etməklə prosesə çoxsaylı və ağır zərbələr vurub. Bu isə danışıqlar prosesini müəyyən mənada mənasız formaya gətirib çıxarıb.

## *Mövlud ÇAVUŞOĞLU:* “Bakıya Azərbaycana dəstək olmaq üçün gəlmişəm, hər zaman onun yanında olacağıq”

Azərbaycan xalqına dəstəyimi göstərmək üçün oktyabrın 6-da Bakıya gəlmişəm. Hər zaman Azərbaycanın yanında olacağıq. Azərbaycanın öz torpaqlarını azad etdiyi bir dövrdə Bakıya səfər edirəm. Biz Azərbaycanla kədərimizdə də, sevincimizdə də birgə olacağıq.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramovla görüşdən sonra keçirilən brifinqdə deyib.

Nazir bildirib: “Bütün dünyaya bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycanındır. İşğal olunmuş ərazilər azad edilməyib və bugünədək qəbul edilmiş qətnamələr yerinə yetirilməyib. Bir milyondan çox azərbaycanlı qardaşımız öz evlərinə dönməyi gözləyirlər. Ermənistan bir sıra yaşayış məntəqələrinə hücum edib. Küncə sıxılan Ermənistan yaşayış yerlərinə atəş açır, hətta Abşerona belə atəş açıb. Bu, müharibə cinayətidir, Ermənistanın çarəsizliyinin göstəricidir. Azərbaycan isə heç vaxt mülki vətəndaşları hədəfə almayıb. Bu da Ermənistanla Azərbaycanın əsas fərqidir”.

## Türkiyənin Xarici İşlər naziri: “Ermənistan Yaxın Şərq regionundakı erməniləri Azərbaycanın işğal edilmiş ərazilərinə köçürür”

Ermənistan beynəlxalq hüququ pozaraq Yaxın Şərq regionunda yaşayan erməniləri Azərbaycanın işğal edilmiş ərazilərinə köçürür. Yəni, bu torpaqlarda daimi qalmaq istədiklərinin mesajını verirlər.

AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovla görüşdən sonra keçirilən brifinqdə deyib.

Mövlud Çavuşoğlu qeyd edib ki, beynəlxalq ictimaiyyət bunun belə davam etməyəcəyini bilməlidir. Bütün dünya ölkələrinin haqlının yanında olması, həqiqətləri deməsi üçün Azərbaycanla mübarizəmizi davam etdirəcəyik.

## *Əli HÜSEYNLİ:* “Türkiyənin münaqişənin həllində beynəlxalq mandat əsasında fəaliyyət göstərməsi ideyası problemin ədalətli həllinə öz töhfəsini verə bilər”

Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Əli Hüseynli AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.

*- Əli müəllim, Prezident İlham Əliyevin “TRT Haber” kanalına müsahibəsində ATƏT-in Minsk qrupunun fəaliyyəti və həmsədrlərlə bağlı söylədiyi fikirlərə münasibətinizi bilmək istərdik.*

- Möhtərəm Prezident İlham Əliyev dəfələrlə ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyəti ilə bağlı fikirlərini söyləyib. Bu dəfə isə cənab Prezident Minsk qrupunun həmsədri kimi Fransanın mandatına uyğun olaraq tərəfsiz deyil, Ermənistanın havadarı kimi çıxış etməsini sərt tənqid etdi. Amma dövlətimizin başçısının budəfəki açıqlamasında əsas diqqət Türkiyənin bu münaqişənin həllində oynadığı və gələcəkdə oynaya biləcəyi rola yönəldildi. Bildirildi ki, müəyyən şərtlər çərçivəsində, o cümlədən erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması tarixləri verilərsə, o zaman atəşkəs üzərində çalışmaq olar. Bu zaman Minsk qrupunun həmsədrləri və mümkün olan ölkələr buna qoşularsa, döyüşlərə son qoyula bilər. Digər ölkələr dedikdə cənab Prezident məhz Türkiyəni nəzərdə tutduğunu söylədi ki, bu da çox böyük əhəmiyyət kəsb edir. Türkiyə həm Azərbaycanın, həm də Ermənistanın qonşusudur, Cənubi Qafqazın qonşusudur, güclü bir dövlətdir və böyük potensiala malikdir. Sözsüz ki, Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq mandat əsasında fəaliyyət göstərməsi ideyası münaqişənin ədalətli həllinə öz töhfəsini verə bilər.

*- Eyni zamanda Rusiyanın da həm ATƏT-in Minsk qrupunun həmsədri kimi, həm də qonşuluqda olan böyük dövlət kimi bu məsələdə mövqeyi tərəflər üçün əhəmiyyət kəsb edir. Rusiyanın mövqeyinə həm də bir sıra hallarda Azərbaycan ictimaiyyəti həssaslıqla yanaşır.*

- Cənab Prezident müsahibəsində bu məsələlərə də tam aydınlıq gətirdi. O dedi: “Rusiya bizim qonşumuzdur, Rusiya ilə münasibətlərimiz uğurla inkişaf edir, bu gün bir çox sahələrdə Rusiya ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyədədir. Hər iki ölkə bu münasibətlərə strateji tərəfdaşlıq münasibətləri kimi yanaşır və bu, birgə imzalanmış müqavilələrdə də öz təsdiqini tapır. Bu məsələ ilə bağlı Rusiya çox məsuliyyətli və böyük ölkə kimi davranır. Rusiyadan müsbət mesajlar gəlir... Onlar Rusiyanı bu münaqişəyə cəlb etmək istəyiblər”. Cənab Prezident ermənilərin buna müvəffəq olmayacaqlarına əminliyini də bildirdi. Bu da təsadüfi deyil, həqiqətən də son illər Azərbaycan və Rusiya arasında hərtərəfli əlaqələr öz müsbət nəticəsini verməkdədir. Baxmayaraq ki, bir sıra mətbuat orqanları erməni lobbisinin dəstəyi ilə təcavüzkar Ermənistana dəstək verir. Amma buna baxmayaraq, Yuri Korotçenko, Maksim Şevçenko və digər obyektiv ekspertlər ədalətli mövqedən çıxış edirlər.

*- Cənab Prezident öz müsahibəsində həm də Azərbaycanın ordu quruculuğunun nailiyyətlərinə də toxundu. Siz bu sahədə görülən işlərlə bağlı nə deyə bilərsiniz?*

- Bəli, bu, çox vacib məsələdir. Bilirsiniz ki, hələ zamanında cənab Prezident Azərbaycan Ordusunun büdcəsinin Ermənistanın bir dövlət kimi büdcəsindən üstün olacağı məqsədini qarşıya qoymuşdur. Milyardlarla vəsaitlər ayrılmış və Azərbaycan Ordusu ən müasir silahlarla təchiz olunmuşdur. Təsadüfi deyil ki, cənab Prezident müsahibəsində açıqladı ki, Azərbaycan dünyanın ən güclü ordularından olan Türk Ordusunun kiçik modelini qurur. Sözsüz ki, bu, bizim uğurlarımızın əsas səbəbidir. Cənab Prezident Azərbaycan-Türkiyə münasibətlərini bir daha yüksək qiymətləndirdi və dedi ki, biz çox xoşbəxt ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz, qardaşımız var.

*- Bu gün Milli Məclisdə Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması ilə bağlı qanun qəbul edildi.*

- Bəli, erməni işğalçılarının Qarabağda yaşayış məskənlərinin tarixi adlarının dəyişdirilməsi kimi qanunsuz əməllərindən birinə bu gün son qoyuldu. Heç şübhə yoxdur ki, bundan sonra da torpaqlarımız işğaldan azad olunduqca cənab Prezident tərəfindən bu cür qanunlar parlamentə təqdim olunacaq və yekdilliklə qəbul ediləcək.

## Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə Əfqanıstanın verdiyi dəstək yüksək qiymətləndirilib

Oktyabrın 5-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə Əfqanıstan İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Hənif Atmar arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Məhəmməd Hənif Atmar bölgədə yaşanan gərginlikdən narahatlığını ifadə edib və Əfqanıstanın Azərbaycana dəstəyini bir daha qeyd edib.

Nazir Ceyhun Bayramov qardaş Əfqanıstan tərəfindən Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə verilən dəstəyi yüksək qiymətləndirib və bu xüsusda, Əfqanıstan İslam Respublikasının Milli Şurasının bəyanatlarına istinad edib. Ceyhun Bayramov həmkarına bölgədəki son gərginlik, xüsusilə Ermənistan tərəfindən Azərbaycanın mülki şəxslərinin və infrastrukturunun məqsədli şəkildə hədəfə alınması barədə məlumat verib. Ermənistan silahlı qüvvələri tərəfindən təmas xəttindən uzaqda yerləşən Azərbaycan şəhərlərinin məqsədyönlü şəkildə atəşə tutulması nəticəsində mülki əhali arasında itkilər olduğu və mülki infrastruktura ziyan dəydiyi vurğulanıb.

Azərbaycanın Xarici İşlər naziri bildirib ki, regionda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət olunması, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi zəruridir.

## “Regional İnkişaf” İctimai Birliyi könüllülərinin dünya ölkələrinin könüllülərinə çağırışı

Bu il 27 sentyabr tarixdə Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozmuş, təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini, yaşayış məntəqələrini iriçaplı silahlardan, minaatanlardan və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə əl atmışdır. Hərbi təcavüz nəticəsində hərbi qulluqçularla yanaşı, mülki şəxslər, o cümlədən uşaqlar, qadınlar, ahıllar qətlə yetirilmiş, insanların yaşamaq, mülkiyyət, sərbəst hərəkət etmək və digər hüquqları kobud şəkildə pozulmuş, dövlət və mülki obyektlərə, infrastruktura ciddi ziyan dəymişdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə öz suveren ərazisi daxilində əks-hücum və cavab tədbirləri həyata keçirməyə başlamışdır.

Ermənistan tərəfindən sülhə, təhlükəsizliyə və beynəlxalq hüquqa saymazyana münasibət bəslənilməsi, silahsız insanların, o cümlədən uşaqların, qadınların, ahılların qətlə yetirilməsi və bu kimi qeyri-insani, beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan davranışların vərdiş halına gətirilməsi, cəzasızlıq mühitinin formalaşdırılması səbəbindən hər fürsətdə rahatlıqla təkrarlanması, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə salınması, Azərbaycan ərazilərinin 20 faizinin işğal olunması, işğal altında olan torpaqlarımızda mövcud mədəni irsimizin mənimsənilməsi, nadir tarixi abidələrimizin amansızcasına dağıdılması, təbii sərvətlərimizin talan edilməsi, mədəniyyət vasitəsilə birləşməyə çalışan bəşəriyyət üçün utanc sərlövhəsi olmaqla yanaşı, bəşəri dəyərlərin heçə sayılması, humanist ideyaların qurban verilməsi və təcavüzkar milliyyətçiliyin təbliğ edilməsidir. Bu vaxta qədər açıq ərazi iddiaları səsləndirən Ermənistanın Azərbaycana qarşı müharibə elan etmədən hərbi əməliyyatlara başlaması münaqişənin “qaynar mərhələ”yə qədəm qoymasına səbəb olmuş, Ermənistan qoşunlarının 30 ilə yaxındır ki, işğal etdiyi Azərbaycan ərazilərindən çıxarılmasını, Azərbaycanın beynəlxalq sərhədləri daxilində ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətində adekvat addımlar atmasını zəruri etmişdir.

Belə ki, Ermənistan tərəfindən insanların sıx şəkildə məskunlaşdığı yaşayış məntəqələrinə 10.000-dən artıq müxtəlif növ mərmi və raket atılmış, 500-dən çox fərdi yaşayış evi tamamilə dağılmışdır. Cinayətkar əməllərini davam etdirən Ermənistan silahlı qüvvələri münaqişə zonasından kilometrlərlə kənarda yerləşən, qədim tarixə və çoxsaylı mədəniyyət obyektlərinə malik, turizm mərkəzi kimi tanınan, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə raketlər atmaqla ağır artilleriya atəşinə tutmuşdur. Nəticədə dinc əhali arasında çoxsaylı ölən və yaralananlar olmuş, mülki evlərə, tarixi və mədəni abidələrə, inzibati binalara və digər sosial obyektlərə ciddi ziyan dəymişdir.

Ermənistan azərbaycanlı mülki şəxslərə qarşı dövlət terrorunu davam etdirərək Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinin olduqca yaxınlığında yerləşən Xızı və Abşeron bölgəsinə, habelə su anbarının və əsas elektrik stansiyasının mövcud olduğu Mingəçevir sənaye şəhərinə qarşı raket hücumu təşkil etmişdir. Bu bir daha açıq şəkildə sübut edir ki, Ermənistanın məqsədi qəsdən mülki əhalini hədəfə almaq, günahsız insanların canı bahasına işğalçı niyyətini həyata keçirməkdir. Bu təxribat əməlləri ilə Ermənistan BMT-nin Baş katibinin COVID-19 pandemiyası ilə əlaqədar qlobal atəşkəs çağırışına qarşı fərdiyyəçi, qlobal təəssübkeşlikdən uzaq və qeyri-humanist mövqeyini də ortaya qoymuş oldu.

Qeyd olunanlar göstərir ki, beynəlxalq humanitar hüququn hərbi əməliyyatların gedişində kombatantlar və mülki şəxslərin, hərbi və mülki obyektlərin aydın şəkildə fərqləndirilməsini nəzərdə tutan əsas prinsipi Ermənistan tərəfindən beynəlxalq ictimaiyyətin gözü qarşısında təcavüzkara məxsus soyuqqanlılıq və riyakarlıqla pozulmaqdadır.

Ermənistan tərəfinin Azərbaycanın dinc əhalisinə və mülki obyektlərinə yönəlmiş təcavüzü beynəlxalq hüququn norma və prinsiplərini, Azərbaycanın işğal edilmiş ərazilərindən erməni silahlı birləşmələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların əlavə protokollarının tələblərini pozmaqla regional sülh və təhlükəsizlik üçün təhdid rolunu oynayır.

Planetimizin qlobal problemlərinə dünyanın müxtəlif ölkələrindən könüllülərin vahid prizmadan yanaşması bütün sərhədləri aşan, bəlkə də sərhədsiz adlandırıla biləcək yeni bir dövrün reallığıdır. Bəşəriyyətin qorunması, silahların susdurulması, insanların açıq səma altında, uşaqların müharibə dəhşətlərindən uzaq yaşaması kimi humanist ideyalar daşıyıcısı olan dünya könüllülərini Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini və təxribatçı əməllərini kəskin şəkildə qınamağa və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllində Azərbaycanın haqlı mövqeyini dəstəkləməyə çağırırıq.

## YAP beynəlxalq siyasi partiya təşkilatlarına, dünya ölkələrinin hakim və eləcə də aparıcı siyasi partiyalarına növbəti müraciət ünvanlayıb

Yeni Azərbaycan Partiyası (YAP) sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı törətdiyi hərbi təxribat nəticəsində başlayan döyüşlər və Azərbaycan Ordusunun Qarabağın azadlığı uğrunda mübarizəsi ilə əlaqədar əməkdaşlıq etdiyi siyasi partiya birliklərinə və siyasi partiyalara növbəti müraciət ünvanlayıb. Bu barədə AZƏRTAC-a YAP-ın Mətbuat xidmətindən məlumat verilib.

Müraciətdə bildirilir ki, 30 ildir Azərbaycan ərazilərinin 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal edilib, bir milyon azərbaycanlı etnik təmizləmənin qurbanı olub. Bu illər ərzində ATƏT-in Minsk qrupu tərəfindən aparılan vasitəçilik missiyası Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından müsbət nəticəyə nail olmayıb. Erməni tərəfinin mövqeyi çox müxtəlif üsullarla status-kvonu saxlamaqdan ibarətdir: “Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məskənlərini və mülki obyektlərini iriçaplı silahlardan və ağır artilleriyadan atəşə tutması nəticəsində 30 il davam edən Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi qarşıdurma kəskin şəkildə gərginləşib. Ermənistan tərəfi intensiv şəkildə dinc şəhərləri hədəfə aldığından mülki əhali arasında çoxlu ölən və yaralananlar var, mülki infrastruktur ciddi dağıntılara məruz qalıb. Ermənistanın silahlı qüvvələri heç cür haqq qazandırıla bilməyən açıq təxribat törədərək oktyabrın 4-də münaqişə zonasından uzaqda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəni, sənaye mərkəzi olan Mingəçevir şəhərini raket atəşinə tutub. Dinc əhali arasında yaralananlar və ölənlər var, infrastruktura ciddi ziyan vurulub.

Hazırda Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda döyüş əməliyyatlarını həyata keçirir. Döyüşlərin dayandırılmasının və münaqişənin nizama salınmasının yeganə ədalətli şərti Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazilərindən çıxarılmasıdır. Bütün Azərbaycan cəmiyyəti, ölkənin siyasi partiyaları və vətəndaş cəmiyyəti təsisatları 30 il davam edən işğala qarşı ədalətli mübarizə ideyası ətrafında sıx birləşərək vahid mövqe nümayiş etdirir.

Erməni işğalı və hazırkı şəraitdə dinc əhalinin atəşə tutulması Cənubi Qafqazda, bütövlükdə regionda sülh və təhlükəsizliyə ciddi təhdid olaraq qalmaqdadır. Beynəlxalq ictimaiyyət erməni işğalına son qoyulmasına, bir milyon məcburi köçkün azərbaycanlı əhalinin öz yurd-yuvalarına qayıtmasına lazımi dəstək göstərməlidir. Ermənistanın müharibə partiyasının əməlləri, qonşu ölkələrin torpaqlarını işğal etmək niyyətləri qətiyyətlə pislənməlidir.

“İşğalçılıq, etnik təmizləmə və etnik nifrət XXI əsrin ideologiyası ola bilməz və olmamalıdır. İşğalçılıq və etnik təmizləmə ideologiyasına qarşı yalnız beynəlxalq birlik və həmrəylik dura bilər və durmalıdır. Buna görə də biz sizi Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək, ərazi bütövlüyünü və əhalisinin təhlükəsizliyini təmin etmək istiqamətində ədalətli mübarizəsini dəstəkləməyə çağırırıq”, - deyə müraciətdə qeyd edilir.

Müraciət Yeni Azərbaycan Partiyasının əməkdaşlıq etdiyi Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransına (İCAPP), Mərkəzçi Demokrat İnternasionalına, Avropa Xalqları Partiyasına, Türkiyənin Ədalət və İnkişaf Partiyasına, Rusiyanın “Vahid Rusiya” (“Yedinaya Rossiya”) Partiyasına, Ukraynanın “Sluqa naroda” Partiyasına, “İsrail bizim evimizdir” Partiyasına, Çin Kommunist Partiyasına, Cənubi Koreyanın Demokrat Partiyasına, Yaponiya Liberal-Demokrat Partiyasına, Vyetnam Kommunist Partiyasına, Qazaxıstanın “Nur Otan” Partiyasına, Macarıstanın “FİDESZ” Partiyasına, eləcə də Pakistanın, Malayziyanın, Banqladeşin, Laosun, İndoneziyanın, Rumıniyanın, Bolqarıstanın, Serbiyanın və digər ölkələrin, bütövlükdə Avropa və Asiyanın 34 ölkədən 54 siyasi partiyasına, eləcə də bir sıra beynəlxalq təşkilatlara ünvanlanıb.

## Azərbaycanın Baş prokuroru “Amnesty International” təşkilatının baş katibinə rəsmi müraciət ünvanlayıb

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev “Amnesty International” təşkilatının baş katibi xanım Julie Verhara rəsmi müraciət ünvanlayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətə səbəb “Amnesty International” təşkilatının veb-saytında oktyabrın 5-də yerləşdirilmiş “Ermənistan-Azərbaycan: mülki şəxslər qadağan edilmiş “claster” bombalarının istifadəsindən qorunmalıdır” sərlövhəli məqalədə bir sıra faktların təhrif edilməsi olub.

Müraciətdə qeyd edilib ki, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat həyata keçirərək bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və mövqelərini atəşə tutub. Nəticədə mülki şəxslər və hərbi qulluqçularımız arasında ölən və yaralananlar var. Dinc mülki əhalinin sıx yaşadığı məntəqələr, mülki infrastruktur obyektləri - xəstəxanalar, tibb müəssisələri, məktəb binaları və uşaq bağçaları qəsdən hədəfə alınır ki, bu da Ermənistan rəhbərliyinin dövlət səviyyəsindəki terror siyasətinə sadiq olduğunu bir daha göstərir.

Diqqətə çatdırılıb ki, sentyabrın 27-dən başlayan erməni terroru nəticəsində 27 mülki şəxs həlak olub, 141 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, çoxlu saytda evə və mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəyib.

Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən beynəlxalq hüququn norma və prinsipləri kobud şəkildə pozulmaqla döyüş bölgəsindən xeyli uzaqda yerləşən müxtəlif şəhər və rayonlarımızda dinc mülki əhalinin sıx yaşadığı məntəqələr ağır artilleriya atəşinə tutulub. Belə ki, 500 mindən artıq əhalisi olan Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələrin yerləşdiyi qədim Gəncə, strateji əhəmiyyət daşıyan sənaye şəhəri Mingəçevir, habelə Beyləqan, Bərdə, Ağcabədi, Goranboy və digər rayonlar istifadəsi qadağan edilmiş raket və qurğulardan atəşə tutulub.

Oktyabrın 4-də Ermənistan tərəfindən növbəti təxribat törədilərək döyüş bölgəsindən xeyli uzaq məsafədə yerləşən Xızı və Abşeron rayonlarına ortamənzilli iki raket atılıb.

Qeyd edilib ki, mütəxəssislərimiz tərəfindən Ermənistan silahlı qüvvələrinin mülki və strateji obyektlər də daxil olmaqla bütün hədəflərə qarşı beynəlxalq səviyyədə qadağan edilmiş yüksək dağıdıcı qüvvəyə malik “claster” bombalarından və “Smerch” raketlərindən istifadə etməsi müəyyənləşdirilib. Bunu sübut edən foto və videolar da müraciətə əlavə olunub.

Bu məlumatlar “Amnesty International” təşkilatının rəhbərinin diqqətinə çatdırılmaqla rəsmi veb-saytda yerləşdirilməsi və bu həssas məsələdə obyektiv və qərəzsiz mövqe tutulması xahiş edilib.

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi dünyanın bütün Konstitusiya məhkəmələrinə bəyanatla müraciət edib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı, Avropa Konstitusiya Məhkəmələrinin Konfransı, habelə Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutlar Assosiasiyası təşkilatları çərçivəsində dünyanın bütün Konstitusiya məhkəmələrinə bəyanatla müraciət edib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda son zamanlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının mütəmadi xarakter aldığı vurğulanıb. Qeyd edilib ki, bu təxribatlar nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən uzaqda yerləşən şəhərlərinin ağır artilleriya atəşinə məruz qalması həm hərbi, həm də mülki əhali arasında itkilərə səbəb olub. Bu hərəkətlər təcavüzkar Ermənistan hakimiyyətinin 1988-ci ildə başlayan, Azərbaycan ərazisinin işğal edilməsinə yönələn və azərbaycanlıların etnik təmizlənməsi ilə müşayiət olunan siyasətinin davamıdır.

Bəyanatda həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf yeddi rayonunun Ermənistan ordusu tərəfindən işğal olunması, bu işğal nəticəsində bir çox şəhər və kəndlərin tamamilə dağıdılması, yerli əhalinin isə etnik təmizləməyə məruz qalması diqqətə çatdırılıb. Qeyd olunub ki, Ermənistanın təcavüzü nəticəsində bir milyona yaxın azərbaycanlı öz yaşayış yerlərindən məcburi çıxarılıb. Təkcə Xocalıda baş verən və yalnız Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Bundan başqa, 1275 nəfər girov götürülüb, onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi naməlumdur.

Konstitusiya məhkəmələrinin diqqətinə çatdırılıb ki, BMT, Avropa Şurası, ATƏT, Avropa İttifaqı və digər beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu açıq şəkildə təsdiq edilir. Azərbaycanın işğal olunmuş ərazilərindən erməni qoşunlarının dərhal çıxarılmasına dair BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 4 qətnamə (882, 853, 874, 884) qəbul edib. Lakin həmin qətnamələr Ermənistan tərəfindən hələ də icra olunmayıb.

Həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Çıraqov və başqaları Ermənistana qarşı 2015-ci il 16 iyun tarixli qərarında Dağlıq Qarabağdakı proseslərin Ermənistanın nəzarəti altında həyata keçirildiyi Strasburq Məhkəməsi tərəfindən qeyd edilib.

Bəyanatda həmçinin vurğulanıb ki, sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək dövlətimizin hərbi mövqelərini, eyni zamanda, yaşayış məntəqələrini atəşə tutub. Ermənistan hökumətinin ATƏT-in Minsk qrupu çərçivəsində konstruktiv danışıqlardan hər şəkildə boyun qaçırmasını nəzərə alaraq Azərbaycan hökuməti beynəlxalq səviyyədə tanınmış dövlət sərhədləri daxilində ölkənin ərazi bütövlüyünü bərpa etmək, habelə vətəndaşlarının təhlükəsizliyini, sülh və sabitliyi təmin etmək üçün beynəlxalq hüquqa əsaslanaraq Ermənistanın silahlı qüvvələrinə qarşı hərbi əməliyyata başlamağa məcbur olub.

Xüsusilə qeyd edilib ki, Azərbaycan Silahlı Qüvvələrinin hərbi əməliyyatları mülki əhali və mülki infrastruktura qarşı yönəlməyib. Həyata keçirilən əməliyyatlarda beynəlxalq humanitar hüququn prinsiplərinə və Cenevrə Konvensiyasından irəli gələn öhdəliklərə əməl olunur.

Bəyanatın sonunda Azərbaycan hökumətinin qanuni və məcburi hərəkətlərinin ölkəmizin işğal olunmuş ərazilərində dövlətimizin yurisdiksiyasının bərpası, qaçqınların öz evlərinə qayıtması və beynəlxalq hüququn bərqərar olunması ilə nəticələnəcəyi əminliklə qeyd edilib.

# Müdafiə Nazirliyi xəbər verir

## Müdafiə Nazirliyinin xüsusi xidməti müşavirəsi keçirilib

Oktyabrın 6-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə aparılan əks-hücum əməliyyatında mövcud vəziyyətin təhlili aparılıb. Düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl şəkildə darmadağın olunmasının davam etdirilməsi tapşırılıb.

General-polkovnik Zakir Həsənov qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə dair göstəriş verib.

Müdafiə naziri düşmən tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat tədbir görüləcəyini bildirib. Nazir Azərbaycan Ordusuna arsenalındakı yüksək dəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyi planlaşdırmağı əmr edib.

## Ermənistan silahlı qüvvələri Goranboy rayonuna daha bir raket atıb



Dinc sakinləri hədəfə alan Ermənistan ordusunun "Smerç" reaktiv yaylım atəşi sistemindən atdığı raket Goranboy rayonu ərazisinə düşüb.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, raket boş əraziyə düşüb.

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) partlamamış hərbi sursatların zərərsizləşdirilməsi üzrə əməliyyat meneceri Mədət Məmmədov jurnalistlərə açıqlamasında bildirib ki, düşmən tərəfindən Goranboy rayonu ərazisinə "Smerç" sistemindən atılmış raket başlığının partlaması nəticəsində onun içərisində olan bombletlər 200 metr radiusda səpələnib. Hazırda ANAMA ərazidə təmizləmə əməliyyatları aparır. Əməliyyatlar çətin və mürəkkəb şəraitdə aparılır və gərgin iş tələb edir. Bu bombalar silahlar arasında ən təhlükəli olanlardandır.

* * *

Ermənistan silahlı qüvvələri oktyabrın 6-da Yevlax, Goranboy və Beyləqan rayonlarının ərazilərini atəşə tutub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

## *Müdafiə Nazirliyinin mətbuat katibi:* "Azərbaycan Ordusu düşmənə ağır zərbələr endirir"

Azərbaycan Ordusunun əks-hücum əməliyyatı zamanı müxtəlif istiqamətlərdə düşmənin zirehli texnikaları, atəş dəstək və təminat vasitələri darmadağın edilib. Ötən müddətdə düşmənin 63-cü tank taborunun daha 3 tankı, həmçinin 41-ci və 62-ci artilleriya alaylarının 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib. Düşmənin 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri zərərsizləşdirilib.




AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov oktyabrın 6-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ballıca məntəqəsində yerləşən mərkəzi silah-sursat anbarı məhv edilib. Cəbrayılda düşmənin xeyli sayda silah-sursat, döyüş və avtomobil texnikası qənimət götürülüb. Hadrutda yerləşən 1-ci motoatıcı alayının müdafiə sahəsində silah-sursat, ərzaq və yanacaq çatışmazlığı yaranıb. Alayın 3-cü taborunun şəxsi heyəti döyüş mövqelərini özbaşına tərk edərək qaçıb. Eyni zamanda hərbi hissənin sürücüləri də döyüş və avtomobil texnikalarını ataraq əməliyyat zonasından uzaqlaşıblar. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəklik azad edilib. Ordumuz cəbhənin bütün istiqamətlərində üstünlüyü əldə saxlamaqla əks-hücum əməliyyatını uğurla davam etdirir.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Azərbaycan Ordusunda tibbi təminat, təchizat və qan komponentləri ehtiyatı ilə bağlı heç bir problem yoxdur. Silahlı Qüvvələrin Baş Klinik Hospitalı tərəfindən zəruri ehtiyaclar tam təmin edilir. Sosial şəbəkələrdə bu mövzuda yayılmış bir sıra əsassız və qərəzli xarakter daşıyan məlumatlar yersizdir. Vətəndaşlardan Müdafiə Nazirliyinin "qaynar xətti"ni bu məsələ ilə əlaqədar məşğul etməmələri xahiş olunur.

Oktyabrın 6-da Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirənin keçirildiyini xatırladan A.Eyvazov bildirib ki, müşavirədə mövcud vəziyyət təhlil olunaraq düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl şəkildə darmadağın edilməsi tapşırılıb. Müdafiə naziri qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə dair göstəriş verib və düşmən tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat tədbir görüləcəyini bildirib. Nazir Azərbaycan Ordusuna arsenalındakı yüksək dəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyi planlaşdırmağı əmr edib.

Bildirilib ki, cəbhə boyu sıxışdırılan düşmən artıq bir neçə gündür ki, Ermənistan ərazisindən şəhər və rayonlarımızda əhalinin kompakt olduğu yerlərə, mülki infrastruktura sistemli şəkildə raket zərbələri endirir. Ötən müddətdə düşmən tərəfindən Gəncə, Mingəçevir, Beyləqan, Horadiz, Ağcabədi, Bərdə, həmçinin Tərtər, Goranboy və Göygöl rayonları raket və artilleriya atəşinə tutulub. Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışlarını qeydə alıb. Ermənistanın bu müharibə cinayətləri məqsədyönlü şəkildə Azərbaycanı cavab tədbirləri görməyə təhrik edir.

Erməni KİV-inin dezinformasiyaları Azərbaycan tərəfindən iflic edilmiş Ermənistan işğalçı ordusunun şəxsi heyətinin, eləcə də təşviş və kütləvi psixoz vəziyyətində olan Ermənistan əhalisinin yanlış yöndə istiqamətləndirir. Ermənistan yüksək çinli məmurlarının yalan və iftiraları məsələni daha da alovlandırır. Düşmənin ordu komandanlığı işğal edilmiş ərazilərdə nəzarəti itirməsi, həmçinin məğlubiyyətin qaçılmaz olduğunu dərk etməsinə baxmayaraq, qeyri-insani xislət nümayiş etdirir və sanki vətəndaşlarının tələf olmasını istəyir. Azərbaycan tərəfi döyüş bölgəsində humanitar dəhlizlərin açılması, beynəlxalq humanitar hüquq norma və prinsiplərinin tətbiq edilməsi barədə hazır olduğu barədə erməni ailəsinə müraciət edib. Müraciət həyatını qurtarmaq məqsədilə könüllü qaydada təslim olmaq istəyən hərbi qulluqçulara da şamil edilir.

A.Eyvazov diqqətə çatdırıb ki, Azərbaycan Ordusunda ictimai-siyasi hazırlıq, hərbi hüquq, habelə beynəlxalq humanitar hüquq normaları və Cenevrə Konvensiyasının müddəaları döyüş hazırlığının tərkib hissəsidir. Bu müstəvidə Müdafiə Nazirliyinin illik fəaliyyət planına əsasən Beynəlxalq Qırmızı Xaç Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Ombudsman Aparatı və Hərbi Prokurorluq ilə qarşılıqlı əməkdaşlıq münasibətləri qurulub. Azərbaycan Ordusunun bölmələri döyüş əməliyyatlarının aparıldığı ərazilərdə beynəlxalq silahlı münaqişə tərəflərinin hörmət etməli olduqları beynəlxalq humanitar hüquq normalarına dair memorandumun tələblərinə uyğun olaraq fəaliyyət göstərir. Hərbi qulluqçularımız əməliyyatda iştirak etməyən şəxslərin mühafizəsini təşkil etmək, onlara tibbi və digər yardım göstərmək, eləcə də itkin düşmüş və vəfat etmiş şəxslərlə davranış qaydalarına əməl edir. Silah tətbiq etmə qaydalarına da tam olaraq riayət edilir.

Bildirilib ki, Ermənistan tərəfindən fərqli olaraq, Azərbaycan Ordusu işğal edilmiş ərazilərimizdə yalnız Ermənistan ordusuna aid legitim obyektləri hədəfə alır. Şəraitin imkan verdiyi hallarda mülki əhalinin qabaqcadan məlumatlandırılması, həmçinin nəzarətimizdə olan əhalinin düşmən zərbələrindən qorunması tədbirləri ordumuz tərəfindən həyata keçirilir. Bir daha qeyd edirik ki, Azərbaycan Ordusu beynəlxalq silahlı münaqişə tərəflərinin hörmət etməli olduqları beynəlxalq humanitar hüquq normalarına dair memorandumun müddəalarını rəhbər tutaraq beynəlxalq humanitar hüququn prinsip və normalarına tam əməl edir.

Sonda Müdafiə Nazirliyinin mətbuat katibi Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən hazırlanaraq Azərbaycan Ordusunun şəxsi heyətinə, xüsusilə ön xətt bölmələrinə paylanılan və dərs vəsaiti kimi tədris edilən broşürlər barədə məlumat verib. Bildirilib ki, broşürlərdə hərbi qulluqçuların davranış, eləcə də döyüş zamanı yaralananlara və zərərçəkənlərə ilkin tibbi yardım və s. məsələlər barədə qaydalar əksini tapıb. Həmçinin broşürlərdə Azərbaycan Respublikasının üzərinə götürdüyü bəzi öhdəliklər və prinsiplər yer alıb.

## Azərbaycan Müdafiə Nazirliyi bölmələrimizin ələ keçirdiyi düşmənə məxsus zirehli texnikaların görüntülərini yayıb



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi döyüşlərdə bölmələrimizin ələ keçirdiyi düşmənə məxsus zirehli texnikaların görüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin zirehli texnikaların görüntülərini təqdim edir.

## Ermənistan tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin adına saxta "Twitter" hesabı açılıb

Ermənistan tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin adına saxta "Twitter" hesabı açılıb.




Bununla əlaqədar Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər: "Vətəndaşları, sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini həmin profilə istinad etməməyə və https://twitter.com/ModAzerbaiyan saxta hesabının bağlanılması üçün şikayət etməyə çağırırıq.

Bildiririk ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi "Twitter" hesabı aşağıdakı linkdədir: **https://twitter.com/-wwwmodgovaz".**

## Silahlı Qüvvələrə Yardım Fonduna köçürmələr Müdafiə Nazirliyinin rəsmi hesab nömrələrinə edilməlidir

Sosial şəbəkələrdə Silahlı Qüvvələrimiz üçün yardım toplayan şəxslərin sayının çoxaldığını nəzərə alaraq vətəndaşlardan ayrı-ayrı şəxslərin hesablarına deyil, yalnız Müdafiə Nazirliyinin paylaşdığı rəsmi hesab nömrələrinə köçürmələr etmələri xahiş olunur.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Silahlı Qüvvələrə Yardım Fonduna aşağıdakı linklər vasitəsilə keçid etmək olar:

https://ibar.az/az/donate

https://gpp.az/WebPortal/Infosite/Sc/989100/Category/8

https://asanpay.az/intro/home

https://hesab.az/unregistered/#/direct-pay/charity/merchants.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi ordumuza maddi və mənəvi dəstək olan hər bir vətəndaşımıza minnətdarlığını bildirir.

## Müdafiə Nazirliyi işğaldan azad edilmiş Cəbrayıl rayonunun Çaxırlı kəndinin və düşməndən götürülən hərbi qənimətin videogörüntülərini təqdim edib

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Cəbrayıl rayonunun Çaxırlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

* * *



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi döyüşlərdə Ermənistan silahlı qüvvələrinin hərbçilərinin atıb qaçdığı və bölmələrimizin məhv etdiyi düşmənin silah və hərbi texnikalarının videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla düşmən qənimətlərinin görüntülərini təqdim edir.

## Düşmənin yaşayış məntəqələrini atəşə tutması nəticəsində bir sıra rayonlarda yanğınlar baş verib

Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törətməkdə davam edir.



Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin atdığı mərmi nəticəsində Füzuli rayonunda vətəndaşa məxsus fərdi evin konstruksiyaları alovlanıb. FHN-in əraziyə cəlb olunmuş Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri tərəfindən yaxınlıqdakı tikililəri yanğından mühafizə edib.

Bərdə rayonuna mərmi düşməsi nəticəsində vətəndaşa məxsus fərdi evin dam örtüyü və bir otağın konstruksiyaları qismən yanıb. Evin qalan hissəsi yanğınsöndürənlər tərəfindən mühafizə olunub.

Ağdam rayonuna düşmüş mərmi vətəndaşa məxsus təsərrüfat obyektində yanğına səbəb olub. Yanğınsöndürənlərin səyi nəticəsində yaxınlıqdakı ev yanğından mühafizə edilib.

Fövqəladə Hallar Nazirliyi hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - "qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

## Ermənistan silahlı qüvvələrinin atdığı mərmi nəticəsində FHN-in bir əməkdaşı xəsarət alıb

Ermənistanın silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törətməkdə davam edir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin Ağdam rayonuna atdığı mərmi məktəb binasında dağıntılar törədib, növbədə olan yanğınsöndürmə avtomobilinə ziyan dəyib. Avtomobilin sürücüsü - FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşı, daxili xidmət çavuşu Qismət Əli oğlu Yusibov partlayış dalğasının təsirindən xəsarət alıb və xəstəxanaya yerləşdirilib. Xəsarət alan əməkdaşın vəziyyəti hazırda qənaətbəxşdir.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - "qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

## Baş Prokurorluğun Mətbuat xidməti qüdrətli Azərbaycan Ordusuna dəstək məqsədilə videoçarx hazırlayıb

Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidməti qüdrətli Azərbaycan Ordusuna dəstək məqsədilə videoçarx hazırlayıb. AZƏRTAC xəbər verir ki, videoçarxda Baş Prokurorluğun sosial şəbəkə səhifələrində və rəsmi veb-saytında izləmək mümkündür.

Videoçarxda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin qurucusu olduğu qüdrətli Azərbaycan Ordusunun Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmənə sarsıdıcı zərbələr vurması əks olunub. Həmçinin videoçarxda Azərbaycan Prezidenti İlham Əliyevin xalqımıza müraciətində ifadə etdiyi "Biz öz torpağımızda vuruşuruq. Ermənistan işğalçı dövlətdir və bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" sözləri xüsusi vurğulanıb.

## Polis əməkdaşları cəbhəyanı bölgələrdə xidməti fasiləsiz davam etdirirlər

Artıq bir neçə gündür ki, axşam saatlarında ölkənin bəzi şəhər və rayonlarında komendant saatı tətbiq edilir. Bununla əlaqədar polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən paytaxt Bakı ilə yanaşı, bölgələrdə də postlar qurulub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhəyanı bölgələrdə polis əməkdaşları ictimai asayişi təmin etmək üçün sutka ərzində xidmətlərini yorulmadan fasiləsiz davam etdirirlər.

## AZƏRTAC-ın kollektivi Azərbaycan Silahlı Qüvvələrinin Yardım Fonduna ianə edib

AZƏRTAC-ın idarə heyətinin üzvləri və struktur rəhbərləri Azərbaycan Silahlı Qüvvələrinin Yardım Fonduna əməkhaqlarından 15 min manat vəsait köçürüblər.

Rəşadətli ordumuzun Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda agentliyin kollektivi də Böyük Qələbəni yaxınlaşdırmaq üçün informasiya müharibəsində fəal şəkildə iştirak edir. Cəbhə bölgəsində işləyən çəkiliş qruplarımız erməni təxribatlarını lentə alır, Ermənistanın faşist simasını ifşa edən foto və videolar, reportaj və xəbərlər hazırlayırlar. Bu materiallar 8 dildə AZƏRTAC-ın kanalları ilə fasiləsiz olaraq dünyanın hər yerinə yayılır.

AZƏRTAC-ın jurnalistləri Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman ordumuzdan yeni qələbə müjdələri gözləyirlər. Qarabağ Azərbaycandır!

## Düşmənin təxribatları bərdəliləri sarsıtmır

Azərbaycan Ordusunun uğurlu döyüş əməliyyatları geniş miqyas aldıqca ərazilərimiz ard-arda işğaldan azad edildikcə düşmənlərimizin havası çatmır, nəfəsi daralır. Faşist xislətli erməni işğalçıları Qarabağ savaşını uduzduqlarının fərqində olsalar da, çirkin əməllərindən, mülki obyektləri, dinc əhalini hədəfə alan təxribatlarından əl çəkmək istəmirlər.



Xəbər verildiyi kimi, son günlər Bərdənin rayon mərkəzi, ətraf kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulmuşdur. Bərdə şəhərinə çox sayda raket atılmışdır. Nəticədə yaşayış evlərinə, mülki obyektlərə ciddi zərər dəymişdir. Əsl barbarlıq olan düşmən təxribatı nəticəsində bir nəfər həlak olmuş, üç nəfər müxtəlif dərəcəli xəsarət almışdır.

Buna baxmayaraq, əhali arasında əhvali-ruhiyyə yüksəkdir. Əvvəlcədən görülmüş zəruri təhlükəsizlik tədbirləri əhalidə kütləvi qorxu, xaos yaranması ehtimallarını heçə endirmişdir. Bərdə şəhər sakini, təqaüddə olan müəllim Fəqan İbrahimov bizimlə söhbətində bərdəlilərin yüksək əhvali-ruhiyyədə olduğunu inamla vurğuladı:

- Bü gün bütün Azərbaycan xalqı kimi Bərdə camaatı da öz xilaskar ordusu ilə nəfəs alır. Hər kəs ölkəmizdə müharibə getdiyinin fərqindədir. Qələbəyə aparan yol isə qurbanlardan, itkilərdən keçir. Düşmən mərmiləri evlərimizi dağıtsa da, övladlarımızı şəhid etsə də, iradəmizi qıra bilməz. Xalqımız öz ordusuna arxa-dayaqdır. Məqsədimiz isə qələbədir. İnanırıq ki, şanlı ordumuz bizi tezliklə arzusunda olduğumuz bu qələbəyə qovuşduracaqdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Vətən müharibəsi zəfərlə başa çatacaq!

# İLHAM ƏLİYEVİN şərtləri dəyişməzdir:

## Torpaqlarımız tam azad olunana qədər savaş davam edəcək



*Əvvəli 1-ci səh.*

BMT TŞ-nin sədrləri Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təsdiqləyən və münaqişənin sülh yolu ilə həll olunmasına yönəlmiş ATƏT-in Minsk qrupunun səylərini dəstəkləyən bəyanatlarla çıxış ediblər. BMT Baş Assambleyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul olunub və bu sənəddə Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edilib.

Bütün bunlar problemin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tələb edən beynəlxalq hüquqi normalardır. Lakin BMT kimi mötəbər bir təşkilatın qətnamələri 27 ildir kağız üzərində qalıb. İndiyə qədər bu təşkilat Ermənistana qarşı təsirli mexanizmlərin işə salınmasına maraq göstərməyib. Baxmayaraq ki, BMT-nin ayrı-ayrı dövlətlərlə bağlı qətnamələrinin ən qısa vaxtda icra olunmasına dair təcrübədə nümunələr mövcuddur.

### Azərbaycan daha 30 il gözləmək fikrində deyil

Ermənistanın təxribatı nəticəsində yeni savaşın başlanmasından sonra isə bəzi təşkilatlar və dövlətlər əl-ayağa düşərək tərəfləri danışıqlar masasında oturmağa çağırır. Amma sual olunur, problem indiyə qədər danışıqlar yolu ilə həll edilməyibsə, bundan sonra danışıqların müsbət nəticə verməsi mümkündürmü? 1994-cü ildə başlanan danışıqların əsas leytmotivi Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarmasıdır. Amma 26 ildə ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlarda heç bir irəliləyiş olmayıb. Paşinyanın "Qarabağ Ermənistandır" deməsi isə ümumiyyətlə danışıqların mənasız olduğunu göstərdi. Bütün bunlar indi Azərbaycanı danışıqlara çağıran dövlətlərin şahidi olduğu proseslərdir. Lakin heç biri Ermənistanın bu prosesi pozmasına, son dövrlərdə artan hərbi ritorikasına, Azərbaycan qarşısında 7 şərt qoymasına, Şuşada qondarma rejim üçün andiçmə mərasimi keçirməsinə, "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyası irəli sürməsinə, Tovuza hücum etməsinə, Goranboya diversiya qrupu göndərməsinə, Livan ermənilərini işğal olunmuş Azərbaycan ərazilərində yerləşdirməsinə kəskin münasibət bildirmədilər.

Bütün bunlar öz növbəsində göstərdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli yalnız güc yolu ilə mümkündür. Çünki danışıqların pozulması və Ermənistanın işğalçı siyasətini genişləndirmək planları başqa yol qoymur. Prezident İlham Əliyev problemin danışıqlar yolu ilə həllinə dair son günlərdə edilən çağırışlara münasibət bildirərkən deyib: "Mən çox eşidirəm münaqişənin hərbi yolla həlli yoxdur. Birincisi, mən bununla razı deyiləm. İkincisi, yaxşı, əgər hərbi həll yolu yoxdursa, bizə qeyri-hərbi həll yolu verin, bizə diplomatik həll verin. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edin. Onlar dünyanın ən ali beynəlxalq qurumu tərəfindən qəbul olunub və bu qətnamələr erməni qoşunlarının işğal olunmuş ərazilərdən heç bir şərt olmadan çıxarılmasını tələb edir. Biz 1992-ci ildən bu yana danışıqlar aparırıq və bu 28 il ərzində hər hansı diplomatik həll olubmu? Vasitəçilər və ya digər beynəlxalq təşkilatlar bizə siyasi həll təqdim ediblərmi? Xeyr. Onlar bu münaqişəni dondurulmuş etdilər. Lakin o dondurulmuş deyil. Biz nə qədər gözləməliyik? Daha 30 il?"

### Ermənistanın yeganə çıxış yolu İlham Əliyevin şərtlərini qəbul etməkdir

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan əzəli ərazilərimiz olan Dağlıq Qarabağda ikinci Ermənistan dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək. Eyni zamanda həmişə bəyan olunub ki, Azərbaycanın həyata keçirdiyi modern ordu quruculuğunun əsas məqsədlərindən biri sülh danışıqlarının nəticəsiz qalacağı təqdirdə işğal altındakı torpaqlarımızın müharibə yolu ilə azad olunmasıdır.

Bu gün Azərbaycan Ordusu bu məqsədlərdən irəli gələrək öz müqəddəs missiyasını uğurla yerinə yetirməkdədir. Düşmən illərdir işğal altında saxladığı, talan etdiyi torpaqlarımızda məhv edilir, layiq olduğu tarixi cəzasına çatır. Ordumuz əks-əməliyyatlara başladığı ötən günlər ərzində Ermənistan ordusunun illərdir möhkəmləndiyi bütün əlverişli mövqeləri azad edib. Düşmənin Dağlıq Qarabağdakı hərbi imkanları əhəmiyyətli dərəcədə məhv olunub. Bu gün Paşinyan ayrı-ayrı dövlət və hökumət başçılarına yalvarır, Azərbaycanı danışıqlar masasına qayıtmağa razı salmaq üçün bütün günü telefonlardan asılı qalıb.

İlham Əliyevin şərtləri dəyişməzdir. "Ermənistanın baş naziri bir il bundan əvvəl bizim torpaqlarımızda demişdi ki, "Qarabağ Ermənistandır", Azərbaycan xalqından üzr istəməlidir. İkincisi, o deməlidir ki, Qarabağ Ermənistan deyil. Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir. Dördüncüsü, bəyan etməlidir ki, hansı gündə, hansı bölgədən Ermənistan silahlı qüvvələri çıxır. Bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir. O halda təbii ki, atəşkəs bərpa olunacaq və beləliklə, bu məsələ müzakirə yolu ilə həll olunacaq, Azərbaycan xalqı öz doğma torpaqlarına qayıdacaq", - deyə Prezident İlham Əliyev bəyan edib.

Bəli, bu gün şərtləri İlham Əliyev diktə edir. İndi Ermənistan başa düşür ki, torpaqları işğal etməyin axırı hara gətirib çıxarır. Paşinyan dərk edir ki, Azərbaycana qarşı "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyasının, 7 şərt irəli sürülməsinin axırı necə olur. Ona görə indi Ermənistanın vəziyyətdən yeganə çıxış yolu nə qədər gec deyil İlham Əliyevin şərtlərini qəbul etməkdir. İlham Əliyevin şərtləri isə dəyişməzdir: Torpaqlarımız tam azad olunana qədər savaş davam edəcək. Və bu müharibə Ermənistan üçün elə başa çatacaq ki, yarası tarix boyu sağalmayacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***





# Azərbaycan bayrağı Qarabağda bir daha enməyəcək

## Düşmən bayrağı isə ayaqlar altındadır

*Əvvəli 1-ci səh.*

Onların xalqımıza qarşı törətdiyi soyqırımların, qəddarcasına öldürdükləri körpələrin, illərdir axıdılan qanların, göz yaşlarının intiqamı alınır.

Azərbaycanın rəşadətli əsgərləri haqq-ədalət uğrunda, yağı tapdağında qalan doğma yurdumuzu düşmən pəncəsindən xilas etmək üçün savaşır.

Yad ayaqlar altında inildəyən ata-baba torpaqlarımız həsrətdən sonra azadlığına qovuşur. Mənfur düşmən bayrağı endirilərək, layiq olduğu yerə - ayaqlar altına atılır. Yerinə müqəddəs üçrəngli bayrağımız sancılır... Sahib olduğu, haqq etdiyi əzəli və əbədi yerində dalğalanmaq, bir daha enməmək naminə...

Xalqımızın bayraq sevgisi, bayraq qovğası həmişə böyük olub. Bu sevgi min illərdən, sınaqlardan keçib, bugünümüzə gəlib çıxıb. Bayrağa münasibət dövlətə, dövlətçiliyə, vətənə, millətə sevgi kimi qəbul olunub.

Vətən, torpaq uğrunda şəhid olanların bayrağa bükülərək son mənzilə yola salınmasının da mənası çox böyükdür: ən ağır faciənin, dərdin qarşısına millət başı üstündə qaldırdığı bayraqla çıxır. Millət, dövlət, ölkə endirilmiş bayraqları ilə o dərdə, hüznə şərik olur...

Bayraqlar həm də hərbi əməliyyatlarda şərəf simvoludur, döyüş zamanı göz bəbəyi kimi qorunur. Döyüş bayrağı isə əsgərin ləyaqət, şücaət rəmzidir. Bayrağın enməsi və ya düşmən əlinə keçməsi məğlubiyyətin əlaməti sayılır.

Bir neçə gün öncə Ağdərə (Suqovuşan) istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun əsgərlərimiz tərəfindən darmadağın edilən 6-cı dağatıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı ələ keçirildi.

Başqa bir döyüşdə işğalçı erməni hərbçiləri ağ bayraq qaldıraraq rəşadətli Azərbaycan əsgərinə təslim oldu.

Milli Ordumuz şərəflə, cəsarətlə, addım-addım, kənd-kənd irəlilədikcə, müstəqilliyimizin rəmzi, müqəddəs and yerimiz olan bayrağımız o yerlərdə yenidən ucaldılır.

Elə dövlət başçısı İlham Əliyev də oktyabrın 3-də keçmiş Madagizin, indiki Suqovuşanın erməni işğalından azad olunması ilə bağlı etdiyi paylaşımda bunu yazmışdı: "Bu gün Azərbaycan ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı".

Milli Qəhrəman Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda erməni əsgərini məhv etdiyi posta da Azərbaycan Bayrağı sancıldı.

Vətənimizin azadlığı uğrunda şəhid olan minlərlə soydaşımızın qanına boyanan, tarixin keşməkeşli yollarından keçib gələn ay-ulduzlu, üçrəngli bayrağımız xalqımızın azadlıq mücadiləsinin, milli kimliyinin, birliyinin, şərəf və ləyaqətinin ifadəsi, hörmət və ehtiramının möhtəşəm ünvanı, qürur, güvənc yerimizdir. Bu bayrağın heç vaxt dəyişməyəcək yeri, məkanı bəllidir - xalqın ürəyi, vətən torpağının ən hündür zirvələri. Bu bayraq bir dəfə yüksəldisə, bir daha enməyəcək...

*Qansa-qan, cansa-can,*
*Yetər ki, sən dalğalan...*

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Biz - Azərbaycan yəhudiləri azərbaycanlı qardaşlarımızla birlikdə Vətənimizi müdafiə edəcəyik!

**Artıq 30 ilə yaxındır ki, Ermənistan silahlı münaqişə törədib və suveren Azərbaycan Respublikasının ərazisinin 20 faizini işğal edib. İşğal dövründə ələ keçirilmiş ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə aparılıb, 1992-ci ildə törədilmiş Xocalı soyqırımı belə etnik təmizləmələrdən biridir.**



1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşkəs haqqında müqavilə bağlanıb və danışıqlar prosesi başlanıb. Danışıqlar 26 il davam edib! Bu illər ərzində Ermənistan Azərbaycana qarşı bir neçə dəfə ciddi hərbi təxribatlar törədib, hətta Azərbaycanın yeni ərazilərini ələ keçirməklə hədələyib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Yəhudi İcmasının müraciətində deyilir: "2020-ci il sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı yenidən təxribat törədib, bu təxribat tərəflər arasında növbəti münaqişəyə çevrilib. Azərbaycanın Yəhudi İcması Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz aktlarını qətiyyətlə pisləyir, dünya birliyini və beynəlxalq təşkilatları qətiyyət nümayiş etdirməyə, Ermənistandan öz qoşunlarını işğal altında olan ərazilərdən çıxarmağı və BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğaldan azad olunması haqqında qətnamələrinin yerinə yetirilməsini tələb etməyə çağırır. Bu cür təcavüzlər beynəlxalq hüququ pozur və iki dövlət arasında silahlı münaqişəni daha da kəskinləşdirir.

Cəzasızlıq nəticəsində Ermənistan qısa müddətdə artıq ikinci dəfə Azərbaycana hücum edir, dinc əhalini hədəf seçir, şəhərləri və kəndləri dağıdır. Sonuncu münaqişənin qurbanları arasında dinc sakinlər, o cümlədən uşaqlar da var.

Bu gün Azərbaycanın hər bir vətəndaşı, dini etiqadından və milliyyətindən asılı olmayaraq Ali Baş Komandan, möhtərəm Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməlidir.

Bu müharibələrin gedişində müxtəlif xalqların və etnik qrupların çoxsaylı nümayəndələri zərər çəkib. Onların arasında Vətən uğrunda canlarından keçmiş yəhudilər, o cümlədən Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov da var.

Biz, Azərbaycanın çoxminlik yəhudi icması qətiyyətlə Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsinə, habelə Ermənistanın Azərbaycana qarşı təxribata və yeni müharibə başlamağa görə cavab verməsinə çağırırıq.

Bizim icma bütün beynəlxalq təşkilatlara, ATƏT-in Minsk qrupuna müraciətlə tələb edir ki, aparıcı beynəlxalq təşkilatlar Ermənistanı beynəlxalq hüquqa riayət etməyə - erməni silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağa çağırsınlar!

Ermənistan çoxdan başa düşməlidir ki, işğal altında olan Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon Azərbaycanın tarixi torpaqlarıdır və heç vaxt Ermənistana məxsus olmayacaq. Azərbaycanın bütün torpaqları işğaldan azad edilməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Biz bütün dünya birliyinə müraciətlə Ermənistanın məsuliyyətə cəlb olunmasını xahiş edirik!

Biz həm də dünya yəhudi ictimaiyyətini Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməyə, beynəlxalq hüququ dəstəkləməyə çağırırıq!

Azərbaycanın çoxminlik yəhudi icması Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması siyasətini bütünlüklə və tamamilə dəstəkləyir.

Biz - Azərbaycan yəhudiləri həmişə Azərbaycan xalqının yanında olmuşuq və olacağıq, azərbaycanlı qardaşlarımızla birlikdə Vətənimizi müdafiə edəcəyik!"

# Biz gəlirik, Qarabağ!

**İllərin həsrətini, könüllərin nisgilini daşlara çırpıb gəlirik, Qarabağ! Ali Baş Komandanın "İrəli" əmri milyonların ürəyində əks-səda verib, bütün türk dünyasında qeyri-adi bir rezonans yaradıb. Qoy başı dumanlı Şuşa dağlarından buludlar çəkilsin, Laçının, Kəlbəcərin, Ağdamın, Qubadlının, Cəbrayılın, Zəngilanın, Xocalının eynəsi açılsın, üzü gülsün.**

Otuz ilin həsrətinə son qoyub gəlirik, Qarabağ! Canımızı, qanımızı fəda edib sənə qovuşmaq eşqindəyik. Bu ilahi eşqin mayası vətən sevgisidi. Vətəni sevməyən insan olmaz... Bu gün səngərdəki əsgərlərimizin atdığı güllələri "Vətən" adlı bir nəğmənin döyüşən misralarına bənzədirik. Bu gün şəhid anası göz yaşlarını silib "Oğulları vətən üçün böyütmüşük, təki Vətən var olsun" deyir. Bu gün bağça uşaqları da körpə barmaqlarını büküb yumruqlarını qaldırıb "Qarabağ bizimdir!" söyləyirlər. Bu gün arxa cəbhədə - neft buruqlarında, fabrik və zavodlarda çalışanlar da, pambıq tarlasında, taxıl zəmisində zəhmət çəkən, tər axıdan ata-analar, bacı-qardaşlar da qazandıqları uğurları Qarabağa həsr edir. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" çağırışını ümumxalq hərəkatına çevirirlər.

Bu gün cəbhədən şad xəbərlər gəlir. Azərbaycan əsgərinin şücaəti, uğurlu döyüş əməliyyatları ürəklərimizdə illərdən bəri qaysaq bağlamış yaralara məlhəm olur. Şuşada yallı gedən, Murov yüksəkliyindəki istehkamdan Azərbaycan ərazilərini qalib kimi seyr edən, bu torpağın gerçək sahibləri qarşısında şərtlər qoyan ermənilər indi hərbi texnikaları döyüş meydanında qoyub qaçır, gizlənməyə yer axtarırlar. Bax, budur Azərbaycan əsgərinin gücü, qüdrəti!

İndi Paşinyanın zəng vurmadığı, dil çıxarıb yalvarmadığı dövlət, nüfuzlu beynəlxalq təşkilat qalmayıb. Erməni yalanı üçün bəzi beynəlxalq qurumlar bəyanatlar qəbul edir, tərəfləri atəşi dayandırmağa, münaqişəni danışıqlar masasında həll etməyə çağırırlar. Soruşmağa haqqımız çatır ki, sülhpərvər cənablar, bəs 30 ildən bəri səsiniz niyə çıxmırdı? Erməni faşistləri Xocalıda körpə uşaqları, ixtiyar qocaları qətlə yetirib soyqırımı törədəndə, kəndlərimizi, şəhərlərimizi, tarixi abidələrimizi, mədəniyyət abidələlərimizi xaraba qoyanda, bir milyon insan doğma ev-eşiyindən perik düşüb qaçqın və məcburi köçkünə çevriləndə siz harada idiniz? Hansı restoranda "Ararat" konyakı vura-vura erməni cəlladlarının törətdiyi əməllərə sağlıq deyirdiniz?

Yetər! Daha keçməz! İndi o zaman deyil! Bu gün bütün Azərbaycan xalqının canından artıq sevdiyi, ətrafında sıx birləşdiyi Ali Baş Komandan İlham Əliyevin sülh üçün yalnız sadə bir şərti var: Ermənistanın silahlı qüvvələri Qarabağdan, bütün Azərbaycan ərazilərindən tamamilə çıxmalıdır. BMT də, ATƏT də, digər beynəlxalq təşkilatlar da niyə bu sadə həqiqəti görməzdən gəlirlər? Axı Azərbaycan əsgəri başqa bir dövlətin yox, öz vətənində öz ərazilərini işğaldan azad etmək üçün döyüşür. Qoy sülh yaratmaq istəyənlər zəhmət çəkib işğalçıya desinlər ki, sənin başqa dövlətin ərazisində nə işin var, sənin apardığın müharibənin məqsədi nədir? Qoy erməni havasına oynayan "sülhməramlı" təşkilatlar boş vədlərlə, yalan sözlərlə, imitasiya xarakterli sülh danışıqları ilə daha bir 30 ilimizi oğurlamasınlar.

Beynəlxalq təzyiqlərə, güclənən təsirlərə müdrik diplomatiya bacarığı ilə cavab verən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin polad iradəsi bu gün Azərbaycan Ordusunun gücünə güc qatır, xalqın Qələbə uğrunda sarsılmaz vəhdətinə güclü stimul yaradır. Xalqda və orduda döyüş ruhunu indiyədək olmayan ən yüksək səviyyəyə qaldırır.

Ordumuz doğma yurdu işğaldan azad etmək, üçrəngli müqqədəs bayrağımızı Şuşada, Laçında, Ağdamda, Kəlbəcərdə... dalğalandırmaq üçün başladığı yürüşünü inamla davam etdirir. Bu müqqədəs savaşda verdiyimiz itkilərə təəssüflənsək də, sarsılmırıq. Bilirik ki, müharibə qansız-qadasız olmur.

Biz gəlirik, Qarabağ! Bağışla bizi, günahlarımızı yumağa gəlirik. Düşməndən intiqam almağa, sənin yaralarına məlhəm olmağa gəlirik. Susuzluqdan dodaqları çat-çat olan bir təşnənin çağlayan dupduru bir bulağa qovuşmaq sevinci gözləyir bizi. Mərd oğullarımızın, qəhrəman Azərbaycan əsgərinin qazanacağı QƏLƏBƏNİ səbirsizliklə və həm də böyük ümidlə gözləyirik.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# "Qələbəyə Dəstək Hərəkatı" əsgərlərimizin yanındadır

**Torpaqlarımızı Ermənistanın işğalından azad etmək üçün başladılan əks-hücum əməliyyatlarını həyata keçirən Azərbaycan Ordusuna dəstək məqsədilə bir qrup iş adamı tərəfindən yaradılmış "Qələbəyə Dəstək Hərəkatı" Təşəbbüs Qrupunun sıraları sürətlə artır.**




İstər iri şirkətlər, istərsə də fərdi sahibkarlar belə bir müqəddəs amal uğrunda yaradılan hərəkata çox həvəslə qoşulur, maddi və mənəvi dəstəklərini göstərirlər.

İş adamlarının "Qələbəyə Dəstək Hərəkatı" bayrağı altında topladıqları ianələr hesabına alınmış müxtəlif adda məhsullardan ibarət 2 yük maşını dolu yardım Beyləqan rayonu ərazisində yerləşən N saylı hərbi hissəyə təhvil verilib. Əsgərlərimizin gündəlik istifadəsi üçün nəzərdə tutulan əşyalar (corab, papaq, isti alt paltarları, əlcək, tibbi ləvazimatlar, dərman preparatları və s. məhsullar) həmin hissədən hərbi maşınlarla birbaşa döyüş bölgəsinə göndərilib.

Xatırladaq ki, sentyabrın 29-da yaradılan "Qələbəyə Dəstək Hərəkatı"na 30-dan artıq şirkət və fərdi sahibkar qoşulub. Təşəbbüs qrupu üzvləri önümüzdəki günlərdə də digər cəbhə bölgələrində döyüşən əsgərlərimizi ziyarət edəcək, onlara öz sovqatını çatdıracaqlar.

Bununla yanaşı, "Qələbəyə Dəstək Hərəkatı" yeni bir kampaniyaya da başlayıb. Belə ki, könüllü şəkildə ordu sıralarına qoşulan əsgərlərimizin ailələrinin yanında olmaq, onların problemləri ilə maraqlanıb həll etmək üçün həmin şəxslərin siyahısı tutulur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Uğurlu əks-hücüm əməliyyatı işğala son qoyacaq!



# Tarix yazan xilaskar ordu

**"Azərbaycan Ordusu Cəbrayılın daha üç kəndini və strateji yüksəklikləri işğaldan azad etdi". Döyüş bölgələrindən gözlədiyimiz qələbə xəbərlərini alırıq. Köksümüz qabarır. Könlümüzə dolan sevinc gözlərimizdə işıq saçır. Uzun illərdi ki, Azərbaycan xalqı bu sevincə təşnədir.**

Müharibə sınaq meydanıdır. Bu meydanda Azərbaycan Ordusunun Ermənistan ordusundan müqayisəyəgəlməz dərəcədə güclü olduğu göz önündədir. Səbəbləri çoxdur. Azərbaycan düşmən ölkədən çox qüdrətlidir. Ermənistanda ağır iqtisadi, siyasi və sosial vəziyyət hökm sürür. Azərbaycan isə bütün sahələrdə yüksək inkişafa nail olub. Ordu quruculuğunda əldə etdiyimiz nailiyyətlər də bu sıradandır. Ancaq bunlar da hələ məsələnin bir hissəsidir. Azərbaycan Ordusunda xidmət edənlər haqqın, ədalətin tərəfində olduqlarına əmindirlər. Bilirlər ki, atəş səslərinə bürünmüş, od-alov yağan bu torpaqlar onların Vətənidir. Bilirlər ki, Ermənistan silahlı qüvvələri tərəfindən otuz ilə yaxın işğal altında saxlanılan ərazilərimizi azad edirlər. Bilirlər ki, Vətəni sevmək onu qorumaqdır, müdafiəsinə qalxmaqdır. Azərbaycan Ordusunun gücü, qüdrəti də bundadır!

Ermənistanın işğal etdiyi müqəddəs torpaqlar çox həsrət çəkdi. Vəfalı övladlarının onu unutmayacağını, bu işğalla heç zaman barışmayacağını bildiyi üçün nisgilli gözlərini yollarımıza dikdi...

Sülhsevər xalqımız, dövlətimiz hər zaman torpaqlarımızın danışıqlar yolu ilə geri qaytarılmasının tərəfdarı olub. Ermənistanın isə uzun illərdi ki, bölgədə münaqişə ocağı yaratması, beynəlxalq hüququn norma və prinsiplərini heçə sayması, təcavüzkar siyasət yürütməkdə davam etməsi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal altında saxlaması, həmin ərazilərdə etnik təmizləmə aparması ilə sülhdən uzaq olduğunu göstərir.

Atəşkəs rejiminin tələblərini pozan Ermənistan silahlı qüvvələrinin həmlələri hər dəfə qəhrəman ordumuz tərəfindən alınıb. Əslində 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun qazandığı qələbə Ermənistan üçün dərs olmalı idi. Ancaq Ermənistan rəhbərliyinin məsuliyyətsiz çıxışları və Ermənistan ordusunun müntəzəm hücumları aydın göstərdi ki, düşmən tərəf məkrli niyyətlərindən əl çəkmək fikrində deyil. Son zamanlar Ermənistanın baş naziri Nikol Paşinyan təhrikedici çıxışları, davranışı ilə bölgədə gərginliyi daha da alovlandırır, ölkəsinin səbəbkarı olduğu münaqişəni danışıqlar yolu ilə həll etmək yerinə yeni sərsəm iddialar irəli sürürdü. Bu ilin 12-16 iyul tarixlərində Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədində mövqelərimizə hücumu, avqustun 23-də Ermənistanın diversiya-kəşfiyyat qrupunun təxribat cəhdi, işğal etdikləri ərazilərimizdə qeyri-qanuni məskunlaşdırma siyasətinin nümayişkaranə şəkildə həyata keçirilməsi və başqa təxribatlarla Ermənistan rəhbərliyi münaqişənin siyasi həllinə zərbə vurdu.

Sentyabrın 27-də səhər Ermənistan silahlı qüvvələri müxtəlif növ silahlardan, eləcə də ağır artileriyadan istifadə edərək bir neçə istiqamətdən yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi atəşə tutdu. Həmin gün Azərbaycan xalqına müraciət edən dövlət başçısı İlham Əliyev vurğuladı ki, bütün beynəlxalq təşkilatlar, bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır: "Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq".

Bu haqla Azərbaycan Ordusu işğalçılara sarsıdıcı zərbələr endirir. Öz Vətənini müdafiə etməkdən, ölkənin ərazi bütövlüyünü qorumaqdan şərəfli nə var ki, bu dünyada? Azərbaycan Silahlı Qüvvələri bu böyük missiyanı həyata keçirirlər. Vətən torpaqlarını erməni işğalından xilas edirlər.

Ermənistan silahlı qüvvələrinə gəlincə, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş komandanı, Prezident İlham Əliyevin onlara verdiyi dəqiq cavabı xatırladaq: "Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Dünyanın bütün ölkələri - görənlər də, özünü görməməzliyə vuranlar da, haqqın, haqlının yanında olduğunu bəyan edənlər də, susan, yaxud yalanlara, iftiralara qoşulanlar da yaxşı bilirlər ki, Azərbaycan Ordusu tarixi torpaqlarından işğalçıları qovur. Ermənistan ordusu isə işğalçılıq siyasətini davam etdirmək niyyətindədir. Azərbaycan Ordusu haqlı mübarizəsində mətanət, rəşadət göstərir, öz şərəfli adını uca tutaraq düşmən təxribatına uymur, yalnız döyüş gedən ərazilərdə müharibə aparır. Ermənistan silahlı qüvvələri isə beynəlxalq humanitar hüququ və Cenevrə Konvensiyasını kobud şəkildə pozaraq məqsədli şəkildə Azərbaycanın mülki əhalisini atəşə tutur. Naftalan, Bərdə, Tərtər, Şəmkir və başqa şəhərlər Ermənistan silahlı qüvvələrinin artilleriya və raket atəşinə məruz qalıb. Azərbaycanın ikinci ən böyük şəhəri Gəncə, xüsusi strateji infrastrukturun yerləşdiyi Mingəçevir, Abşeron və Xızı rayonları raket atəşinə tutulub. Raket atəşləri Ermənistana məxsus Vardenis, Gorus, Berd və digər ərazilərdən atılır. Ermənistan silahlı qüvvələrinin atəşləri nəticəsində sentyabrın 27-dən bəri 25 mülki şəxs qətlə yetirilib, 121 mülki şəxs xəsarət alıb, 300-dən çox mülki infrastruktur dağıdılıb.

Ermənistan öz gücünə arxalanmadığından hər vasitəyə əl atır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bildirib: "Açıq mənbələrdə Yaxın Şərqdə terror qruplarının tərkibində döyüşmüş terrorçuların da Ermənistan tərəfindən döyüşə qatıldığı haqda məlumat yayılıb. Son zamanlar Ermənistan diaspor təşkilatları vasitəsilə xaricdə yaşayan ermənilərin müəyyən vəsait qarşılığında toplanılaraq döyüşmək üçün Ermənistana gətirilməsi haqda məlumatlar var. Hazırda Ermənistan və erməni diaspor təşkilatları Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş terror aktlarına görə beynəlxalq məsuliyyət daşıyırlar. Həmçinin öz vətəndaşlarının Ermənistana gələrək orada döyüşlərdə iştirak etməsinə şərait yaradan digər dövlətlər də əslində məsuliyyət daşıyırlar".

İşğalçı Ermənistan cinayətkar xislətindən əl çəkmir. Ancaq məğlubiyyətə uğrayacağı özünə də bəllidir. Azərbaycan Ordusu qələbə tariximizə hər gün yeni səhifə yazır, hər gün bizi qələbəyə yaxınlaşdırır.

Bu günlər yuxularımız çin, xəyallarımız həqiqət, ümidlərimiz gerçək olur. Azərbaycan Ordusu zəfərlə irəliləyir. Qarşıda yolumuzu gözləyən Füzuli, Ağdam, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Xankəndi, Şuşa... var. Yəqin onlar da bizim qədər həyəcanlıdırlar, çünki müzəffər Azərbaycan Ordusunun ayaq səslərini eşidirlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Daha bizə köçkün deməyin

## Və ya Qarabağ həsrətli sonuncu yazı



## *Bütün qaçqın, məcburi köçkün və müharibə uşaqlarının adından...*

*Könül, eylə ürəyini saf-çürük,*
*Bu dağlardan ayrı keçən ömür yük.*
*Bir yer versin balasına ömürlük,*
*İstəmirəm qonaq olam dağlara...*

Hələ köçkünlüyün ilk illərindəydik, ürəklərdəki ağrı-acılar yeni, didərgin düşdüyümüz ellərə dönmə ümidiysə təptəzəydi...

Barışa bilmirdik indi yaşadığımız bu taleylə...

Oyunsuz, oyuncaqsız, gülüşsüz, sevincsiz həyatla...

Ağrı-acılı həyat mənzərəmiz çörək təknələrindən yığılmayan uşaq gözləri, su üçün titrəyən körpə dodaqları idi...

Yazmağa dəftər-qələm, oxumağa kitab tapmayanda məktəbdən, geyinməyə ayaqqabı, paltar tapmayanda valideynlərimizdən küsən məcburi köçkün uşaqları idik, yaman oxşayırdıq bir-birimizə. Alın yazımızla, çətinliklərimizlə, çadırdan olan evlərimizlə...

Bir də əsirlikdən gəlmiş xocalılı uşaqlar var idi və onların küsəcəkləri kimsələri belə yox idi...

Hə, bir də "öləndə məni doğulduğum o torpağa tapşırarsınız..." deyə duyduğumuz ürəkparçalayan vəsiyyət pıçıltıları vardı. Bütün məcburi köçkün oğulların, qızların, nəvələrin babalara, nənələrə, analara, atalara göstərəcəkləri son borc nidası...

Günlər, aylar keçir, illər illərə calanır və boynumuzdakı həmin o son borclar qalaqlanaraq belimizi bükür, ürəyimizə çalın-çarpaz dağ çəkirdi...

Heç nə edə bilmirdik...

### Vaxt ötdükcə küskün ruhlar çoxalırdı...

Vaxt ötdükcə küskün ruhlar da çoxalırdı...

Və elə həmin günlərin birində babamın da son ünvanı Kəlbəcər olmadı. Hündür təpənin üzərindəki qədim qəbiristanlıqda tənha bir məzar qazıldı onun üçün...

Doğulduğu torpağa qovuşmaq intizarlı cana məkan olan, qərib bir məzar...

Babam rəhmətə gedəndə atam mənim indiki yaşımdaydı. Dağ kimi məğrurdu, əyilməzdi, ağlamazdı...

O günsə gözlərinə ömürlük bir ələm həkk olundu. Çiyinlərinə böyük bir yük götürmüşdü. Dağdan ağır bir söz vermişdi...

Qəlbində min tərəddüd, beynində min sual...

Görəsən bu müqəddəs sözü yerinə yetirməyi tale nəsibinə yazmışdımı?!"

Əfsus...

### Yaman artmışdı buradakı qərib məzarların sayı...

Zaman amansızca qamçıladığı köhlən atına sıçrayıb sürətlə sonsuzluğa doğru çapırdı...

Sazağı iliklərə işləyən bir zimistan günüydü. Üzərini bəyaz qar örtmüş qıvrım yollarla qara bir kölgə sürünürdü...

Oğullar çiynində ata tabutu daşıyırdı. Nə yazıq ki, bu tabutun da üz tutduğu ünvan doğma yurda deyildi...

Qarın lopa-lopa yağdığı hündür təpənin üzərində bir məzar qazılmışdı onun üçün. Amma indi həmin məzar tənha deyildi. Yaman çoxalmışdı buradakı qərib məzarların sayı...

### Ən böyük arzumuz, son istəyimiz...

Beləcə, qulağımız səsdə, gözümüz yolda, ürəyimiz həsrətdə zaman girdabında çapalayırdıq...

Biz məcburi köşkün uşaqları bir də gördük vəfasız ömrün çoxu gedib...

Bir də ayıldıq ki, indi növbə bizə çatır, o qorxduğumuz sona, istəmədiyimiz qərib məzarlara sakin olmağa yollanacağıq...

Biz də yarandıqları torpağa qarışa bilməyən canların sərgərdan ruhlar karvanına qoşulacağıq...

Eh, kimsə bilməz məcburi köçkünlərin qismətinə düşən bu zalım yazını.

Xəyalımızdan çıxmırdı Qarabağ! Gözlərimiz o dağlara bənzər dağlar, yaylaqlara bənzər yaylaq axtarırdı.

Xankəndini, Xocalını, Şuşanı, Laçını, Kəlbəcəri, Ağdamı, Füzulini, Zəngilanı, Cəbrayılı, Qubadlını sonuncu dəfə görmədən bu həyatı tərk etmək istəmirdik...

Ən böyük arzumuz, son istəyimiz o dağların zirvəsindən bircə dəfə doğma yurdumuza baxmaq, doğulduğumuz o torpağa qovuşmaqdı...

### O qaçqın köçləri böyük qayıdış karvanı ilə vətənə dönəcək

Və bir payız günündə...

Ümidlərimiz birdən birə işarmağa, parlamağa, şəfəq saçmağa başladı...

30 ilin o tayından həsrətlə boylanan hüznlü arzularımız bir andaca dirçəldi, sevincli yaşam hayqırtılarına çevrildi...

Xəyalmıydı, yuxumuydu, gerçəklikmi...

"Şükür sənə, İlahi, bu günləri görmədən, Qarabağın azadlıq sədalarını eşitmədən bizə ölməyi nəsib etmədin!" deyən yüz minlərlə insanın sevinc göz yaşları selə döndü...

Qarabağdan qanadlanıb qulağımızda nəğməyə çevrilən qələbə müjdələri qəlbimizə abu-həyat saçdı, bu şad xəbər qaçqınların, məcburi köçkünlərin dirçəliş marşına çevrildi.

Ana yurdumuzdan şanlı Azərbaycan Ordusunun zəfər hayqırtıları gəlir, zirvəsi göylərlə yarışan zirvələrimizdə, Murovda ay-ulduzlu üçrəngli müqəddəs bayraqlarımız dalğalanır...

Budur, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqımıza Suqovuşanın, Cəbrayılın azadlığını müjdələyir, bir andaca vətəndə qəribçilikdən qurtuluruq...

İndi isə növbə Murovdan və digər işğala məruz qalan yurdlarımızdan keçən qaçqın köçlərinin böyük qayıdış karvanı ilə vətənə dönəcəyi, qərib, didərgin ruhların da əbədi rahatlıqlarına qovuşacaqları müqəddəs anındır...

Yaman günün ömrü az olar, demişlər. Amma bu "yaman gün" yaman çox çəkdi!

İndi yuxu kimi gələn həmin günlərdən bizə "məcburi köçkün" adı qalıb...

Bu addan nə qədər xoşumuz gəlməsə də belə...

Ali Baş Komandan və onun müzəffər ordusu qələbələri ilə bu ada da son qoyur!

Xoşumuz gəlməyən məcburi köçkün adına.

Daha bizə məcburi köçkün deməyin!

Biz qalib Azərbaycan vətəndaşlarıyıq!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Kəlbəcərlilər ata-baba yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər

**Artıq 30 ildir ki, Azərbaycan xalqının gözlədiyi gün gəlib çatmışdır. Sentyabrın 27-də başlamış əks-hücum əməliyyatları nəticəsində ordumuz respublikamızın ərazi bütövlüyünü təmin etmək uğrunda gərgin döyüşlər aparır.**



*Musa Əziz*



*Umud Nəsibov*



*Sərdar Heydərov*



*Teymurxan Əliyev*

Döyüşlər nəticəsində işğal altında olan torpaqlarımızın bir hissəsi, o cümlədən strateji yüksəkliklər azad olunur. Düşmənin xeyli canlı qüvvəsi və döyüş texnikası məhv edilmiş, mühəndis-istehkamları dağıdılır.

Yurd yerlərimizin işğaldan azad olunması uğrunda gedən döyüşlərdə Azərbaycan Ordusunun qazandığı uğurlar Ermənistanı daha da aqressivləşdirmişdir. Bu uğursuzluğu ört-basdır etmək üçün indi düşmən daha çox mülki əhalini hədəfə alır. Artıq bir neçə gündür ki, cəbhə bölgəsindən xeyli uzaqda olan Gəncə, Bərdə, Mingəçevir, Tərtər, hətta Xızı və Abşeron rayonları bombalanır. Nəticədə mülki şəxslər həyatını itirir, yaralanır, evlərə və sosial obyektlərə ziyan dəyir. Lakin əhalimiz əmindir ki, bu cinayətlər, vandalizm və vəhşiliyə görə düşmən cəzalandırılacaq. Dövlət başçısının iradəsi və qətiyyəti, eləcə də xalqla hakimiyyətin həmrəyliyi, insanların yüksək ruh yüksəkliyi və qələbəyə böyük inamı sayəsində düşmən torpaqlarımızdan qovulacaq, Azərbaycanın ərazi bütövlüyü təmin ediləcəkdir.

Gəncədəki qaçqın şəhərciyində məskunlaşan kəlbəcərlilər də həmin günü böyük həsrətlə gözləyirlər. Onlarla görüşüb söhbət edərkən bunun bir daha şahidi olduq. Musa Əziz ömrünün ahıl çağını yaşayır. Uzun illər müəllim, sonralar jurnalist kimi fəaliyyət göstərib. Kəlbəcərin Başlıbel kəndindəndir. Deyir ki, kəndin 1000 nəfər əhalisi, 1700 hektar əkin sahəsi var idi. İnsanlar olduqca işgüzar idi. Hamı halal zəhməti ilə özünə ev-eşik qurmuşdu. Çörəyini halal zəhmətdən çıxaran kənd əhalisi nə biləydi ki, ermənilər onların həyatını göy əskiyə bükəcəklər.

Keçmiş həmkarımız 20 ilə yaxın Gəncədə heç bir şəraiti olmayan tələbə yataqxanasında məskunlaşmışdır. Deyir ki, var olsun dövlətimiz. Qaçqın və məcburi köçkünlər üçün salınan qəsəbədə evlə təmin olunub. Hələ üstəlik oğluna, bacısına da bu qəsəbədə ev verilib. Lakin 28 ildir ki, yurd həsrəti onu tərk etmir. Bildirir ki, şəraiti nə qədər yaxşı olsa da, ata-baba ocağının həsrətini çəkir. Hər gün Kəlbəcəri yuxuda görən Musa Əzizin indi sevinci hədsizdir. Artıq ordumuz Murovdağ yüksəkliyini ələ keçirib və həmin ərazilərə nəzarət edir. O, yaxın vaxtlarda Kəlbəcərə qayıdacağı günü gözləyir.

Umud Nəsibov isə 90-cı illərdə Kəlbəcərin müdafiəsi ilə bağlı yaradılan batalyonda vuruşub. Ancaq qeyri-bərabər döyüşlərdə rayonu tərk etməyə məcbur olub. O, 6 nəfər ailə üzvü ilə Gəncəyə pənah gətirib. 20 ilə yaxın əzab-əziyyət içərisində yaşayıb. 2014-cü ildə Gəncədə salınan məcburi köçkün şəhərciyində evlə təmin olunub. Hazırda təqaüddədir. Kəlbəcər uğrunda gedən döyüşlərdə bacısı İmarət Məmmədovanın iki oğlu ilə birlikdə ermənilərə əsir düşdüyünü deyən həmsöhbətim sonralar onlardan birinin düşmən tərəfindən vəhşicəsinə qətlə yetirildiyini, digərinin isə bacısı ilə birlikdə azad olunduğunu bildirdi.

Sərdar Heydərov da Kəlbəcər şəhərində yaşayırdı. Dediyinə görə, halal əməyi ilə özünə yaxşı ev tikdirmişdi. Rayonun Kənd Təsərrüfatı İdarəsində işləyirdi. Ermənilərlə döyüşlər zamanı o da məcbur olub 5 nəfər ailə üzvü ilə rayonu tərk etmiş, Gəncədəki tələbə yataqxanalarının birində məskunlaşmışdı. Sonra ona qaçqın şəhərciyində üçotaqlı mənzil verilib. İndi Sərdar və ailə üzvləri sevinc içərisindədirlər. Ordumuzun Qarabağ uğrunda gedən müharibədə böyük uğurlar qazanması onlarda doğma yurda qayıtmaq əminliyini daha da artırıb. Hazırda oğlu Səxavət Azərbaycan Ordusu sıralarında bu əminliyi gerçəkləşdirmək üçün Qarabağda savaşdadır.

Teymurxan Əliyev Kəlbəcərin Cəmilli kəndinin sakinidir. Yaxşı ev-eşiyi, bağı-bağçası olub. Hər il həyətində yetişdirdiyi meyvələri satmaqla xeyli gəlir əldə edib: "Uzun illər ermənilərlə dostluq etmişik. Ancaq sonralar başa düşmüşük ki, onlar nə qədər qəddar və hiyləgərdirlər. 90-cı illərdə Kəlbəcərə hücum edəndə gördük ki, silahlı dəstələr arasında vaxtilə salam verdiyimiz ermənilər də var. Başa düşdük ki, onlar yağlı dilləri ilə bizi həmişə aldadıblar".

Beş nəfər ailə üzvü ilə doğma ocağından didərgin düşən Teymurxan da 20 illik məşəqqətli günlərdən sonra ağ günə çıxıb. 2014-cü ildə ona da bu qəsəbədə mənzil verilib. İndi təqaüddədir. Deyir ki, bu günlər sevincinin həddi-hüdudu yoxdur. Tezliklə ata-baba yurduna qayıdacağı günü gözləyir: "Canım hələ möhkəmdir. Kəlbəcərə qayıdanda yenə əkin-biçinlə məşğul olacağam".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İlham ƏLİYEV: "Cəbrayıl bizimdir!"

# Cəbrayıl atanın övladları yurda dönürlər



Bu günlər şanlı Azərbaycan Ordusu ölkəmizin tarixində şərəfli səhifə yazır. Uzun illər düşmən tapdağı altında qalmış yurd yerlərimiz Silahlı Qüvvələrimizin zəfər yürüşünün gedişində azadlığa qovuşur, əsl sahibinə qayıdır. Erməni silahlı birləşmələrinin cəbhə xəttində davamlı olaraq törətdiyi təxribatlara son qoymaq məqsədilə qəhrəman ordumuz ötən ayın 27-də bütün cəbhə boyu əks-hücum əməliyyatına start verib, işğal altında olan yaşayış məntəqələrini bir-birinin ardınca düşməndən təmizləməyə başladı.

Cəbhənin bütün istiqamətlərində olduğu kimi, Füzuli-Cəbrayıl istiqamətində də şiddətli döyüşlər davam edir. Ard-arda qələbə xəbərləri gəlir. Erməni silahlı birləşmələri Azərbaycan əsgərindən sarsıdıcı zərbələr alaraq canlı qüvvə və hərbi texnika sarıdan ağır tələfat verib geri çəkilir. Düşmən artıq onlarca yaşayış məntəqəsindən çıxmaq məcburiyyətində qalmış, azad nəfəs alan obalarda ay-ulduzlu bayrağımız yenidən dalğalanmağa başlamışdır. Sevindirici haldır ki, qoşunlarımız irəliləyərək böyük strateji əhəmiyyət kəsb edən iri yaşayış məntəqələrini, ilk növbədə şəhərləri düşməndən təmizləyir.

Nəhayət, çoxdan gözlənilən şad xəbər oktyabrın 4-də gəldi: Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Aşağı Qarabağda rayon mərkəzlərindən birinin - Cəbrayıl şəhərinin və rayonun bir neçə kəndinin düşmən tapdağından qurtulduğunu elan etdi. Xalqımızın, xüsusilə cəbrayıllıların sevinci hədsizdir. Hamı bir-birini təbrik edir, gözaydınlığı verir, Cəbrayıl torpağına qədəm basmaq üçün günləri yox, saatları sayır...

## Çinar həsrəti 27 ildən sonra bitdi

Cəbrayılın qurtuluş gününü görmək üçün nə az-nə çox - düz 27 il gözləmək lazım gəldi. Bir igidin ömrüdür. Ötən illər ərzində yurd-yuvalarından didərgin düşmüş rayon sakinlərinin gözlərində yalnız bir sual oxunurdu: Cəbrayıla nə vaxt qayıdacağıq, Xan çinarı bir daha görə biləcəyikmi, onun dibindən axan məlhəm kimi kəhriz suyundan yenə də içəcəyikmi?

Yaşı 850 ildən çox olan Xan çinar Cəbrayılın rəmzi idi. Şəhərin mərkəzində ucalan bu təbiət abidəsi neçə-neçə şeirlərin, mahnıların mövzusu olmuşdu. Çinar kəhrizinin suyunu bundan sonra vəhşiləşmiş yadellilər yox, onun əsl sahibləri içəcəklər. Əldə olan məlumata görə, erməni faşistləri Cəbrayılın təbiətinə, o cümlədən Xan çinara divan tutmuşlar. Neyləmək olar, erməni kimi abrı-həyası, elementar adamlığı olmayan düşməndən nə gözləyəcəkdik?! Bu torpaq hələ çox Xan çinarlar bitirəcək - təki torpağın həqiqi yiyəsi gəlib çıxsın!

Beləcə həsrət dolu uzun zamandan sonra qədim yurdlarımızdan birinin övladları ev-eşiklərinə dönürlər. Bu torpaqda erməni işğalçılarının izi-tozu qalmayacaq. Bu ərazinin adını daşıyan Cəbrayıl atanın ruhu şad olacaq.

Yeri gəlmişkən, rayonun adı və tarixi bilavasitə Azərbaycan türkləri ilə bağlıdır. Tarixi məlumata görə, Cəbrayıl rayonunun adı rayonun mərkəzi olan Cəbrayıl kəndinin adından götürülmüşdür. Bu kəndin əsasını qoymuş Cəbrayıl ata VIII əsrdə yaşamışdır. Ziyarat dağından Araz çayına qədər ərazilər Cəbrayıl ataya və onun övladlarına məxsus idi. Atanın övladları burada əsrlər boyu yaşayıb kənd və qəsəbələr salmış, əsasən əkin-biçin və heyvandarlıqla məşğul olmuşlar. Toplanmış etnoqrafik məlumatlar sübut edir ki, Cəbrayıl atanın Mirzəcan, Yarəhməd, Şahvələd, Qurban, Hasan, Bünyad, Maşan, Xubyar və Xələf adlı oğlanları olmuş və onların adları ilə kəndlər salınmışdır. Rayonun indiki Mirzəcanlı, Yarəhmədli, Şahvələdli, Hasanlı, Maşanlı, Xələfli, Xubyarlı, Qurbantəpə və s. kəndləri Cəbrayıl atanın oğullarının adları ilə adlandırılmışdır.

Cəbrayıl şəhərinin şimalında "Cəbrayıl ata" adı ilə məşhur olan məqbərə işğala qədər dururdu. Məqbərənin uzunluğu 4,5 metr, eni 2,4 metr, hündürlüyü 1,8 metrdir. Burada məzar və qədim yaşayış yerlərinin izləri də qalırdı.

Cəbrayıl rayonu təkcə Xan çinarla tanınmırdı. Rayonun ərazisində yaşı 400-500 olan 14 iridiametrli çinar ağacı, 104 kəhriz və 99 bulaq vardı. Rayonun başqa bir rəmzi məşhur Xudafərin körpüləridir. Vahid Azərbaycanın rəmzi olan iki körpüdən biri işğaldan əvvəl işlək idi və qonşu İranla ticarətdə mühüm rol oynayırdı.

Cəbrayıl həm də Aşıq Qurbaninin yurdudur. Ulu ozanın vaxtilə Diridağda vəsf etdiyi bənövşənin boynu bundan sonra bəlkə də əyri deyil, düz olacaq: bənövşə bir daha yağı baxışına tuş gəlməyəcək!

Ən əsası odur ki, cəbrayıllılar bundan sonra rayonun işğalı gününü ağrı-acı içində qeyd etməyəcəklər. Onlar başqa bir tarixi - 4 oktyabr 2020-ci ili, zəfər gününü bayram edəcəklər! O gün Cəbrayılda sevincin, fərəhin hədd-hüdudu olmayacaq.

## İşğal Cəbrayıla baha başa gəlib

Birinci Qarabağ müharibəsinin gedişində Cəbrayıl əhalisi uzun müddət erməni işğalçılarına qarşı rəşadətlə vuruşmuşdur. İşğala qədər rayonun ərazisi tam mühafizə olunmuş, üstəlik, qonşu Xocavənd rayonunun erməni işğalında olan bir sıra kəndləri polis işçilərinin və yerli əhalinin iştirakı ilə Silahlı Qüvvələr tərəfindən azad olunmuşdu. Ümumilikdə, Xocavənd rayonunun Cəbrayıl rayonu ilə qonşu olan 15 kəndi düşməndən təmizlənmiş, onların bəzilərinə Ermənistan ərazisindən deportasiya edilmiş soydaşlarımız yerləşdirilmişdilər.

Amma məlum olduğu kimi, Gəncə qiyamı nəticəsində Azərbaycan Ordusunun döyüş qabiliyyəti sarsılmış, bunun nəticəsində Ağdam rayonu işğal olunmuş, Cəbrayıl və Füzuli rayonlarının işğalı üçün zəmin yaranmışdı. 1993-cü ilin avqust ayı ərzində Cəbrayıl rayonunun ərazisində fövqəladə vəziyyət elan edilmiş, erməni təcavüzkarları 1992-ci ilin yayında işğaldan azad edilmiş Xocavənd rayonunun kəndlərini yenidən zəbt edərək Cəbrayıl şəhərinə yaxınlaşmışdı. Avqust ayı ərzində Cəbrayıl şəhəri güclü atəşə tutulmuş, düşmənin atdığı "Qrad" mərmiləri şəhərin bir çox yerlərinə zərər vurmuş, əhali arasında ölənlər olmuşdur.

Avqustun 18-də erməni işğalçıları şəhəri mühasirəyə almışdılar. Özünümüdafiə qüvvələrinin şiddətli müqavimətinə baxmayaraq, Cəbrayıl şəhəri avqustun 23-də işğal olunmuşdu.



### Tarixi məlumat




İndiki Cəbrayıl rayonunun tarixi qədimlərə gedib çıxır. Tarixi mənbələrə görə, rayonun ərazisi Midiya (miladdan əvvəl VII-IV əsrlər), Əhəmənilər imperiyasının (miladdan əvvəl IV-III əsrlər), Albaniya (miladdan əvvəl IV -III əsrlər) dövlətlərinin tərkibində olmuşdur. Albaniya dövlətinin mövcudluğu zamanı rayonun ərazisi Pazkank, Əhristan və Dizaq adları ilə həmin dövlətin tərkibində olmuşdur. III-V əsrlərdə Dizaq mahalı Sasanilər tərəfindən işğal edilmişdir. Xalq həyəcanından qorxan Sasanilər, nəhayət, Albaniyaya müstəqillik vermişlər. VII əsrin ortalarında Cəbrayıl rayonunun ərazisi də Əməvilər xilafətinin tərkibinə qatılmışdır. X-XI əsrlərdə (971-1086-cı illər) bu ərazi Şəddadilər, XIII-XIV əsrlərdə Humanilər, XIV əsrdən (1387-ci ildən) Teymurilər, XV əsrdən (1412-ci ildən) Qaraqoyunlu, 1478-ci ildən Ağqoyunlu, 1502-ci ilin əvvəlindən Səfəvilər dövlətlərinin, XVIII əsrin ikinci yarısında və XIX əsrin əvvəllərində Qarabağ xanlığının tərkibində olmuşdur.

XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Cəbrayıl kəndinə "Qraxdın" da deyilirdi. Deyilənlərə görə, bu, 1831-ci ildə rayonun Daşkəsən kəndində "Karantin" idarəsinin yaradılması və həmin idarənin Cəbrayıl kəndinə köçürülməsi ilə bağlıdır. Yerli əhali "Karantin" sözünü "Qraxdın" kimi tələffüz edirmiş. Bəzi mənbələrə görə isə, "Qraxdın" sözü XVIII əsrdə Nadir şahın hakimiyyəti dövründə Azərbaycana köçmüş Cəlair türk qəbiləsinə mənsub olan Qıraqlı-Qıraxlı nəslinin adı ilə əlaqədardır.

1841-ci ildə Cəbrayıl ərazisi mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinin, 1846-cı ildə isə Şuşa qəzasının tabeliyinə verilmişdir. Cəbrayıl baramaçılıq, xalçaçılıq ilə məşhur idi. Qəzada beş ipək fabriki olmuşdur. 1873-cü ildə Cəbrayıl və ona qonşu olan ərazilər Şuşa qəzasının tərkibindən çıxarılaraq Yelizavetpol (Gəncə) quberniyasının tərkibində Cəbrayıl qəzası yaradılmışdır. O vaxt qəzanın ərazisi 6,63 min kvadratkilometr, əhalisi 66360 nəfər olmaqla, indiki Cəbrayıl, Füzuli, Xocavənd, Qubadlı və Zəngilan rayonlarının ərazisini əhatə edirdi. 1905-1918-ci illərdə qəza Qaryagin qəzası adlandırılmışdır.

1930-cu il avqustun 8-də mərkəzi Cəbrayıl kəndi olmaqla, Cəbrayıl rayonu təşkil edilmişdir. Həmin vaxt rayonun indiki hüdudları daxilində sahəsi 1050 kvadratkilometr, əhalisi 24300 nəfər olmuşdur.

Cəbrayıl şəhəri Birinci Qarabağ müharibəsinin gedişində 1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu.





Cəbrayılın işğalı əhaliyə baha başa gəlmişdir. Düşmən rayonun 1 şəhərini, 4 qəsəbəsini və 92 kəndini talan edərək yandırmış, 132-dən çox yerli əhəmiyyətli tarixi, maddi-mədəni və dini abidəsini dağıtmışdır. Bununla bərabər, ərazidəki 13147 fərdi yaşayış evi, 886 ictimai bina, 8 sənaye, 44 kənd təsərrüfatı, 149 mədəniyyət, 91 təhsil, 1 məktəbdənkənar müəssisə, 3 uşaq musiqi məktəbi, 1 texniki peşə məktəbi, 77 səhiyyə, 96 məişət xidməti obyekti, 65 rabitə, 56 körpü, 28 su anbarı, 32 nasos stansiyası, 65 kilometr qaz kəməri, 11 tikinti müəssisəsi düşmənin əlinə keçmişdi. Əhalinin şəxsi təsərrüfatlarında olmuş 26 min başdan çox iribuynuzlu, 53224 başdan çox xırdabuynuzlu heyvan qarət edilmişdir.

1988-ci ildən 1990-cı ilədək erməni qəsbkarlarına qarşı mərdliklə döyüşən Cəbrayıl sakinlərinin 400-ə yaxını şəhid olmuşdur. Onların 13-ü yetkinlik yaşına çatmayanlar idi. Döyüşlər zamanı 8 uşaq müharibədə hər iki valideynini, 207 uşaq isə valideynlərindən birini itirmişdir. Torpaqların müdafiəsində qəhrəmanlıq göstərmiş rayon sakinlərindən 6 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. İşğal nəticəsində rayonun 52604 (hazırda 80032) sakini ata-baba yurdlarından didərgin düşərək məcburi köçkün kimi ölkənin 54 şəhər və rayonunda müvəqqəti məskunlaşmışdır.

## Böyük qayıdış Cocuq Mərcanlıdan başladı

Silahlı Qüvvələrimiz 1994-cü il Horadiz əməliyyatının gedişində Cəbrayıl rayonunu erməni qəsbkarlarının caynağından qurtarmağa cəhd göstərmişdi. Ordumuz rayon mərkəzi və Xudafərin körpüləri istiqamətində irəliləsə də, yalnız Cocuq Mərcanlı kəndini azad etmək mümkün olmuşdu. Kəndin ətrafında strateji yüksəkliklər, xüsusilə Lələtəpə düşmənin əlində olduğundn əhalini geri qaytarmaq mümkün deyildi. Yalnız ordumuz 2016-cı ilin aprelində dördgünlük müharibə zamanı Lələtəpə yüksəkliyini ələ keçirdikdən sonra Cocuq Mərcanlı sakinlərini təhlükəsiz şəraitdə kəndə qaytarmaq üçün imkan yarandı.

Prezident İlham Əliyevin 24 yanvar 2017-ci il tarixli sərəncamına əsasən, işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində birinci mərhələdə 50 ev, 96 şagird yerlik məktəb, məscid, 35/10 kilovoltluq elektrik yarımstansiyası, hidrometereoloji stansiya, "Azəravtoyol" ASC-nin xüsusi təyinatlı yol istismar müəssisəsi və digər infrastrukturlar tikilərək istifadəyə verilmiş, kəndə 9 kilometrlik asfalt örtüklü yol çəkilmişdir. Həmin il iyunun 14-də dövlət başçısı kəndin bərpadan sonra açılışında iştirak etmişdir.

Bundan sonra Prezident İlham Əliyevin "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" 15 iyun 2017-ci il tarixli sərəncamına əsasən, Cocuq Mərcanlıda 100 fərdi yaşayış evi, uşaq bağçası, həkim məntəqəsi, klub-icma mərkəzi, poçt, inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası və digər zəruri sosial infrastruktur obyektlərinin tikintisi tamamilə başa çatdırılmışdır. 2018-ci il mayın 30-dan etibarən sakinlərin kəndə köçürülməsi başlamışdır. Dövlət başçısının "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi tədbirləri haqqında" 13 sentyabr 2017-ci il tarixli sərəncamına əsasən, su çəkilişi layihəsi üzrə əsas işlər tamamilə başa çatdırılmışdır.

Beləliklə, Cocuq Mərcanlının bərpası və məskunlaşdırılması Cəbrayıl rayonuna böyük qayıdışın başlanğıcı oldu. Ardınca rayon ərazisində infrasrukturun, yaşayış məntəqələrinin bərpası istiqamətində genişmiqyaslı işlər görüləcək.

## Cəbrayılı gözəl günlər gözləyir

Yenicə işğaldan qurtulmuş Cəbrayıl şəhərinin və rayonun kəndlərinin tarixində yeni dövr başlayır. Qarşıda erməni vandallarının darmadağın etdiyi yurd yerlərini bərpa etmək kimi məsul vəzifə durur. İstər mərkəzi və yerli hakimiyyət orqanları, istərsə də yerli əhali bu işin məsuliyyətini yaxşı dərk edir. İkinci Qarabağ müharibəsi davam edir, düşməni işğal olunmuş torpaqlardan tamamilə vurub çıxarmaq üçün hələ xeyli vaxt lazımdır. Ona görə də bir qədər gözləmək lazımdır ki, Azərbaycan əsgəri müqəddəs missiyasını başa çatdırsın.

Məlum məsələdir ki, əvvəlcə torpaqlarımız düşməndən tamamilə azad edilməli, ərazi minalardan təmizlənməli, sonra isə bərpa prosesi başlamalıdır. Dövlət rəhbərliyi işğal altında olan ərazilərimizin gec-tez düşməndən tamamilə təmizlənəcəyini nəzərə alaraq böyük qayıdış planını çoxdan hazırlayırdı. Odur ki, hələ tələsməyin yeri yoxdur.

Ən əsası, xalqımız xoş əhvali-ruhiyyədədir. Ordumuzun qələbələrinin ardı-arası kəsilmir. Düşmənin müqaviməti qırılmaq üzrədir. İşğalçılar havadarlarından gözlədikləri dəstəyi ala bilmirlər. Təcavüzkarların zəbt etdikləri torpaqlarımızda cızdıqları mənfur planlar Azərbaycan əsgərinin zərbəsi ilə puça çıxmışdır. Ordumuz yalnız irəli gedir, düşmənə layiq olduğu cəzanı verir.

İndi hamı nikbindir. Hər kəs əmindir ki, Silahlı Qüvvələrimizin həyata keçirdiyi əks-hücum əməliyyatı böyük zəfərlə başa çatacaq, Qarabağın hər guşəsində müqəddəs bayrağımız qaldırılacaq. Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov deyir ki, rayonu gözəl günlər gözləyir:

- Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Cəbrayıl şəhərinin və rayonunun bir sıra kəndlərinin azad edilməsi münasibətilə Cəbrayıl əhalisini təbrik etməsi bütün cəbrayıllıların qəlbini qürur hissi ilə doldurmuşdur. Bu, bir daha vaxtilə Ulu Öndər Heydər Əliyevin ictimaiyyət qarşısında çıxışı zamanı dediyi "Vaxt lazımdır, torpaqlarımız işğaldan azad olunacaq, yağı tapdağında qalmayacaq" fikrinin öz yerini aldığını göstərdi. Ümummilli Liderin dahiyanə uzaqgörənliklə söylədiyi fikir bu gün şanlı ordumuzun rəşadəti sayəsində reallığa çevrilir. Silahlı Qüvvələrimiz zəfər yürüşünü davam etdirir. Biz bu döyüşlərdə xalqımızın, ordumuzun və Ali Baş Komandanımızın sarsılmaz birliyi sayəsində qazanılan qələbələrin şahidiyik. İnanırıq ki, Ali Baş Komandanın rəhbərliyi altında qoşunlarımızın əks-hücum əməliyyatı işğal altındakı bütün torpaqlarımızın azad olunması ilə nəticələnəcək. Üçrəngli bayrağımız Şuşada, Xankəndidə, Ağdamda, Kəlbəcərdə, Laçında və digər şəhərlərimizdə dalğalanacaq.

Rayon icra hakimiyyətinin başçısı xatırlatdı ki, əslində Cəbrayıla qayıdış üç il əvvəl Cocuq Mərcanlı kəndinin əhalisinin ev-eşiyinə qayıtması ilə başlamışdır:

- O vaxt Cocuq Mərcanlı doğma Cəbraylımızın üzünə, bütövlükdə isə Qarabağımıza açılan şanlı qələbə qapısı oldu. Cocuq Mərcanlıda səslənmiş o zəfər marşı bu gün Cəbrayıl şəhərində çalınır. Cəbrayılda sancılmış üçrəngli bayrağımız düşmən tapdağı altındakı digər rayonlarımızın tezliklə işğaldan azad olunacağından xəbər verir. İnşallah, çox keçməyəcək ki, böyük qələbəni qeyd edəcəyik. Torpaqlarımızın yağı tapdağından qurtulmasının ikinci, həlledici mərhələsi vətəndaşlarımızın əzəli ata-baba torpaqlarına qayıtması olacaq. Ölkə Prezidentinin müvafiq göstərişi əsasında azad olunmuş torpaqlarımıza dönüb orada dinc və mədəni-quruculuq işlərimizi davam etdirəcəyik. Hər bir cəbrayıllı belə bir xoş günün tezliklə gəlməsini gözləyir.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir




Bosniya və Herseqovinanın Nazirlər Şurasının sədr müavini, Xarici İşlər naziri xanım Bisera Turkoviç "Radiosarajevo.ba" radiosuna müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibədə dost ölkənin siyasətçisi Azərbaycanın ədalətli mövqeyini bir daha dəstəkləyib.

"Dağlıq Qarabağ bölgəsi ilə bağlı məsələyə gəldikdə, mövqeyimiz budur ki, biz BMT-nin bütün qətnamələrini və beynəlxalq təşkilatların digər aktlarını dəstəkləyirik. Bosniya və Herseqovinanın Parlament Assambleyasının Xalqlar Palatasında Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət və dəstək adlı qətnamə qəbul edilib. Hər kəs bu qətnamənin lehinə səs verib. Bu qətnamə ilə beynəlxalq təşkilatların bütün tövsiyələrinin, qətnamələrinin və bəyannamələrinin, xüsusən də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin (822, 853, 874 və 884 saylı qətnamələr) yerinə yetirilməsinə, eyni zamanda Ermənistan hərbi birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən təcili, tam və qeyd-şərtsiz çıxarılmasına çağırış etdik. Beləliklə, bu, xarici siyasətə sadiq olduğumuz ümumi mövqeyimizdir. Bosniya və Herseqovina gələcəkdə də beynəlxalq hüququ, ilk növbədə ədaləti, eyni zamanda qəbul edilən bütün beynəlxalq və daxili qətnamələri rəhbər tutacaq", - deyə Bisera Turkoviç müsahibəsində qeyd edib.

Xatırladaq ki, B.Turkoviçin bəhs etdiyi Xalqlar Palatasının məlum qətnaməsi 2013-cü il fevralın 26-da qəbul edilib.

❖ ❖ ❖



Oktyabrın 4-də Əfqanıstan İslam Respublikasının Milli Şurasının Yuxarı Palatası Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün dəstəklənməsinə dair bəyanat qəbul edib.

AZƏRTAC xəbər verir ki, bəyanatda Əfqanıstan Milli Şurasının Yuxarı Palatası Ermənistanın Azərbaycan Respublikasına qarşı silahlı hücumunu pisləyir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə hörmət ifadə olunur.

Əfqanıstan Milli Şurasının Yuxarı Palatası Ermənistan ilə Azərbaycan arasındakı hərbi toqquşmalar zamanı Azərbaycan Respublikasının Xocalı şəhəri və Dağlıq Qarabağ bölgəsinə dəymiş zərər və insanlıq əleyhinə cinayətlərlə bağlı dərin narahatlığını bildirir, hadisə nəticəsində həlak olanların yaxınlarının dərdinə şərik olaraq bu iki qonşu ölkə arasında problemin birdəfəlik həllini və bu hadisənin səbəbkarlarının mühakiməsini istədiyini bildirir. Sənəddə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin ən qısa zaman ərzində icra edilməsinə çağırış əks olunur.

Əfqanıstan Milli Şurasının Yuxarı Palatası Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsində bu ölkə ilə qəti şəkildə həmrəy olduğunu bəyan edir. Milli Şuranın Yuxarı Palatası həmçinin sözügedən məsələyə dair dərhal öz mövqeyini bildirdiyi üçün Əfqanıstan İslam Respublikasının Xarici İşlər Nazirliyinə təşəkkürünü ifadə edir.

❖ ❖ ❖




"Otuz ildir davam edən Dağlıq Qarabağ münaqişəsinin həlli yalnız Ermənistanın işğal etdiyi ərazilərdən geri çəkiləcəyi halda mümkün olacaq. Türkiyə ədalətli davasında hər zaman qardaş Azərbaycanın yanındadır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fahrettin Altun özünün rəsmi "Twitter" səhifəsində bildirib. O, beynəlxalq birliyin artıq qeyri-qanuni işğal qarşısında susa bilməyəcəyini yazıb. Sosial mediada, eyni zamanda Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsi tərəfindən hazırlanan, 20 Yanvar hadisələri, 1990-cı illərə aid erməni vəhşilikləri, Azərbaycanın inkişaf yolu və sentyabrın 27-dən etibarən şanlı Azərbaycan Ordusunun erməni təxribatına əks-hücumu nəticəsində əldə edilən uğurları əks etdirən videoçarx yerləşdirilib.

❖ ❖ ❖



İndoneziya İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Təşkilatının prezidenti Şafi Əfəndi Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar rəsmi bəyanatla çıxış edib. AZƏRTAC xəbər verir ki, İndoneziya İƏT Gənclər Təşkilatı adından elan edilən və Ş.Əfəndinin "Instagram" səhifəsində yerləşdirilən bəyanatda münaqişənin kəskinləşməsi ilə əlaqədar narahatlıq öz əksini tapıb.

Bəyanatda Ş.Əfəndi rəhbərlik etdiyi təşkilatın adından İndoneziya hökumətinin Dağlıq Qarabağ münaqişəsinə lazımi diqqət yetirməməsindən təəssüfləndiyini ifadə edərək, Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu vurğulayıb. Ş.Əfəndi Ermənistanın işğalçı dövlət olduğunu bəyan edərək, bu faktın BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi müvafiq qətnamələrdə də öz əksini tapdığını diqqətə çatdırıb. O, İndoneziyanın Dağlıq Qarabağın Azərbaycana məxsus olmasını və Ermənistanın işğalçı olduğunu, habelə Azərbaycanın son addımlarının ərazi bütövlüyünün bərpası üçün həyata keçirdiyi əks-hücum əməliyyatı olduğunu bəyan etməli olduğunu qeyd edib.

Ş.Əfəndi İndoneziya Prezidenti Coko Vidododan, Xarici İşlər naziri Retno Marsudidən və İndoneziyanın Ermənistandakı səfirindən ədalət naminə çıxış etməyə, Ermənistanı BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərini yerinə yetirərək, silahlı qüvvələrini işğal etdikləri Azərbaycan torpaqlarından çıxarmağa və münaqişəyə son qoymağa çağırmağı xahiş edib. O, İndoneziyanın hazırda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi ədaləti və həqiqəti daha yüksək səslə və aydın şəkildə səsləndirməli olduğunu əlavə edərək, İndoneziyanın ənənəvi azad və fəal xarici siyasətinin və diplomatik fəaliyyətinin davam etdirilməsinə ümidini bildirib.

Gənclər Təşkilatının prezidenti həm İndoneziyanın, həm də Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatına, Qoşulmama Hərəkatına üzv olduğunu dilə gətirərək, ölkəsini Azərbaycanın mövqeyini dəstəkləmək üçün iki dəfə düşünməyə ehtiyac olmadığını vurğulayıb.

Sonda Ş.Əfəndi gənc və fəal müsəlman kimi İndoneziya hökumətini xarici siyasət prinsiplərini nəzərdən keçirməyə, ədalət naminə çevik və qəti mövqe nümayiş etdirərək, Azərbaycanın yanında olmağa çağırıb. İndoneziyanın dünyada söz sahibi ölkə kimi Dağlıq Qarabağ münaqişəsinə səssiz qalmamalı olduğunu qeyd edən Ş.Əfəndi ölkəsi tərəfindən tezliklə zəruri addımların atılacağına ümid etdiyini bir daha vurğulayıb.

❖ ❖ ❖



"Azərbaycan öz torpaqlarını azad edərək irəliləməkdə davam edir. Azərbaycanın əldə etdiyi uğurlar göz qabağındadır. Ermənistanın isə Azərbaycanın dinc əhalisini atəşə tutması onların ümidsiz olduqlarından xəbər verir".

Bu sözləri AZƏRTAC-a açıqlamasında ATƏT-in Minsk qrupunun keçmiş həmsədri və ABŞ-ın Azərbaycandakı sabiq səfiri Mətyu Brayzə deyib.

Mətyu Brayzə Ermənistanın Azərbaycana raket hücumlarının təxribat xarakteri daşıdığını bildirib. Qeyd edib ki, bununla onlar Azərbaycanın da cavab olaraq Ermənistanın mülki əhalisini vurmasını və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Azərbaycana qarşı savaşa cəlb olunmasını istəyirlər.

Paşinyanın öz hərəkətləri ilə özünü çox təhlükəli bir vəziyyətə saldığını deyən M.Brazyə bildirib ki, Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarını geri qaytarmalıdır. Paşinyan Rusiyadan yardım istəyir, lakin Moskva da görür ki, Ermənistan beynəlxalq prinsipləri pozaraq ATƏT-in Minsk qrupunun danışıqlar formatından imtina edib.

❖ ❖ ❖



"Dost Azərbaycan xalqını çox sevən biri olaraq, Dağlıq Qarabağ probleminin tezliklə həll olunmasını arzulayıram. Uzun illər davam edən bu münaqişədə xalqınızın hiss etdiyi ağrı və acılara üzülürəm. Dağlıq Qarabağ regionunun tezliklə əvvəlki vəziyyətə, yəni Azərbaycanın tərkibinə qayıtmasını diləyirəm".

Bu sözləri AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə müsahibəsində 1999-2002-ci illərdə Yaponiyanın Azərbaycanda səfiri olmuş Toşiyuki Fucivara deyib. Yaponiyanın da bir sıra ətraf ölkələrlə ərazi mübahisəsinə malik olduğunu xatırladan sabiq səfir bu problemin həlli üçün dünya təcrübəsində iki yolun olduğunu deyib. Bunlardan birinin danışıqlar, digərinin isə müharibə yolu olduğunu qeyd edib. Bildirib ki, Yaponiya həmin mübahisələri həll etmək üçün müharibə yolunun əleyhinədir. Çünki II Dünya müharibəsində məğlub olan Yaponiya son Konstitusiyasına görə problemlərin həll olunması vasitəsi kimi müharibədən istifadə edə bilməz. Buna görə də biz bu məsələlərin həlli üçün qonşularımızla danışıqlara üstünlük veririk.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin artıq uzun müddətdir ki, davam etməsinin düzgün olmadığını vurğulayan T.Fucivara bunun işğal edilmiş ərazilərdən qovulmuş insanlara qarşı böyük bir ədalətsizlik olduğunu bildirib. O deyib ki, ərazilərin işğal altında saxlanması yolverilməzdir və buna görə də münaqişə edən tərəflər problemin həllinin sivil formalarından istifadəyə üstünlük verməlidirlər. Əks halda tərəflər arasında baş verən silahlı qarşıdurma daha da dərinləşə və dünya müharibəsinədək gedib çıxa bilər.

Hazırda davam edən silahlı qarşıdurmanın dünyanın enerji təhlükəsizliyinə bir təhdid olduğunu diqqətə çatdıran sabiq diplomat bunun nəzərə alınmasının vacibliyini bildirib. Qeyd edib ki, döyüşlərin Avrasiya məkanının iqtisadiyyatı üçün həyati əhəmiyyətə malik neft və qaz boru kəmərlərinə yaxınlığı bu kəmərlər üçün böyük təhdiddir və buna maksimum dərəcədə diqqət yetirilməlidir. Azərbaycan neft və qazının ixrac edildiyi ölkələrə daha diqqətlə yanaşaraq, məhz bu dövlətlərdə yaranan təhlükə ilə bağlı xəbərdarlıq çağırışları etməlidir. Həmin dövlətlərin rəhbərlərinin münaqişənin həlli yolunda daha fəal çalışmasına nail olmalıdır.

Ermənistan ordusunun Azərbaycan şəhərlərinə raketlərlə hücumunun yolverilməz olduğunu vurğulayan sabiq diplomat bunun beynəlxalq qanunları, Cenevrə konvensiyasının prinsiplərini pozduğunu da xatırladıb.

İstər Yaponiya, istərsə də bir sıra Avropa ölkələrinin mətbuatının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi mövzusunda verdiyi məlumatların əsasən erməni mövqeyinə yaxın olmasına diqqət çəkən keçmiş səfir bunun üçün Azərbaycan tərəfinin səsini daha ucadan qaldırmasını istədiyini deyib. Bildirib ki, azərbaycanlı dostlarının öz haqq səslərini çatdırması üçün həm dünya mediasına, həm də BMT daxil olmaqla, bütün beynəlxalq təşkilatlara daha sıx müraciət etməsinə ehtiyac olduğunu düşünür. Onları bu istiqamətdə daha ciddi şəkildə çalışmağa çağırır.

Yaponiya hökumətinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirən T.Fucivara problemin həlli üçün sərhədlərin keçmiş sovet dövründəki halına qayıtmasını və bundan sonra problemin həlli üçün tərəflərin ATƏT-in Minsk qrupunun iştirakı ilə masa arxasında oturaraq müzakirələr aparmasını arzuladığını bildirib.

❖ ❖ ❖



"Ərazi barədə beynəlxalq mübahisələrdə adətən təşəbbüs həmin ərazinin qaytarılmasına (verilməsinə) çalışan tərəfə məxsus olur. Etiraf edirəm ki, həmin əraziyə nəzarət edən tərəfin təşəbbüs göstərməsi halları yadıma gəlmir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Rusiya Xarici İşlər nazirinin keçmiş müavini Georgi Kunadze söyləyib. Siyasətçi deyib: "Hər hansı xalqa nə qədər hörmət bəsləsək belə həmin xalq özününkü hesab etdiyi ərazinin ona qaytarılmasını arzu edə bilər, lakin belə vəziyyətdə təşəbbüsü yalnız müvafiq dövlətin siyasi rəhbərliyi irəli sürə bilər. Mən belə başa düşürəm ki, Azərbaycanın siyasi rəhbərliyi məhz bu cür hərəkət edib. Beynəlxalq hüquq baxımından aydın məsələdir ki, həm Dağlıq Qarabağ, həm də onu Ermənistanla əlaqələndirən, belə adlandırılan "Laçın dəhlizi" Azərbaycanın suveren ərazisidir.

Bu da aydındır ki, hər bir dövlət onun əlindən alınmış ərazini geri qaytarmağa nail olmaq hüququna malikdir və bu, hətta onun birbaşa vəzifəsidir. Lakin bundan ötrü heç də hər bir dövlət müharibə etmir. Azərbaycanın siyasi rəhbərliyinin nə üçün məhz indiki anda belə bir qərar qəbul etməsinin səbəbi mənə məlum deyil. Bu barədə çoxlu fərziyyələr söylənilir, lakin kənar müşahidəçilərin heç biri həmin fərziyyələri nə təsdiq, nə də təkzib edə bilir".

"Ermənistan-Azərbaycan müharibəsi genişlənərək regional müharibəyə çevrilə bilərmi?" sualının cavabında G.Kunadze bildirib ki, nəzəri baxımdan belə bir təhlükə mövcuddur, lakin "praktiki baxımdan, əlbəttə, döyüş əməliyyatlarında belə adlandırılan "özəl hərbi şirkətlərin", yəni xarici ölkələrdən gətirilmiş muzdluların iştirakını regional müharibə hesab etməsək, məncə, bu təhlükə istisna olunur".

G.Kunadzenin fikrincə, bu müharibədə Azərbaycanın qələbəsindən sonra Paşinyanın taleyi məsələsi heç də birmənalı deyil. O deyib: "Səhv etmirəmsə, Paşinyan bu vəzifəyə isteblişment tərəfindən irəli sürülməyib, küçədən gəlmiş birinci erməni lideridir. Rusiyanın hakimiyyət orqanları belə sistemdənkənar liderlərə çox böyük inamsızlıqla yanaşır və yəqin ki, onun getməsinə təəssüflənməyəcək. Xüsusən ona görə ki, indiki şəraitdə onu əvəz etməyə yəqin ki, daha anlaşıqlı və "Qarabağ müharibəsi" partiyasının Moskvadakı ali kabinetlərdə əyləşənlər üçün daha münasib olan növbəti nümayəndəsi gələcək".

"Azərbaycanın öz torpaqları üzərində nəzarəti geri qaytarması Rusiya-Ermənistan münasibətlərinə necə təsir göstərəcək?" sualının cavabında siyasətçi vurğulayıb ki, döyüş əməliyyatları yalnız Azərbaycan ərazisində aparılan müddətdə Rusiyanın Ermənistana hərbi və hər hansı başqa yardım göstərməsi üçün hətta hüquqi əsaslar da yoxdur. Üstəlik, Rusiya hər iki ölkə ilə öz münasibətlərini qiymətləndirir.

❖ ❖ ❖



"Qarabağda cəbhə xəttindən onlarca kilometr məsafədə yerləşən, əhalisi yalnız dinc sakinlər olan Azərbaycanın Gəncə şəhərinin atəşə tutulması onu göstərir ki, Ermənistan ordusu Azərbaycan əhalisinə münasibətdə terror siyasəti yürüdür". AZƏRTAC xəbər verir ki, bu sözləri rusiyalı politoloq Aleksandr Ryabtsov söyləyib.

Rusiyalı politoloq deyib: "Məsələ burasındadır ki, Azərbaycan ordusu Azərbaycanın hamılıqla tanınmış ərazilərі olan işğal edilmiş rayonlardan və Dağlıq Qarabağın özündən kənarda yerləşən obyektləri atəşə tutmur. Beynəlxalq hüquq baxımından Azərbaycan yalnız öz ərazilərinin işğaldan azad edilməsi uğrunda müharibə aparır və bu mənada o, hər hansı konvensiyaları, hüququ və razılaşmaları pozmur.

Erməni ordusu Azərbaycanın Gəncə şəhərini atəşə tutub. Nəticədə azı bir nəfər həlak olub, bir neçə nəfər yaralanıb. Beləliklə, Ermənistan özünü işğalçı və terrorçu ölkə kimi göstərib. Azərbaycan ərazisinə, Azərbaycan şəhərlərinə atəş açmaqla Ermənistan beynəlxalq qanunvericiliyi pozur, bilərəkdən cinayət törədir. Bu ciddi cinayətə Beynəlxalq Cinayət Məhkəməsində, habelə BMT-nin Haaqa Beynəlxalq Məhkəməsində baxılmalıdır.

Problemin mahiyyətini bilməyənlər nəzərə almalıdırlar ki, Gəncə şəhəri döyüş əməliyyatları zonasından təxminən 60 kilometr aralıda yerləşir. Gəncə hər hansı kiçik kənd deyil, 500 min əhalisi olan iri şəhərdir. Bu şəhərdə məktəblər, xəstəxanalar, uşaq bağçaları var. Bir mərmi düşməsi onlarca insanın - qadınların və uşaqların həyatı bahasına başa gələ bilər. Erməni qoşunları və onların Xankəndidəki, Yerevandakı rəhbərləri nə etdiklərini başa düşürdülərmi? Əlbəttə, lap yaxşı başa düşürdülər. Başa düşürdülər və maksimum sayda insan tələfatına nail olmağa ümid edərək atəş açırdılar. Mənim fikrimcə, bu, heç şübhəsiz, Azərbaycanı cavab hərəkətlərinə sövq etmək, sonra isə şivən qoparmaq və bu hərəkətlərə beynəlxalq münasibət bildirilməsini tələb etmək üçün nəzərdə tutulan beynəlxalq cinayətdir".

❖ ❖ ❖



"Gəncə şəhərinin atəşə tutulması qisasdır və bu, erməni tərəfinin əsəblərinin dözmədiyini göstərir. Reallıq belədir". AZƏRTAC xəbər verir ki, bu barədə G.V.Plexanov adına Rusiya İqtisad Universitetinin Politologiya və sosiologiya kafedrasının dosenti, "Rusiya zabitləri" Ekspert Şurasının üzvü Aleksandr Perenciyev Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən intensiv atəşə tutulmasını şərh edərkən bildirib.

Onun sözlərinə görə, bu, Ermənistanın münaqişəyə KTMT-ni cəlb etmək cəhdi deyil. Rusiyalı politoloq deyib: "KTMT-nin müdaxiləsi barədə qərar təşkilatın üzvü olan ölkələrin Müdafiə nazirləri səviyyəsində deyil, siyasi səviyyədə qəbul edilir. Üzv ölkələrdən birinin suveren ərazisinə təhlükə yarandığı zaman KTMT-yə üzv ölkələrin liderləri toplaşır və mümkün müdaxilə məsələsini müzakirə edirlər. Dağlıq Qarabağ münaqişəsinə gəlincə, bu halda KTMT-yə üzv-ölkələr Ermənistanın tərəfini saxlamayacaqlar.

Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan bu münaqişəyə görə öz qoşunlarını Azərbaycana yeritməyəcəklər. Səbəb çox sadədir: hərbi əməliyyatlar Azərbaycanın işğal edilmiş ərazilərində aparılır. Əgər məsələn, Azərbaycan Ermənistanın suveren ərazisinə hücum edərsə, o halda KTMT Yerevanın müdafiəsinə qalxardı. İndi isə elə vəziyyət yaranmayıb".

❖ ❖ ❖



Moldova parlamentinin deputatı, parlamentdə Moldova Demokrat partiyasının fraksiya sədri Dmitru Dyakov "Facebook" səhifəsində Dağlıq Qarabağ münaqişəsinin eskalasiyasına toxunub. AZƏRTAC xəbər verir ki, D.Dyakovun sözlərinə görə, bir çox digər postsovet respublikaları kimi, Moldova da separatçı müharibələrin dəhşətlərini yaxşı bilir.

"Ermənistan-Azərbaycan münaqişəsi zonasında mülki əhali arasında çoxsaylı insan tələfatı ilə nəticələnən dramatik hərbi toqquşmalar bir daha onu sübut edir ki, dondurulmuş münaqişələr bölgədə təhlükəsizliyə və sabitliyə təhlükə yaradır, eyni zamanda bizim dövlətlərin beynəlxalq tanınmış səviyyədə sərhədləri çərçivəsində ərazi bütövlüyünün tanınmasının vacibliyini göstərir", - deyə deputat əlavə edib.

O, həmçinin Azərbaycan ilə Moldova arasında ikitərəfli münasibətlərə toxunub: "Uzun illər ərzində Moldova ilə Azərbaycan ölkələrimizin müstəqilliyi və suverenliyinin möhkəmlənməsində sıx əməkdaşlıq edirlər. Bu, müxtəlif beynəlxalq təşkilatlar və parlamentlərarası əməkdaşlıq platformalarında bizim birgə təşəbbüslərimizdə özünü göstərir.

Azərbaycan Respublikası ilə Moldova Respublikası 30 illik müstəqilliyi dövründə möhkəm dostluq və qarşılıqlı həmrəylik münasibətləri ilə bağlıdırlar. Bunu mən Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova ilə bu yaxında baş tutan son görüşümdə də vurğuladım. Söhbətimiz zamanı Moldova ilə Azərbaycanın qanunverici orqanları arasında səmərəli ikitərəfli parlament münasibətlərinin möhkəmlənməsində maraqlı olduğumuzu qeyd etdim".

D.Dyakov Moldova Demokrat Partiyasının fraksiya üzvləri adından Dağlıq Qarabağdakı silahlı münaqişənin sülh yolu ilə həll olunacağına ümid etdiyini bildirib: "Moldova Demokrat partiyası döyüşlərə son qoymaq, etimad tədbirlərinin gücləndirilməsi, Dağlıq Qarabağ münaqişəsi zonasında iki ölkə arasında gərginliyin azaldılması və münaqişənin BMT Təhlükəsizlik Şurasının qərarlarını rəhbər tutaraq, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar yolu ilə həllinə çağırır".

❖ ❖ ❖

Azərbaycanın Ukraynadakı səfirliyi tərəfindən Ermənistanın işğalçılıq siyasəti, cəbhədə baş verən son hadisələr, ölkəmizin mülki vətəndaşlarının qətlə yetirilməsi, ərazilərimizin Ermənistan tərəfindən raketlərlə vurulmasına dair yerli KİV nümayəndələri üçün mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, səfirliyin mətbuat katibi Samir Allahverdiyev tədbiri açaraq mətbuat konfransında Ukraynanın nüfuzlu telekanallarının və informasiya agentliklərinin 40-a yaxın nümayəndəsinin iştirak etdiyini bildirib.

Ermənistanın təxribatı nəticəsində həlak olan mülki şəxslər və hərbçilərin xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra çıxış edən səfir Elmira Axundova bildirib ki, Azərbaycana qarşı yeni təxribatları çərçivəsində Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini, habelə üzərilərinə götürdükləri müvafiq beynəlxalq öhdəlikləri pozaraq Azərbaycanın mülki əhalisini və infrastrukturunu qəsdən hədəfə alır. Son günlər Azərbaycanın Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Göygöl, Xızı və Abşeron şəhər və rayonları Ermənistan ərazisindən raket hücumlarına məruz qalıb. Ermənistan tərəfinin məqsədyönlü atəşləri nəticəsində indiyədək 24 azərbaycanlı mülki şəxs qətlə yetirilib, 121 nəfər yaralanıb, 300-dən çox yaşayış binası və mülki obyekt dağıdılıb. Azərbaycan tərəfində mülki əhalisinin və infrastruktur obyektlərinin məhz Ermənistan ərazisindən, o cümlədən Gorus, Sisyan, Cermuk və Berd şəhərlərindən raket hücumlarına məruz qalması barədə tutarlı faktlar var.

E.Axundova bildirib ki, Ermənistan bu cür təxribatları törətməklə üçüncü tərəfi münaqişəyə cəlb etmək istəyir. Dünya ölkələrinin son hadisələrlə bağlı Azərbaycanı dəstəklədiyini vurğulayan səfir ölkəmizin haqlı mövqeyinə verdiyi dəstəyə görə Ukrayna dövlətinə təşəkkürünü bildirib.

Sonra Azərbaycan Müdafiə Nazirliyinin Ukraynadakı hərbi attaşesi polkovnik İlqar Ağayev Milli Ordumuzun uğurlu əks-həmləsi barədə jurnalistləri məlumatlandırıb, Azərbaycanın işğaldan azad olunan əraziləri barədə danışıb. İ.Ağayev bildirib ki, Ermənistan tərəfindən Suriya, Liviya və digər ölkələrdən gətirilən terrorçuların, muzdluların döyüşməsi barədə faktlar mövcuddur.

Azərbaycan şəhərlərinin raketlərlə vurulması, işğaldan azad olunan ərazilərimiz, Ermənistan tərəfindən terrorçuların döyüşməsinə dair videoçarx nümayiş etdirildikdən sonra səfir yerli jurnalistlərin suallarını cavablandırıb.

Tədbirin sonunda E.Axundova son hadisələrlə əlaqədar Ukraynanın "4-cü" və "Pryamoy" telekanallarına canlı efirdə müsahibə verib.

❖ ❖ ❖




Alman tarixçi, türkoloq, nəsimişünas alim Mixael Raynhard Hess özünün "Facebook" səhifəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair paylaşım edib.

AZƏRTAC xəbər verir ki, alim hadisələrə dair alman mətbuatının yanaşmasına istinad edib və burada köhnə klişelərdən istifadə olunduğunu vurğulayıb. Bu kontekstdə aparıcı "Spiegel" jurnalında münaqişəyə dair dərc olunmuş məqalədə "Ermənistan tərəfindən nəzarət olunan Dağlıq Qarabağın beynəlxalq hüquqa əsasən müsəlman ölkəsi Azərbaycana məxsus olması" və "Azərbaycanın Dağlıq Qarabağa qarşı hərbi əməliyyata başlaması" cümlələrini təhlil edən M.Hess birincinin lüzumsuz yerə dini amili qabartdığını, ikincinin guya Dağlıq Qarabağın Azərbaycandan ayrı ərazi, Azərbaycanın isə ona hücum edən kənar aktor olması təəssüratı yaratdığını vurğulayır. Qeyd edir ki, belə ifadə Azərbaycan haqqında təcavüzkar obrazı yaradır, halbuki bu, Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal edilməsini nəzərə alsaq, absurddur. Azərbaycanın özünümüdafiə hüququndan istifadə etməsi daha düzgün ifadə olardı.

Müəllif alman mətbuatında oxşar ifadələrdən istifadə edilməsinin arxasında antimüsəlman düşmən obrazının dayandığı fikrindədir. Bildirir ki, erməni tərəfi bu obrazı həmişə təşviq edir, bununla Dağlıq Qarabağ və Azərbaycanın digər ərazilərinin işğalına və Xocalı qətliamı kimi müharibə cinayətlərinə xristian-müsəlman qarşıdurması donu geyindirməyə çalışır. Tarixçi alim Dağlıq Qarabağın əhalisinin əksəriyyətinin 1830-cu illərədək müsəlman olduğunu, bu demoqrafik vəziyyətin 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə sülhündən sonra ermənilərin bölgəyə köçürülməsi nəticəsində çar Rusiyasının işğal siyasətinin tərkib hissəsi olaraq dəyişdirildiyini bildirir.

M.Hess həmçinin münaqişənin son 25 ildə həll olunmaması və indi yenidən qızışmasının səbəbi kimi qlobal siyasi sistemin böhranını görür. Bu sistemin işğalçı müharibələr, soyqırımı, işgəncə və qətliamların qarşısını ala biləcək mexanizmlərinin olmadığını, hazırda dünyanın I və II Dünya müharibələri ərəfəsindən yaxşı vəziyyətdə olmadığını qeyd edir. Eyni zamanda dünyanın bu münaqişəyə uzun müddət biganə qaldığını vurğulayır.

❖ ❖ ❖



Oktyabrın 3-də Yaponiyanın Osaka şəhərində "Aşahi" televiziyasının "Seigi no Mikata" proqramının canlı efirinin 30 dəqiqəsi Dağlıq Qarabağ münaqişəsinə həsr edilib. Verilişə dəvət alan Yaponiya-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının sədri Əlibəy Məmmədov və Keio Universitetinin professoru Hirose Yoko tərəfindən yaponiyalı tamaşaçılara Azərbaycan və Dağlıq Qarabağ həqiqətləri çatdırılıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Əlibəy Məmmədov BMT-nin Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 qətnaməsini xatırladıb. O qeyd edib ki, Ermənistan rəhbərliyi və ordusu beynəlxalq hüququ kobud şəkildə pozub, suveren bir dövlətin ərazisində terror aktları həyata keçirir. Ermənistan özü də daxil olmaqla, BMT-yə üzv ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. İndi biz hazırda sual verməliyik: "Ermənistan ordusu Azərbaycan ərazisində nə edir?".

Əlibəy Məmmədov vurğulayıb ki, hazırda bütün döyüşlər Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərində aparılır. Azərbaycan öz ərazilərini işğaldan azad etməyə çalışır.

Tamaşaçılara Xocalı soyqırımı barədə ətraflı məlumat verən Əlibəy Məmmədov deyib: "Mənim 4 yaşım olardı, Ermənistan ordusu 63 uşaq, 106 qadın, 79 qoca da daxil olmaqla, ümumilikdə 613 nəfəri vəhşicəsinə qətlə yetiriblər. Bu, müharibə cinayəti, Dağlıq Qarabağ müharibəsində insanlığa qarşı törədilmiş ən böyük cinayət idi".

Türkiyənin Azərbaycana verdiyi dəstəyə toxunan Əlibəy Məmmədov deyib ki, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Ölkələrimiz həm sevincli, həm də kədərli günlərdə bir-birinin yanındadır.

Keio Universitetinin professoru Hirose Yoko öz növbəsində Dağlıq Qarabağın və ətraf rayonların Azərbaycanın hüquqi ərazisi olduğunu qeyd edib. Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etməsinə baxmayaraq, dünyada bəzi aparıcı ölkələr tərəfindən məhz Azərbaycana münasibətdə ikili standartların olduğunu diqqətə çatdırıb.

❖ ❖ ❖



İstanbulun mərkəzi və ən çox turist qəbul edən bölgələrindən biri olan tarixi Bəyazıt Meydanında qardaş Azərbaycan Ordusuna dəstək və düşmən üzərində qələbəni qeyd etmək məqsədilə möhtəşəm mitinq keçirilib. AZƏRTAC xəbər verir ki, "Ya Qarabağ, ya ölüm" şüarı ilə keçirilən aksiya İstanbul Universitetinin Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyi, Turan Ocaqları və Bütöv Azərbaycan Ocaqlarının təşkilatçılığı ilə baş tutub.

Azərbaycan və Türkiyə bayraqlarının dalğalandığı mitinqdə ordumuza dəstək şüarları səsləndirilib, sevinc hissləri ifadə olunub. Tədbirdə İstanbul Universiteti Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyinin sədri Anar Can Kıtay tərəfindən türk və ingilis dillərində media üçün açıqlama oxunub. Açıqlamada 1917-ci ildə baş vermiş bolşevik inqilabı, tarixi Azərbaycan torpaqlarına ermənilərin yerləşdirilməsi, əsrlər boyu ermənilər tərəfindən türk milləti, o cümlədən azərbaycanlılara qarşı törədilən cinayətlər və qətliamlar, Xocalı soyqırımı kimi faktlar barəsində məlumat verilib, Ermənistan hökuməti tərəfindən atılan addımların beynəlxalq hüquq və normalara zidd, insanlığa qarşı cinayət olduğu bildirilib. Son günlər işğalçı Ermənistan tərəfindən törədilən təxribatlar və hücumlar nəticəsində uşaqlar da daxil olmaqla xeyli sayda dinc insanın Ermənistanın terrorçu siyasətinin növbəti qurbanı olduğu, Azərbaycan Silahlı Qüvvələrinin düşmənə lazımi cavabı verdiyi qeyd edilib.

"Son bir neçə gün ərzində şanlı Azərbaycan Ordusunun Ermənistanın təxribatçı siyasətinə cavabı nəticəsində bir sıra torpaqlarımız düşmən işğalından azad edilib. Ermənistan tərəfindən həyata keçirilən bu xain terror hücumlarının əsas məqsədi Dağlıq Qarabağ probleminin həlli ilə bağlı vaxtı öz lehinə uzatmaq və zəbt edilmiş əraziləri genişlətməkdir. Daima "Bir millət, iki dövlət" prinsipi ilə hərəkət edən Türkiyə ilə Azərbaycan qardaşlığı bu dəfə də özünü göstərib. Ermənistan başda olmaqla ona dəstək verən bütün dövlətlərin insanlığa zidd, faşist, işğalçı və insan hüquqlarını heçə sayan dövlət siyasətini şiddət və təəssüflə qınayır, bütün dünya ictimaiyyətini Azərbaycanın haqlı davasında ona dəstək olmağa çağırırıq", - deyə o qeyd edib.

Böyük izdihamın yaşandığı tədbirdə Azərbaycana dəstək ifadə olunub, çıxış edənlər Ermənistan tərəfindən törədilən təxribatları şiddətlə qınayıblar.

❖ ❖ ❖




Gürcüstanın paytaxtı Tbilisinin Soğanlıq (Poniçala) qəsəbəsində Azərbaycana dəstək aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, 20 Yanvar və 9 Aprel şəhidlərinin xatirəsinə ucaldılan abidənin önündə təşkil olunana aksiyada əvvəlcə Azərbaycanın və Gürcüstanın Dövlət himnləri səsləndirilib.

Hər iki ölkənin azadlığı və suverenliyi uğrunda şəhid olan qəhrəmanların xatirəsi ehtiramla yad olunub.

Aksiyada qəsəbə sakinləri ilə yanaşı, Tbilisi, Marneuli, Dmanisi, Bolnisi və digər bölgələrdən olan soydaşlarımız iştirak ediblər. Əllərində Azərbaycanın, Gürcüstan və Türkiyənin bayraqlarını, "Qarabağ Azərbaycandır!", "Yaşasın Azərbaycan-Gürcüstan dostluğu!", "Azərbaycan biz səninləyik!" plakatları tutmuş gənclər Azərbaycan dövləti və ordusuna dəstək şüarları səsləndiriblər.

Çıxış edənlər Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarını, mülki insanları və yaşayış məntəqələrini hədəfə almasını, Gəncə şəhərinin raket atəşinə tutmasını kəskin qınayıblar.

Sonda dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara müraciət qəbul edilib.

Sənəddə Ermənistanın terrorçu dövlət olduğu xüsusi qeyd olunur.

Bildirilir ki, Dağlıq Qarabağda baş verənlərə görə məsuliyyət təcavüzkar Ermənistan rəhbərliyinin üzərinə düşür. İşğal olunmuş torpaqları azad etmək Azərbaycan Ordusunun haqq işidir.

Müraciətdə beynəlxalq təşkilatlardan təcavüzkar Ermənistana qarşı ciddi sanksiyalar tətbiq etmək tələb olunur.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




İtaliyanın nüfuzlu "La Stampa" qəzetinin jurnalisti Cordano Stabile sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təcavüzü barədə "Dağlıq Qarabağ, dronlar və muzdlular ilə səciyyələnən münaqişə yenidən alovlanır. Azərbaycan səfiri deyir ki, əcnəbi döyüşçülərdən istifadə edən Ermənistandır" sərlövhəli məqaləsində Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə ilə müsahibəsindəki fikirlərə geniş yer verib.

AZƏRTAC xəbər verir ki, məqalədə sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təcavüz törətməsi fonunda təmas xəttində gərgin döyüşlərin getdiyi, Azərbaycanın Ermənistan üzərində hərbi üstünlüyü və ən müasir hərbi texniki vasitələr ilə təxribatlara cavab verdiyi, bu təxribatların davam edəcəyi təqdirdə erməni tərəfinin davamlı şəkildə hərbi texnika və canlı qüvvə itkisinə məruz qalacağı qeyd olunur.

Jurnalistin Azərbaycanın dialoq üçün şərtlərinin nə olduğu sualına cavabında səfir Məmməd Əhmədzadə qeyd edir: "Dialoqa apara bilən yeganə yol 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə tələb olunduğu kimi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasıdır. Otuz ildən çoxdur ki, Dağlıq Qarabağ regionu və ətraf yeddi rayon da daxil olmaqla, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi Ermənistanın hərbi işğalı altındadır. Bir milyondan çox vətəndaşımız öz doğma yurdundan zorla qovularaq qaçqın və məcburi köçkünə çevrilib. Təxminən otuz ildir davam edən danışıqlar heç bir nəticə verməyib".

Cordano Stabile məqaləsində böyük maliyyə imkanlarına malik Azərbaycanın son illər öz silahlı qüvvələrinin potensialını artırmaq üçün müasir silahlar aldığını bildirib. Jurnalistin Azərbaycanın bu silahları necə əldə etməsinə dair sualına cavab verən diplomat bildirib: "Biz müdafiə qabiliyyətimizi daha da gücləndirmək üçün bütün mümkün təchizatçılardan bazar qiymətinə silah alırıq və bunu həmişə açıq bəyan edirik. Soruşmaq lazımdır ki, Ermənistan kimi kasıb, maliyyə resursları olmayan və borc içində boğulan bir ölkə bu qədər silahı necə alır? Sirr deyil ki, 12 iyul hadisələrindən sonra Ermənistana müxtəlif istiqamətlərdən min tondan çox hərbi yük idxal edilib".

Məqalədə M.Əhmədzadənin fikirlərinə istinadən qeyd olunur ki, Ermənistan Azərbaycana qarşı qəfil hücum etmək üçün yeni müharibəyə hazırlaşmış və sentyabrın 27-də Ermənistan silahlı qüvvələri Azərbaycanın hərbi mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar və ağır artilleriya qurğularından atəşə məruz qoymaqla növbəti təxribata başladı. "Azərbaycanın digər ölkələrin ərazisində heç bir hərbi məqsədi yoxdur. Sual olunmalıdır, Ermənistan qoşunları bizim torpaqlarda nə edir?", - deyə M.Əhmədzadə bildirir.

Eyni zamanda jurnalistin sualına cavab olaraq guya Azərbaycan Ordusunun tərkibində Yaxın Şərqdən gətirilən muzdluların döyüşməsi barədə Ermənistan tərəfindən qəsdən və məqsədli şəkildə ortaya atılmış dezinformasiyaya da münasibət bildirən diplomat deyib: "Azərbaycan Ordusu öz ərazilərinin və xalqının müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır. Azərbaycanın lazımi təlim görmüş ordusu və səfərbər olunmaq üçün potensial ehtiyat qüvvəsi var. İki milyon əhalisi olan Ermənistanla müqayisədə 10 milyon nəfər əhaliyə malik ölkəmizin insan resurslarına ehtiyac yoxdur".

M.Əhmədzadə həmçinin Ermənistan prezidenti Armen Sarkisyanın bu günlərdə "Əl-Cəzirə" televiziya kanalına müsahibəsində Ermənistan tərəfində əcnəbi döyüşçülərin vuruşduğunu təsdiq etdiyi bildirib. Diplomat əlavə edib ki, Ermənistan prezidentinin bu fikirlərinə şərh verməyə ehtiyac yoxdur. Təəccüb doğuran isə bu fikirlərin beynəlxalq ictimaiyyət tərəfindən lazımi şəkildə qınanılmamasıdır.

❖ ❖ ❖




"Beynəlxalq ictimaiyyət Azərbaycan torpaqlarını 30 ildir işğal altında saxlayan Ermənistana təzyiq göstərməlidir".

AZƏRTAC xəbər verir ki, bu barədə Yaponiyanın nüfuzlu "Mainichi shimbun" qəzetinə müsahibəsində Azərbaycanın bu ölkədəki səfiri Gürsel İsmayılzadə bildirib. Səfir qeyd edib ki, münaqişənin sülh yolu ilə həlli istiqamətində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar məhz Ermənistan rəhbərliyinin qeyri-konstruktiv mövqeyi səbəbindən nəticə verməyib. Əksinə, 2018-ci ildə Ermənistanda hakimiyyətə gələn baş nazir Nikol Paşinyan ötən il işğal altında olan torpaqlara gedərək belə bir bəyanat verib: "Dağlıq Qarabağ Ermənistandır və nöqtə". Bununla yanaşı, Ermənistan tərəfi Azərbaycanın yalnız Dağlıq Qarabağ bölgəsini deyil, həmçinin digər ərazilərini də işğal etməklə bağlı çağırışlar səsləndirib.

Səfir bildirib ki, Ermənistan rəhbərliyi daxili problemlər, koronavirus pandemiyası ilə bağlı yaranmış ağır vəziyyətdən əhalinin diqqətini yayındırmaq üçün Azərbaycana qarşı təxribatlara, o cümlədən bu ilin iyulunda Tovuz rayonu istiqamətində növbəti təcavüzə əl atıb. Azərbaycan rəhbərliyi isə bu təxribatların qarşısını almaq, öz ərazilərini işğaldan azad etmək və dinc əhalinin təhlükəsizliyini qorumaq məqsədilə əks-hücum əmri verib.

Diplomat Ermənistanın guya Türkiyənin Azərbaycan tərəfdən döyüşlərə qatılması barədə yaydığı informasiyaların da yalan olduğunu bildirib. Vurğulayıb ki, bu, tam yalan məlumatdır, bunu sübut edən heç bir fakt yoxdur. Türkiyə sadəcə olaraq bəyan edib ki, Azərbaycanın mövqeyini dəstəkləyir. Ermənistan özü Suriyadan və Livandan gətirilən erməni yaraqlılarını döyüşlərə cəlb edib. Ermənistanın əsas məqsədi üzv olduğu siyasi-hərbi alyansı - Rusiyanın başçılıq etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etməkdir.

Dağlıq Qarabağ regionu ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri xatırladan G.İsmayılzadə həmin sənədlərdə Ermənistan qoşunlarının işğal altındakı ərazilərdən çıxarılmasının və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinin tələb olunduğunu xatırladıb.

Müsahibədə Azərbaycanla Ermənistan arasında hazırda yaşanan və bütün dünyanın diqqətini cəlb edən son təxribatlara da toxunulub. Qeyd edilib ki, son silahlı toqquşmalar zamanı ermənilər Azərbaycanın cəbhə xəttinin yaxınlığında yerləşən yaşayış məntəqələrində dinc əhalini ağır artilleriyadan, iriçaplı silahlardan atəşə tutublar.

Səfir vurğulayıb ki, Azərbaycan regionda sülhün bərqərar olmasını, bərabər, dinc yaşamağı arzulayır. İstəyir ki, erməni qoşunları beynəlxalq hüququn tələblərinə uyğun olaraq, işğal altındakı torpaqları tərk etsin. Lakin ermənilər Dağlıq Qarabağ bölgəsini Azərbaycandan ayırmaq istəyirlər ki, bunun da nəticəsində danışıqlar mənasını itirir.

G.İsmayılzadə qeyd edib ki, Ermənistan Dağlıq Qarabağda yaşayan Azərbaycan əhalisini evlərindən didərgin salıb, lakin Azərbaycan dinc erməni əhalisini qovmaq niyyətində deyil. Buna görə də beynəlxalq ictimaiyyət, o cümlədən Yaponiya Ermənistana daha güclü təzyiq göstərməlidir.

Müsahibəyə qəzetin redaktorunun xüsusi şərhi də əlavə edilib. Şərhdə bildirilir ki, Dağlıq Qarabağda silahlı qarşıdurma keçmiş Sovet İttifaqı zamanı, ötən əsrin 80-ci illərində başlayıb. Azərbaycanın ərazisi olan Dağlıq Qarabağ Muxtar Respublikasında sayca üstünlük təşkil edən erməni əhalisi Azərbaycandan ayrılaraq Ermənistana birləşmək tələbi ilə çıxış edib. Ermənistanın da qoşulduğu münaqişədə 20 mindən artıq insan həlak olub. Sovet İttifaqı dağıldıqdan sonra atəşkəs rejimi barədə razılıq əldə edilsə belə Ermənistan qoşunları əraziləri işğal altında saxlayıb. Bu dəfə sentyabrın 27-də səhər saatlarında başlayan silahlı qarşıdurma nəticəsində hər iki tərəf itkilər verib. Silahlı qarşıdurma başlayandan bəri hər iki tərəfdən təqribən 230 nəfərin həlak olduğu qeyd edilib.

❖ ❖ ❖



Rumıniyanın kütləvi informasiya vasitələri, o cümlədən "AGERPRES" milli xəbər agentliyi, "Unimedia", "G4media", "Adevarul", "Sportmedia" və digər aparıcı mətbuat orqanları Azərbaycan Prezidenti İlham Əliyevin təcavüzkar Ermənistan rəhbərliyinə xəbərdarlıq mesajlarını və işğalçı tərəfə ünvanlandığı şərtləri ayrı-ayrı başlıqlarla təqdim ediblər.

AZƏRTAC xəbər verir ki, yazılarda xüsusilə Prezident İlham Əliyevin erməni hökumətinə verdiyi mesaj öz əksini tapıb. Həmçinin Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin Ermənistan ordusunun Gəncə və Mingəçevir şəhərlərinə raket zərbələri endirməsi ilə bağlı məlumatı diqqətə çatdırılıb. Qeyd olunub ki, bir neçə yüz min sakinin yaşadığı və ölkənin ikinci böyük şəhəri olan Gəncə, eləcə də Mingəçevir Xankəndidən təxminən 100 kilometr məsafədə yerləşir.

Diqqətə çatdırılıb ki, H.Hacıyev "Twitter" sosial şəbəkə hesabında ermənilərin Azərbaycan şəhərlərinə raket zərbələrini təsdiq edən video və fotolar, nəticədə zərər çəkmiş binaların şəkillərini paylaşıb. Bundan başqa, Hikmət Hacıyevin digər paylaşımında erməni silahlı qüvvələrinin su anbarı və ölkənin əsas elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərinə raket zərbəsi endirdiyini vurğuladığı da qeyd olunub. Bildirilib ki, bu hücum nəticəsində mülki şəxslər yaralanıb.

❖ ❖ ❖



Özbəkistanın "interpress.uz" portalı Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciəti və "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsi ilə əlaqədar özbək dilində məqalələr dərc edib. AZƏRTAC xəbər verir ki, məqalələrdə Azərbaycan Ordusunun Ermənistan tərəfindən işğal olunan torpaqların bir hissəsini, o cümlədən Cəbrayıl şəhərinin və rayonun doqquz kəndini işğaldan azad etməsindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciət etdiyi bildirilir.

Qeyd olunur ki, dövlətimizin başçısı "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsində də bu barədə ətraflı məlumat verir. Müsahibədə Ermənistanın son təxribatları, Azərbaycanın buna cavab olaraq əks-hücumu, torpaqlarımızın bir hissəsinin işğaldan azad olunması, təcavüzkar ölkənin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əməl etməməsi ilə bağlı məlumatlar yer alıb.

"Human.uz" portalı isə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Twitter" hesabındakı paylaşımından sitatlar gətirib: "Ermənistanın Gəncə şəhərində əhalinin sıx məskunlaşdığı ərazilərə raket zərbələrinin nəticələri. Azərbaycan mülki şəxsləri müdafiə etmək və Ermənistanı sülhə məcbur etmək üçün legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görmək hüququnu saxlayır. Gəncəyə dörd yeni raket düşüb".

Materialda BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan torpaqlarından qeyd-şərtsiz azad olunması ilə bağlı dörd qətnamə qəbul etdiyini diqqətə çatdırır.

❖ ❖ ❖




Ukraynanın nüfuzlu "Qordon" nəşri Azərbaycan Prezidenti İlham Əliyevin "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsində Fransa dövlətinin ittihamları ilə bağlı səsləndirdiyi sərt tənqidləri dərc edib. AZƏRTAC xəbər verir ki, "Demək olar ki, sakinlərinin yarısı ermənilərdir - Əliyev Fransaya Marselə müstəqillik verilməsini təklif etdi" sərlövhəli məqalədə dövlətimizin başçısının Fransa Prezidentinin ittihamlarına cavabı işıqlandırılıb. Məqalədə İlham Əliyevə istinadla qeyd olunur ki, işğal edilmiş ərazilər Azərbaycan torpaqlarıdır.

"Əgər Fransa Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versin. Niyə onlar bizdən Dağlıq Qarabağ üçün müstəqillik tələb edirlər? Onların bunu bizdən tələb etməyə nə haqqı var? Onlar bu ittihamları dayandırmalıdırlar. Azərbaycana hücum etməyi və nüfuzumuza xələl gətirməyi dayandırmalıdırlar. Yaxşı olar ki, onlar bizi günahlandırmazdan əvvəl güzgüyə baxsınlar", - deyə Ukrayna nəşri Prezident İlham Əliyevə istinadla yazıb.

❖ ❖ ❖




Qırğızıstanın goldenbridgenews.com və turktoday.info portalları AZƏRTAC-ın "Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib", "Prezident İlham Əliyev "Əl-Ərəbiyə" telekanalına müsahibə verib", "Qədim Gəncəni artilleriya atəşinə tutan düşmən yerli sakinləri qorxuda bilməz - erməni vandalizmi AZƏRTAC-ın fotolarında" sərlövhəli materiallarını rus dilində dərc edib.

Prezidentin müraciətində Ermənistanın torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlaması, bizim bütün tarixi, dini, mədəni abidələrimizi dağıtması, əsgər və zabitlərimizin qəhrəmanlığı, Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun bir sıra kəndlərinin işğaldan azad edilməsi, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin Ermənistan tərəfdən yerinə yetirilməməsi və digər məsələlər öz əksini tapıb.

❖ ❖ ❖

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Aljazeera", "Əl-Ərəbiyə" televiziya kanallarına müsahibələri, həmçinin dövlət başçısının xalqa müraciəti Misir KİV tərəfindən geniş işıqlandırılıb.

Misirin "Almasryalyoum", "Akhbarelyom", "Aldiplomasy", "Alwasela", "Egyptonline" və "Nile1" informasiya portalları AZƏRTAC-a istinadla "Prezident İlham Əliyev: Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik" və "Azərbaycan Prezidenti: Ərazi bütövlüyümüzü bərpa edəcəyik!" sərlövhəli xəbərlər yayıblar.

"Asiaelyoum" informasiya agentliyinin baş redaktoru Əbubəkr Əl- Məcd isə "Prezident İlham Əliyev: Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və biz haqq yolundayıq" sərlövhəli məqalə yazıb.

Misirin "Rayetmısr" informasiya portalı da Azərbaycan Prezidentinin müsahibələri və xalqa müraciətindən sitatları yayıb.

Bundan başqa, "Almasryalyoum" portalı Misirdəki Azərbaycan diasporunun sədri Seymur Nəsirovun Ermənistanın hərbi təxribatları haqqında bəyanatını yerləşdirib.

❖ ❖ ❖




Tacikistanın avesta.tj portalı Azərbaycan ərazilərinin Ermənistanın işğaldan azad olunması ilə bağlı rus dilində məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, "Azərbaycan Ordusu zəbt olunan əraziləri uğurla işğaldan azad edir" sərlövhəli məqalədə sentyabrın 27-si səhər saatlarından başlayaraq Ermənistanın təxribatları, Azərbaycan Ordusunun əks-hücumu haqqında məlumat verilir. Həmçinin bir sıra ərazilərin işğaldan azad edildiyi bildirilir.

Vurğulanır ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəni, həmçinin Tərtər və Mingəçeviri atəşə tutublar. Hətta Xızı və Abşeron bölgəsinə iki raket atılıb.

❖ ❖ ❖



Niderland Krallığında yaşayan Azərbaycan icmasının üzvləri Benelüks Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Rotterdam şəhərində toplaşıblar.

AZƏRTAC xəbər verir ki, toplantıda Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurası, Azərbaycan Türk Kultur Dərnəyi, Covor Rusdilli Yəhudi İcmasının üzvləri iştirak ediblər.

Tədbirdə sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarından və Azərbaycan Ordusunun şanlı qələbələrindən danışılıb. İştirakçılar ordumuza və dövlətimizin Dağlıq Qarabağ siyasətinə dəstəklərini bildiriblər. Soydaşlarımızın Niderland cəmiyyətini ölkəmizin reallıqlarına dair məlumatlandırmaq məqsədilə gördükləri işlər və görülməsi vacib olan məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Toplantıda erməni təxribatlarına dərhal son qoyulması və işğal olunan torpaqlardan erməni separatçılarının qeyd-şərtsiz çıxması tələbi qoyulan bəyanat hazırlanıb. Bəyanat beynəlxalq təşkilatlara, Avropa və Niderland parlamentlərinə, Niderlandın Xarici İşlər Nazirliyinə ünvanlanıb.

Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ bölgəsindən uzaqda yerləşən Gəncə şəhərini Cenevrə Konvensiyasının qərarları ilə istifadəsi qadağan olunmuş raketlərlə bombalaması sərt şəkildə pislənilib. Bildirilib ki, Ermənistanın mülki obyektləri və əhalini hədəf alması bütün hüquq normalarına ziddir.

Niderlandda yaşayan soydaşlarımız dünya birliyini və beynəlxalq təşkilatları Ermənistanın təxribatçı hərəkətlərini pisləməyə, Cənubi Qafqaz regionunda sülhün və sabitliyin, Azərbaycanın ərazi bütövlüyünün bərqərar olması istiqamətində qətiyyətli addımlar atmağa səsləyiblər.

❖ ❖ ❖




Özbəkistanın kun.uz, tnews.uz və interfax.uz portalları Ermənistanın hərbi təxribatları və Azərbaycanın əks-hücumları ilə əlaqədar özbək və rus dillərində məqalələr yerləşdirib.

AZƏRTAC xəbər verir ki, kun.uz portalı "İlham Əliyev müharibənin dayandırılması şərtlərini elan edib" sərlövhəli məqaləsində Azərbaycan Prezidentinin "Əl-Ərəbiyə" telekanalına müsahibəsindən sitatlar verib.

Tnews.uz portalı Azərbaycanın əks-hücumları ilə bağlı Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın fikirlərinə yer ayırıb.

İnterfax.uz portalı Ermənistan silahlı qüvvələrinin Gəncə, Tərtər, Goranboy və Mingəçevirin yaşayış məntəqələrini atəşə tutması haqqında yazıb.

❖ ❖ ❖




Azərbaycan Respublikasının Monteneqrodakı diplomatik nümayəndəliyinin müşaviri Mahir Cəfərov bu ölkənin RTCG 1 dövlət telekanalında "Sabahınız xeyir, Monteneqro" adlı proqramın canlı yayımında iştirak edərək, Ermənistan-Azərbaycan münaqişəsinə dair son vəziyyətlə bağlı müsahibə verib. AZƏRTAC xəbər verir ki, müsahibədə münaqişənin tarixi və Azərbaycan ərazisinin təqribən 20 faizinin 30 ildən artıqdır ki, Ermənistanın işğalı altında qalması, Ermənistanın yeni rəhbərliyinin təhrikedici bəyanatları və fəaliyyəti, bölgədə yaranmış yeni gərginliyin səbəbləri, Azərbaycan tərəfinin dünya ictimaiyyətindən gözləntiləri və yaranmış vəziyyətdən çıxışı şərtləndirən amillər haqqında geniş məlumat verilib.

Xalqın Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan Ordusuna inam və dəstəyinin böyük olduğunun vurğulandığı müsahibədə Azərbaycan torpaqlarının işğaldan tam azad ediləcəyi günün uzaqda olmadığı bildirilib.

Müsahibə zamanı Azərbaycan Ordusunun rəşadəti və gücü haqqında, həmçinin hərbi səfərbərlik məntəqələrində yaşanan coşqunu əks etdirən videomateriallar və şəkillərlə yanaşı, erməni terrorçuları tərəfindən ölkəmizin müxtəlif bölgələrində yaşayış məskənlərimizin raket hücumlarına məruz qalması nəticəsində dağıntılar da televiziya tamaşaçılarının diqqətinə təqdim edilib.

❖ ❖ ❖




Ermənistan çarəsizlikdən azərbaycanlı mülki şəxslərə qarşı dövlət terroru həyata keçirir. AZƏRTAC xəbər verir ki, İndoneziyanın nüfuzlu "republika.co.id", "minanews.net", "akurat.co.id", "telusur.co.id", "gpriority.co.id" və digər saytları Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Twitter" hesabındakı həmin sözlərini oxucuların diqqətinə çatdırıb.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsində davam edən döyüşlərlə əlaqədar həmin saytlarda dərc edilən məlumatlarda Prezident köməkçisinin aşağıdakı sözləri də sitat kimi yer alıb: "Ermənistan silahlı qüvvələri Azərbaycanın Mingəçevir sənaye şəhərinə qarşı raket hücumu təşkil edib. Mingəçevirdə su anbarı və əsas elektrik stansiyası mövcuddur. Çarəsizliyin barbar ifadəsi".

Məlumatlarda Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən iriçaplı silahlardan, raket sistemlərindən atəş açmaqla Azərbaycan sərhədində təxribatlar törətdiyi, Azərbaycanın Ermənistana layiqli cavab verdiyi qeyd edilib.

Prezident İlham Əliyevin Ermənistan sülh istəyərsə, Azərbaycanın buna hazır olduğunu, lakin bunun üçün Ermənistan silahlı qüvvələrinin işğal altındakı Azərbaycan torpaqlarının hamısından çıxarılması şərtini irəli sürdüyü də yazılarda yer alıb. Bununla yanaşı, Prezident İlham Əliyev bildirib ki, Ermənistan, həmçinin Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu elan etməli və Azərbaycan xalqından üzr istəməlidir.

Məqalələrdə Azərbaycan Prezidentinin "Dağlıq Qarabağ Azərbaycandır!" şüarı da yer alıb.

❖ ❖ ❖



Rusiya mətbuatı Azərbaycan Prezidenti İlham Əliyevin xalqa son müraciətini geniş yayımlayıb. AZƏRTAC xəbər verir ki, Rusiyanın aparıcı xəbər resursları "Azərbaycan Prezidenti Qarabağda vəziyyətin kəskinləşməsinin təqsirkarlarını açıqladı", "Azərbaycan Prezidenti: Onları iti qovan kimi qovuruq", "Azərbaycan Prezidenti Qarabağda atəşkəs üçün şərtlərini açıqladı" kimi başlıqlı materiallar dərc edib.

Xəbərlərdə vurğulanır ki, Prezident İlham Əliyev Yerevanı və Ermənistana havadarlıq edən ölkələri Dağlıq Qarabağda müharibənin başlanmasının təqsirkarları adlandırıb. Azərbaycan liderinin ordumuzun işğal altında olan torpaqlarımızın bir hissəsini azad etməsi barədə bəyanatı da Rusiya xəbər resurslarının diqqət mərkəzindədir.

Rusiya mətbuatı yazır ki, Prezident İlham Əliyev ermənilər qoşunlarını Dağlıq Qarabağdan çıxarandan sonra Azərbaycanın atəşkəsə razı olacağını bəyan edib.

❖ ❖ ❖




İspaniyanın "Lavanguardia" qəzetində Ermənistanın Azərbaycanın mülki obyektlərinə hücumlarından bəhs edən məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə bazar günü səhər Azərbaycanın ikinci böyük şəhəri Gəncədə mülki hədəflərin Ermənistan ərazisindən raket atəşinə tutulması barədə məlumat verilir.

İspan qəzeti Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinad edərək, ermənilərin Azərbaycandakı mülki obyektlərə hücumlarının təsadüfi olmadığını yazır. Bildirilir ki, Ermənistanın sistematik hücumları bunun Ermənistan ordusu tərəfindən əvvəlcədən hazırlanmış və döyüş hazırlığı proqramına daxil edilmiş plan olduğunu göstərir.

Vurğulanır ki, Azərbaycan Silahlı Qüvvələri düşmənin atəş nöqtələrini məhv etmək və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün kifayət qədər reaksiya göstərir.

❖ ❖ ❖




"Azərbaycan əsgəri onları iti qovan kimi qovur! Onların postları bizim əlimizdədir! Onların silahlı texnikaları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!".

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin oktyabrın 4-də xalqa müraciətində səsləndirdiyi bu fikirlər Cənubi Koreyanın nüfuzlu "The Korea Times" qəzetində dərc olunan "Azərbaycan lideri Ermənistanın geriçəkilmə cədvəli tərtib olunanadək döyüşlərin davam edəcəyini deyib" sərlövhəli məqalədə əksini tapıb. Qeyd olunub ki, Prezident İlham Əliyev 1990-cı illərdə ermənilərin tutduğu torpaqların azad olunması uğrunda Azərbaycan Ordusunun bir həftədir mübarizə apardığını deyib.

Məqalədə dövlətimizin başçısının "Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!" fikrinə də yer verilib.

"The Korea Times"da Qarabağ münaqişəsi ilə bağlı dərc olunmuş digər məqalədə isə ermənilərin Gəncə və Mingəçevir şəhərlərini atəşə tutmasından söz açılıb. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadla bildirilib ki, Ermənistanın ölkənin iri şəhərlərindən biri olan Gəncədəki mülki binaları raket atəşinə tutması nəticəsində bir mülki şəxs ölüb, 32 nəfər yaralanıb. Habelə böyük su anbarının və elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhəri də raket hücumuna məruz qalıb. Qeyd olunub ki, Dağlıq Qarabağdakı ermənilərin rəhbəri Gəncəyə raket hücumunu onların həyata keçirdiyini etiraf edib.

Məqalədə Müdafiə naziri Zakir Həsənovun "Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir" fikrinə də yer verilib. Diqqətə çatdırılıb ki, Dağlıq Qarabağ sovet dövründə Azərbaycanın tərkibində muxtar bölgə olub. SSRİ-nin dağılması ərəfəsində başlayan müharibə 1994-cü ildə atəşkəs razılaşması ilə dayandırılıb. O vaxtdan bəri erməni silahlı qüvvələri Dağlıq Qarabağla yanaşı, onun ətrafındakı bir neçə rayonu işğal altında saxlayıblar. Azərbaycan tərəfi oktyabrın 4-də Cəbrayıl şəhəri də daxil olmaqla, rayonun bir neçə yaşayış məntəqəsini azad edib.

# Beynəlxalq aləm

## “Ermənistan Azərbaycan torpaqlarından çıxmalıdır”



Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal çəkilməlidir.

Bu barədə İran İslam Respublikasının Ali Rəhbəri Əli Xameneinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti YJC agentliyinə müsahibəsində bildirmişdir.

Vilayəti qeyd etmişdir ki, “biz dövlətlərin ərazi bütövlüyü prinsipinə hörmət edirik. İran BMT-nin üzvü kimi bu məsələ ilə bağlı prinsipial mövqe tutur”.

Xameneinin müşaviri vurğulamışdır ki, bir ölkənin başqa bir ölkənin ərazisini işğal etməsi yolverilməzdir: “Dağlıq Qarabağ və Azərbaycan Respublikasının bitişik yeddi rayonu işğal edilmişdir. BMT bu məsələ ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Onların hamısı Ermənistandan işğal olunmuş torpaqlardan çıxmağı, beynəlxalq sərhədlərə qayıtmağı tələb edir”.

Vilayəti nəzərə çarpdırmışdır ki, BMT-yə üzv olan bütün dövlətlər beynəlxalq hüquq normalarına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə əməl etməlidir: “Tehran Ermənistanın Azərbaycan Respublikasının işğal olunmuş ərazilərini geri qaytarmasının tərəfdarıdır. Bir milyondan artıq azərbaycanlı öz torpağını tərk etməyə məcbur olmuşdur. Bu insanlar öz evlərinə qayıtmalıdırlar”.

## Qırğızıstanda etirazlar: bir nəfər həlak oldu, 590 nəfər xəsarət aldı



Qırğızıstanda etiraz aksiyaları zamanı bir nəfər həlak olmuş, 590 mitinqçi yaralanmışdır. Bu barədə Səhiyyə Nazirliyi məlumat vermişdir.

Məlumatda deyilir ki, ilkin tibbi yardım göstərildikdən sonra 439 nəfər ambulator müalicəyə göndərilmişdir. Müxtəlif xəsarətlər alan 150 nəfər xəstəxanaya yerləşdirilmişdir, onlardan 13 nəfər reanimasiya şöbəsindədir.

Xatırladaq ki, parlament seçkilərinin nəticələri ilə razılaşmayan vətəndaşlar paytaxt Bişkekdə etiraz aksiyalarına çıxmışlar. Nümayişlər müxalif beş partiya tərəfindən təşkil olunmuşdur.

Güc strukturlarının əməkdaşları etirazçılara qarşı təzyiqli sudan, gözyaşardıcı qazdan və səs qumbaralarından istifadə etmişdir. Daha sonra etirazçılar parlamentin binasına soxularaq orada yanğın törətmişlər. Milli Təhlükəsizlik Komitəsinin binasına daxil olmuş nümayişçilər keçmiş Prezident Almazbek Atambayevin istintaq təcridxanasından azad edilməsinə nail olmuşlar.

Son məlumata görə, Mərkəzi Seçki Komissiyası parlament seçkilərinin nəticələrini etibarsız saymışdır. Bu barədə MSK-nın üzvü Gülnara Curabayeva məlumat vermişdir.



## Fizika üzrə 2020-ci il Nobel mükafatı laureatlarının adları açıqlandı

2020-ci il fizika üzrə Nobel mükafatına galaktikada supermassiv kompakt obyekt açmış alimlər komandası layiq görülmüşdür. Bu barədə Nobel Komitəsinin saytı məlumat vermişdir.

Mükafatı britaniyalı fizik Rocer Penrouz, alman astrofiziki Raynhard Pentsel və amerikalı astronom Andrea Gez alacaqlar. Onlar aydınlaşdırmışlar ki, qara dəliyin əmələ gəlməsi ümumi nisbilik nəzəriyyəsini etibarlı şəkildə proqnozlaşdırır.

Bu gün kimya üzrə Nobel mükafatının laureatları məlum olacaq. Sabah ədəbiyyat üzrə, ertəsi gün isə Nobel sülh mükafatınının sahibinin adı açıqlanacaq.

Qeyd edək ki, koronavirus pandemiyası üzündən İsveçin paytaxtı Stokholmda Nobel mükafatlarının təqdim edilməsi mərasiminin 1944-cü ildən bəri ilk dəfə onlayn formatda keçirilməsi qərara alınmışdır.

## Dövlət Təhlükəsizliyi Xidməti Qarabağda döyüşən kürd terrorçularının səsini yayıb

Ermənistan Azərbaycan Respublikasına qarşı hərbi təcavüzündə xarici muzdlulardan, o cümlədən İraq və Suriya ərazisindən gətirilmiş kürd terrorçu qruplaşma üzvlərindən fəal istifadə edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) ictimai əlaqələr şöbəsinin yaydığı məlumatda bildirilib.

Məlumatda ölkəmiz əleyhinə hərbi əməliyyatlarda iştirak edən PKK ilə əlaqəli terrorçuların radio danışıqlarının ələ keçirildiyi qeyd olunub. Həmin səs yazılarında terrorçular erməni tərəfində vəziyyətin ağır və itkilərin çox olması, azərbaycanlılar tərəfindən dronların effektli tətbiqi barədə müzakirələr aparır, ermənilərin məlumatlarına aldanaraq münaqişə bölgəsinə gəldiklərindən peşmançılıq keçirdiklərini bildirirlər.

## Koronavirusdan daha 126 nəfər sağalıb, 143 nəfər isə yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 126 nəfər sağalıb, 143 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 40 min 931 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 38 min 713 nəfər müalicə olunaraq sağalıb, 600 nəfər vəfat edib. Aktiv xəstə sayı 1618 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 145 min 397 test aparılıb. Dünənki test sayı isə 5203-dür.





## Azərbaycan İnvestisiya Şirkəti” ASC

### yeni loqonun və veb saytın dizayn edilməsi, hazırlanması işlərinin, həmçinin hostinq xidmətinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şirkətlər (+994 12) 488 80 10 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 09.10.2020-ci il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq proqramının təkmilləşdirilməsi üzrə məsləhət xidmətlərinin satın alınması ilə əlaqədar açıq tenderə dəvət edir

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 (bir yüz) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış* ***(01.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);***
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(01.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);***
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovunun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri , yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **26.10.2020-ci il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **03.11.2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **04.11.2020-ci il saat 15:00-da** açılacaqdır.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi idman inventarlarının satın alınması məqsədilə *tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. İdman inventarlarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 200 (iki yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (son bir ay ərzində verilmiş);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən ən azı 2 (iki) il ərzində müvafiq sahədə peşəkarlığını təsdiq edən sənəd (bağlanmış müqavilələrin surəti);*
- *iddiaçının 2018 və 2019-cu illərdə maliyyə vəziyyəti haqqında bank arayışları;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun “Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat” cədvəli (Əlavə 1, səh. 41) (təsdiqedici sənədlər əlavə olunmaqla);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənəd (müvafiq orqan tərəfindən verilmiş);*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 28.10.2020-ci il saat 15:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 05.11.2020-ci il saat 17:00-dək Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 06.11.2020-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün qazanxana və istilik sistemlərinin satın alınması məqsədilə tender elan edir

LOT-1. Qazanxana və istilik sistemlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 300 (üç yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən ən azı 1 (bir) il ərzində müvafiq sahədə analoji işlər üzrə peşəkarlığı və təcrübəsi (bağlanmış müqavilələrin surəti);*
- *Azərbaycan Respublikasının mövcüd qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə, uyğunluq və s.);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *iddiaçının 2019-cu ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun “Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat” cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənəd;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 1 (bir) ay ərzində icraçı tərəfindən Sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 27.10.2020-ci il saat 10:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 04.11.2020-ci il saat 10:00-dək Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 05.11.2020-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Ağalar Vəliyev Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova qardaşı

**MURAD İMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova qardaşı

**MURAD İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi “Azərdövsutəslayihə” İnstitutunun sabiq direktoru

**RAHİB ORUC OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Bakı Şəhəri üzrə Baş Maliyyə İdarəsinin rəisi Təbriz Həsənov Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova qardaşı

**MURAD İMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7518
Sifariş 2342
Qiyməti 40 qəpik